RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 33 (10053) 20 fevral 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İLHAM ƏLİYEVin qlobal sülh missiyası




## Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib

**Fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

Əvvəlcə birgə foto çəkdirildi.

ABŞ Prezidenti Donald Tramp tədbirdə çıxış etdi.

2

## Vətənə və xalqa xidmət nümunəsi

Birinci vitse-prezident Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşlərdə olur. Belə görüşlər, müzakirələr çox səmimi ortamda keçir. Mehriban xanımın fəaliyyətinin, təşəbbüslərinin mənbəyində də cəmiyyətdən, əhalinin müxtəlif təbəqələrindən gələn sosial sifarişlər dayanır. Onun özü dəfələrlə bildirib ki, missiyasını insanları narahat edən məsələlərin həllinə yardım göstərməkdə görür. Mehriban xanım Əliyevanın ifadə etdiyi "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa, töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır" fikri onun portretinin konkret ştrixlərini göz önündə canlandırır.

4

## Prezident İlham Əliyevin sosial media hesablarında Sülh Şurasının ilk iclası ilə bağlı paylaşım edilib




## Ədalət çağırışı

Azərbaycan neokolonializmə qarşı mübarizəni siyasətində prioritetlərdən biri kimi müəyyənləşdirib. Ölkəmiz bəyan edir ki, istər siyasi, istər iqtisadi, istərsə də mənəvi istismar formaları qəbuledilməzdir. Azərbaycanın mövqeyi əməli addımlarla da təsdiqlənir. Azərbaycan məsələyə öz tarixi təcrübəsindən yanaşır. Uzun illər işğal faktı ilə üzləşmiş bir ölkə kimi azadlıq və suverenlik anlayışlarını yaxşı bilir. Məhz buna görə də ölkəmiz başqa xalqların öz hüquqlarını qorumaq istəyini anlayışla qarşılayır. Bu istiqamətdə yaradılan Bakı Təşəbbüs Qrupu fəal rol oynayır. Qurumun əsas məqsədi müstəmləkəçilik və neokolonializm siyasətinin nəticələri barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdır.

Müstəmləkəçilikdən zərər çəkmiş xalqların səsi bütün platformalarda eşidilməlidir. Bu məsələ ayrı-ayrı regionların yox, bütövlükdə beynəlxalq birliyin diqqət mərkəzində olmalıdır. Azərbaycan bu istiqamətdə səylərini davam etdirir və bu mövzunu qlobal müzakirə predmetinə çevirir.

Zaman dəyişir, siyasi sistemlər yenilənir. Lakin azadlıq, ədalət və ləyaqət kimi dəyərlər dəyişmir. Fransa və onun mövqeyini bölüşən bəzi dairələrdən fərqli olaraq, Azərbaycan üçün ədalət anlayışı bütövdür. Azərbaycanın prinsipial mövqeyi odur ki, ədalət hamı üçün eyni meyarlarla tətbiq olunmalıdır.

3

## ABŞ-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir



Vaşinqton sammiti həm də ABŞ-Azərbaycan münasibətlərinin yenidən normallaşmaya doğru irəliləməsi baxımından tarixi bir hadisə oldu. Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevi yüksək səviyyədə qarşılaması, ikitərəfli görüşün keçirilməsi, "Azadlığa Dəstək Aktı"na qəbul olunmuş 907-ci düzəlişin fəaliyyətinin dayandırılması və hökumətlərə iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə tapşırıqların verilməsi Azərbaycan-ABŞ münasibətlərinin inkişafına yeni nəfəsin verilməsi demək idi. Yeri gəlmişkən, artıq bu xartiya da imzalanıb. Eyni zamanda Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına da şahidlik etdik.

5

## Azərbaycan Avropa, Yaxın Şərq və Avrasiyanın kəsişməsində əsl diqqət mərkəzinə çevrilib

Müstəqillik qazandığı andan bəri Azərbaycan həm əhəmiyyətini qoruyub saxlayıb, həm də onu sürətlə gücləndirib və bu, təsiredicidir. Məsələ təkcə beynəlxalq nizamdakı qlobal dəyişikliklərdə deyil, həm də ölkə rəhbərliyinin ardıcıl, strateji və uzaqgörən mövqeyindədir. Birincisi, Azərbaycan türk dünyasında ən mühüm əlaqə nöqtəsidir - bu rol onu unikal edir. Onun coğrafi mövqeyi Mərkəzi Asiyadan qlobal bazarlara təbii sərvətlər üçün tranzit dövlət kimi olduqca vacibdir. Bu, həm geostrateji, həm də geoiqtisadi baxımdan çox böyük perspektivlər açır.



6

# İLHAM ƏLİYEVin qlobal sülh missiyası

## Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib

*Əvvəli 1-ci səh.*

Prezidentliyi dövründə 8 münaqişəyə son qoyduğunu deyən Donald Tramp vurğuladı ki, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq. ABŞ Prezidenti Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür edərək dedi: "Bilirsiniz, müharibə edəndə onun xərcləri sülhün dəyərindən 100 qat artıq olur. Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Otuz il mübarizədən sonra bu, aydın oldu, elə deyilmi? Otuz il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz. Siz və yeni dostunuz, ofisimə gəldiniz və dediniz, mən 22 il mübarizə aparmışam. Siz 23 ildir ki, fəaliyyətdəsiniz, eləmi? Lakin 22 il mübarizə aparmışam. Bax, onunla. Onun həmkarı isə dedi: "Mən də yeddi ildir rəhbərəm. Onunla mübarizə aparmışam". Biz isə 24 saatın içərisində işi yerinə yetirdik. Çox yaxşı sülh alındı. Düşünürəm ki, onlar artıq dostdur. Mən bəlkə bunu söyləməli deyiləm. Fikrimcə, onlar artıq dostdur, elə deyilmi? Qalxın ayağa. Bunlar möhkəm iradəli insanlardır. Elə bilirsiniz asan idi? Yox, asan deyildi. İki sərt insandır, amma yaxşı insanlardır. Oval ofisdə idik. Onlar ikisi də gəldi. Biri otağın bir tərəfində, digəri o biri tərəfində. Masa arxasında iki gözəl oturacaq var idi. Biri otağın bir yerində, digəri başqa yerində. Dedim onlara bəlkə bir-birinizə yaxın gələsiniz. Onlar bir az tərəddüd etdilər. Otuz iki il idi bir-birilərini məhv edirdilər. Dedim, bir-birinizə yaxın dayanın. Bir saat keçdi və onlar yan-yana oturdular. Razılaşma əldə etdik. Bir-birinin əlini sıxdılar, imzaladılar. Biz iki mühüm ölkə ilə sülhün əldə olunmasına imkan yaratdıq, heç vaxt unutmaram. Yavaş başladılar, sonra isə qəti addımlar atdılar. Siz özünüzlə çox fərəhlənə bilərsiniz. Gözəl hadisədir. Təşəkkür edirəm. Baxın. Otuz iki il... Sağ olun, çox sağ olun".

Sonra digər dövlətlərin nümayəndələrinin çıxışları dinlənildi.

İclasın sonunda Sülh Şurasının maliyyə intizamı və şəffaflığı prinsipləri haqqında qətnaməsi imzalandı.













## *Hikmət HACIYEV:* "7 milyard ABŞ dolları məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur"



Azərbaycan təsisçi üzv dövlət kimi Sülh Şurasının məqsəd və məramlarını dəstəkləyir. Gələcəkdə Azərbaycan tərəfindən Sülh Şurası vasitəsilə Qəzzada sərmayə layihələrində iştirak nəzərdən keçirilə bilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "X" sosial media hesabında yazıb.

Prezidentin köməkçisi həmçinin qeyd edib: "Amma bir məsələyə aydınlıq gətirmək istərdik. Belə ki, Sülh Şurasının bugünkü iclasında səsləndirilən 7 milyard ABŞ dolları məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur".

## WUF13-ün Bakıda təşkil edilməsi beynəlxalq əməkdaşlığın genişlənməsinə yeni imkanlar yaradır

"Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə keçirilməsi şəhərsalma inkişafı baxımından mühüm mərhələ hesab olunur. Forumun Bakı şəhərində təşkil edilməsi region ölkələri üçün dayanıqlı şəhərsalma, innovativ şəhər idarəetmə və ekoloji tarazlığın qorunması istiqamətində beynəlxalq əməkdaşlığın genişlənməsinə yeni imkanlar yaradır".



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib. Onun sözlərinə görə, tədbirin Azərbaycan üçün əhəmiyyəti yalnız ev sahibi statusu ilə məhdudlaşmır.

"Bu platforma ölkənin şəhərsalma, infrastruktur modernləşməsi və yaşıl inkişaf sahəsində əldə etdiyi təcrübənin təqdim olunmasına, eyni zamanda qabaqcıl beynəlxalq yanaşmaların öyrənilməsinə şərait yaradır. Forum çərçivəsində şəhərsalma fəaliyyəti proseslərinin idarə olunması, iqlim dəyişikliklərinə uyğunlaşma, şəhərlərdə sosial inklüzivliyin gücləndirilməsi və innovativ texnologiyaların tətbiqi kimi məsələlərin müzakirəsi nəzərdə tutulur. Forumun Cənubi Qafqaz və Mərkəzi Asiya regionları üçün əsas töhfəsi şəhərlərin dayanıqlığının artırılması istiqamətində ortaq yanaşmaların formalaşdırılması olacaq. Bu, xüsusilə sürətli şəhərsalma, iqlim riskləri və infrastruktur ehtiyaclarının artdığı şəraitdə region ölkələrinin təcrübə mübadiləsini sürətləndirə bilər", - deyə Aydın Hüseynov vurğulayıb.

Milli Məclisin deputatı əlavə edib ki, forumun təşkili həm də Birləşmiş Millətlər Təşkilatı sisteminə daxil olan UN-Habitat proqramı ilə əməkdaşlığın dərinləşdirilməsi baxımından önəm daşıyır: "Bu çərçivədə şəhər planlaşdırılması, dayanıqlı nəqliyyat, enerji səmərəliliyi, rəqəmsal şəhər idarəetməsi və sosial xidmətlərin keyfiyyətinin artırılması üzrə beynəlxalq layihələrin genişlənməsi gözlənilir. Belə nüfuzlu tədbirin regionda keçirilməsi şəhərlərin qlobal urban inkişaf gündəliyinə inteqrasiyasını sürətləndirəcək, innovasiya və investisiya axınlarını təşviq edəcək. Eyni zamanda bu təşəbbüs şəhərlərin daha dayanıqlı, inklüziv və rəqabətqabiliyyətli inkişafına töhfə verməklə uzunmüddətli sosial-iqtisadi nəticələr formalaşdıracaq. Beləliklə, WUF13-ün regionda ilk dəfə təşkili təkcə beynəlxalq tədbir kimi deyil, həm də şəhərsalma siyasətinin modernləşdirilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində strateji addım kimi dəyərləndirilir".

## Azərbaycan Milli QHT Forumu İsveçrənin Azərbaycandakı səfirinə açıq məktub ünvanlayıb

Azərbaycan Milli QHT Forumu İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Tomas Ştəliyə (Thomas Stdhli) açıq məktub ünvanlayıb.



AZƏRTAC məktubu təqdim edir: "Biz Azərbaycan vətəndaş cəmiyyəti təsisatları olaraq, İsveçrə Konfederasiyasında sistemli şəkildə anti-Azərbaycan narrativinin formalaşdırılması cəhdlərini müşahidə edirik. İsveçrə parlamentinin hansısa "Sülh Forumu" adı altında ortaya atdığı bu narrativlər Ermənistanda revanşizmin alovlandırılmasına, Azərbaycanla Ermənistan arasında sülh prosesinə zərbə vurmağa xidmət edir. Azərbaycana qarşı nifrət üzərində qurulan iftira kampaniyası regionda sülh və etimad quruculuğunu zədələməyə, separatizmin yenidən təbliğinə yönəlib.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə təxribatçı fəaliyyət, tarixin arxivinə göndərilmiş ritorika və terminologiyadan istifadə İsveçrə Konfederasiyasında adi hal almaqdadır. Bəzi İsveçrə parlamentarilərinin son vaxtlar Qarabağ məsələsini "bağlanmış" hesab etmədiyini tez-tez dilə gətirmələri, Erik Fontobelin və digərlərinin İrəvanda revanşistlərin "ofisləri"ndə görüşlər keçirmələri anlaşılmır. Qərargahı İsveçrədə yerləşən "Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatı isə Qarabağ məsələsini dini müstəvidə qələmə verməyə çalışır, Azərbaycana böhtan atır.

Biz bundan əvvəl də sizə üz tutaraq bildirmişdik ki, belə təşəbbüslər xüsusilə də İsveçrə kimi beynəlxalq hüquqa hörmət bəslədiyini iddia edən bir ölkənin parlamentində irəli sürüləndə, qəbul ediləndə və ya İsveçrə cəmiyyətinin bir hissəsi olan kilsə tərəfindən təşviq ediləndə, İsveçrə ərazisində keçiriləndə obyektivlik və bitərəflik prinsipinə zidd olaraq ikili standartların bariz nümunəsinə çevrilir. XXI əsrdə Avropanın mərkəzində məsələlərə etnik və dini təəssübkeşlik prizmasından yanaşılması qəbuledilməzdir. Xüsusilə regiondan kənar dairələrin məsələlərə birtərəfli, qərəzli və irqçi yanaşması yolverilməzdir. Biz bu cür yersiz müdaxilələri bir daha qətiyyətlə pisləyir, onları Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesinə zərbə hesab edirik.

İsveçrənin Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 4 min nəfərə yaxın azərbaycanlı itkinin taleyini aydınlaşdırmaq əvəzinə, ölkəmizin suverenliyi, ərazi bütövlüyü əleyhinə addımlar atmış, o cümlədən vaxtilə Xankəndidə icazəsiz ofis açmışdı. BQXK özünün humanitar təşkilat olduğunu iddia etsə də, əslində, qəbuledilməz siyasi fəaliyyətlə məşğul olmuşdur. BQXK-nın mandatına zidd olan bu təlimatların mənbəyi haradır?

Biz BQXK-nın Azərbaycanın etibarından sui-istifadə edərək emblemi altında olan yük və təcili tibbi yardım avtomobilləri ilə qaçaqmalçılıqla məşğul olmasını, bu xüsusda həmin nəqliyyat vasitələrində aşkarlanan benzin, siqaret, mobil telefon qutularını da unutmamışıq. "Humanitar yardım" adı altında Azərbaycanın suveren ərazilərində qanunsuz ticarət dövriyyəsinin aparılmasına, fırıldaqçılığa niyə göz yumulub?

İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynov adlı birini aylarla inzibati binasında gizlətməklə, İsveçrə Xarici İşlər Nazirliyinin nümayəndəsi Didye Burkhalterin müşayiəti ilə qadın paltarında ölkədən qaçırmaqla hansı məqsəd güdüb? Emin Hüseynovun bu gün Azərbaycan dövlətinə qarşı çirkin iftira kampaniyasında İsveçrə dövlətinin rolu nədir?

Bizim suallarımız çoxdur. Yuxarıda qeyd edilənlərlə əlaqədar biz - Azərbaycan Milli QHT Forumunun təmsilçiləri 100-lərlə Azərbaycan QHT-sini birləşdirən çətir təşkilat olaraq, Sizinlə görüşməyə hazırıq".



# Ölkəmiz böyük dövlətlərlə etibarlı tərəfdaşlıq münasibətlərinə malikdir

**Azərbaycanın xarici siyasət kursu dəqiq, praqmatik və çoxvektorludur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakı dünyanın bir-biri ilə rəqabət aparan nəhəng güc mərkəzləri - ABŞ, Avropa İttifaqı və Çin üçün eyni dərəcədə cəlbedici, etibarlı və vazkeçilməz tərəfdaşa çevrilib. Qərb üçün enerji təhlükəsizliyinin can damarı sayılan Azərbaycan, Şərq aləmi, xüsusilə, Çin üçün qlobal ticarətin yeni siması olan Orta dəhlizin strateji qapısıdır.**

Əlbəttə, bu uğurun sirri Azərbaycanın, sadəcə, coğrafi mövqeyində və təbii resurslarında deyil, həm də dövlətimizin başçısının uzaqgörən xarici siyasət strategiyasında və "Sözümüz imzamızdır" prinsipi ilə hərəkət edərək hər iki qütbdə yüksək şəxsi nüfuz qazanmasındadır. Onu da vurğulayaq ki, əgər bir ölkənin başında uzaqgörən lider yoxdursa, o dövlətin sahib olduğu təbii sərvətlər öz xalqına rifah və əmin-amanlıq gətirməyəcək. Bu paradoksal mənzərəni dünyanın bir çox ölkəsində görmək mümkündür.

## Azərbaycan-Çin tərəfdaşlığı yeni məzmun qazanır

Azərbaycanın dünya nəhənglərindən olan Çinlə əməkdaşlığı son dönəmlərdə daha da genişlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Prezident İlham Əliyevin fevralın 17-də Çin Xalq Respublikasının Sədri Si Cinpinə ünvanladığı səmimi təbrik məktubu Bakı-Pekin arasında yüksəksəviyyəli ikitərəfli əlaqələrin, sarsılmaz dostluğun və dərinləşən strateji tərəfdaşlığın növbəti sübutudur. Bu məktub sadəcə bayram təbriki deyil, iki ölkə arasında yüksək siyasi dialoqun, qarşılıqlı hörmətin və gələcəyə yönəlmiş böyük planların rəsmi təzahürüdür. Çin xalqını Bahar bayramı münasibətilə təbrik edən Prezident İlham Əliyev Azərbaycan ilə Çin arasında möhkəm təməllər üzərində qurulmuş hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsi və yeni məzmun qazanmasının sevindirici olduğunu qeyd edib. Dövlət başçısı vurğulayıb ki, siyasi dialoqun intensivliyi və qarşılıqlı anlaşma bu münasibətlərin daha sürətli inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Bakı-Pekin münasibətləri Avrasiyanın iqtisadi və logistik xəritəsini dəyişən strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Azərbaycan Çinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biridir. İki ölkə arasındakı ən strateji bağ Orta dəhliz adlanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutudur. Çindən gələn yüklər Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Avropaya daha qısa müddətdə çatdırılır. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı Çin mallarının paylanma mərkəzinə çevrilməkdədir. Son dövrlərdə Çin şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində və digər bölgələrində bərpaolunan enerji layihələrində, nəhəng günəş-elektrik stansiyalarının tikintisində podratçı və investor kimi çıxış edirlər.

İki ölkə arasında sarsılmaz prinsiplərdən biri də suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmətin nümayiş etdirilməsidir. Azərbaycan "Vahid Çin" siyasətini qətiyyətlə dəstəkləyir. Çin isə hər zaman Azərbaycanın suverenliyini və müstəqilliyini tanıyan, beynəlxalq hüququn normalarına hörmət edən mövqe nümayiş etdirir. Ötən ilin aprelində Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində hərtərəfli strateji tərəfdaşlıq qurulması haqqında Birgə Bəyanat, vizasız rejimin tətbiqi haqqında sənəd və əməkdaşlıq sazişləri imzalanıb. Dövlət başçısı 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də Pekinlə strateji tərəfdaşlığı və imzalanmış sənədləri Azərbaycanın xarici siyasətinin və diplomatiyamızın böyük uğuru adlandırıb. Pekinlə bərabərhüquqlu əməkdaşlığın qurulması Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin göstəricisidir. Məhz buna görə Si Cinpin Azərbaycan Liderini Çinin ən yaxın dostu hesab edir.

## Qərb dünyası da Bakıya böyük etimad göstərir

Prezident İlham Əliyevin böyük məharətlə həyata keçirdiyi Azərbaycanın balanslı xarici siyasət strategiyası ölkəmizi müasir beynəlxalq münasibətlər sistemində qlobal güc mərkəzləri arasında əvəzedilməz körpü və yüksək etibarlı tərəfdaş statusuna yüksəldib. Bu gün hər iki qütbün hegemon güc mərkəzlərinin Azərbaycan Liderinə xüsusi diplomatik hörmət və sarsılmaz etimad göstərməsi dövlətimizin yalnız regional proseslərə təsir edən nüfuzlu və güclü ölkə deyil, həm də qlobal miqyasda strateji qərarlara təsir edən bir mərkəz olduğunu təsdiqləyir. Qərb dünyası üçün Azərbaycan, xüsusilə Avropanın enerji təhlükəsizliyi arxitekturasını yenidən formalaşdıran və qitənin enerji xəritəsini köklü surətdə dəyişən ən mühüm strateji tərəfdaşdır.

"Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji diversifikasiyasına və resurs təhlükəsizliyinə verilən fundamental töhfə həm Brüssel, həm də Vaşinqton tərəfindən ən yüksək səviyyədə qiymətləndirilir. Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Bakıya səfəri zamanı Azərbaycanı "vazkeçilməz və etibarlı tərəfdaş" adlandırması bu nüfuzun ən bariz rəsmi təsdiqidir. Eyni zamanda Azərbaycanın qlobal sülhə verdiyi töhfələr, Əfqanıstandakı sülhməramlı missiyalarda nümayiş etdirdiyi peşəkarlıq və ABŞ-nin mühüm logistik ehtiyacları üçün açılan strateji hava dəhlizi Bakı ilə Qərb arasında hərbi-strateji səviyyədə dərin etimad mühiti formalaşdırıb. Digər tərəfdən, Azərbaycanın Şərqə, dünya nəhəngi olan Çinə açılan qapı rolunu oynaması bu balans diplomatiyasını daha da zənginləşdirir.

Azərbaycanı qlobal arenada unikal və etibarlı tərəfdaşa çevirən ən mühüm məqam odur ki, rəsmi Bakı heç bir qütbün maraqlarını digərinə qurban vermir, əksinə, bütün tərəflərlə qarşılıqlı hörmətə və milli maraqlara əsaslanan paralel münasibətlər qurmağı bacarır. Bu uzaqgörən yanaşma sayəsində Bakı bu gün həm Vaşinqton, həm Brüssel, həm də Pekinlə eyni dərəcədə səmərəli, bərabərhüquqlu və açıq danışıqlar apara bilən dünyadakı nadir paytaxtlardan birinə çevrilib. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Orta dəhlizin mərkəzi logistik qovşağına çevrilməyimiz Azərbaycanın Şərq qütbü üçün də əhəmiyyətini artıraraq ölkəmizi Avrasiyanın iqtisadi arteriyasına çevirib.

Bütün bu nailiyyətlər, şübhəsiz ki, Azərbaycan Liderinin şəxsi diplomatiyasının, dünya siyasətinin nəbzini düzgün tutmaq bacarığının və ölkəmizin hər keçən gün artan iqtisadi-hərbi qüdrətinin məntiqi nəticəsidir. Belə çoxvektorlu və praqmatik siyasət Azərbaycanı həm Qərbin enerji təhlükəsizliyi, həm də Şərqin qlobal ticarət ambisiyaları üçün kəsişmə nöqtəsi halına gətirərək, dövlətimizin beynəlxalq nüfuzunu zirvəyə daşıyıb.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın sülh diplomatiyasının qlobal zəfəri

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu yalnız onların siyasi, iqtisadi, hərbi gücü ilə yox, qlobal sülh və təhlükəsizliyə verdiyi real töhfələrlə ölçülür. Bu kontekstdə Azərbaycanın həyata keçirdiyi prinsipial xarici siyasət kursu Cənubi Qafqazın hüdudlarını belə aşan "sülh" nümunəsi ilə dünyanın diqqətini çəkir.



Onilliklər boyu davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi ilə həm regionda yeni hərbi-siyasi reallıqlar yaradılıb, həm də qlobal miqyasda tətbiq edilə biləcək sülh modeli ortaya qoyulub.

Bu mənada ölkəmizin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasında təsisçi üzv kimi iştirakı da təsadüfi deyil. Azərbaycanın bu nüfuzlu qurumda təmsil olunması, Bakının sülh strategiyasının qlobal əhəmiyyətini təsdiqləyir.

Prezident İlham Əliyevin bu günlərdə ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfəri və burada təşkil edilmiş Sülh Şurasının ilk iclasında iştirakı Azərbaycanın həm regional, həm də qlobal səviyyədə sülhün təşviqinə verdiyi ardıcıl töhfələrin dünya miqyasında tanınmasının, beynəlxalq sülh platformasında artan rolunun göstəricisidir.

## Qlobal barışa töhfə

Xatırladaq ki, Ümumdünya İqtisadi Forumu çərçivəsində bu il yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Prezident İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub.

Azərbaycanın bu nüfuzlu qurumda təsisçi üzv qismində təmsil olunması, Bakının sülh strategiyasının qlobal əhəmiyyətini təsdiqləyir. Eyni zamanda ölkəmizin Sülh Şurasında iştirakı həm diplomatik uğur, həm də beynəlxalq ictimaiyyətin ölkəmizin sülhə verdiyi töhfələrə olan etimadının təzahürüdür. Regional münaqişənin ədalətli həlli, suverenliyin və ərazi bütövlüyünün təmin olunması, dialoq və əməkdaşlığın təşviqi kimi vacib məsələlər də bu qəbildəndir.

Azərbaycan Qarabağ münaqişəsini siyasi qətiyyəti və hərbi gücü ilə 2020-ci ildə həll edib. Bakının postmünaqişə dövründə yürütdüyü siyasi xətt də barış, qarşılıqlı anlaşma və əməkdaşlıq istiqamətində olub. Ötən müddətdə Azərbaycan sülh gündəliyinin irəlilədilməsi üçün atdığı real addımlarla əsas hədəfinin dayanıqlı sülh olduğunu göstərib. Hazırda regionda birgəyaşayış və əməkdaşlıq üçün formalaşdırılmış münbit zəmin bu istiqamətdə səylərin nəticəsidir.

Ötən il 8 avqust tarixində Vaşinqton Sammitində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin mətninin paraflanması bölgədə de-fakto sülh yaradıb.

Ölkəmiz təkcə bölgədə deyil, qlobal səviyyədə sülhün əldə olunması üçün mühüm çağırışlar edir, əməli işlər həyata keçirir.

Azərbaycanın beynəlxalq arenada sülhün və təhlükəsizliyin təminatçısı kimi rolu, ABŞ tərəfindən də yüksək qiymətləndirilir və bu dəstək ikitərəfli münasibətlərin əsasını təşkil edir. Bu tərəfdaşlıq regional sabitliyin möhkəmləndirilməsi və sülh proseslərinin irəli aparılması istiqamətində konkret mexanizmlərlə və atılan real addımlarla gücləndirilir.

Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq münasibətlərinin 33 ildən artıq tarixi var. Lakin o da reallıqdır ki, Amerika ilə Azərbaycan arasında ikitərəfli əlaqələr məhz Prezident Donald Trampın Ağ Evə hər iki rəhbərliyi dönəmində müsbət dinamika qazanıb.

## ABŞ-Azərbaycan əlaqələri tarixi mərhələdə

Ötən ilin 7-8 avqust tarixlərində Prezident İlham Əliyevin Donald Trampın rəsmi dəvəti ilə Vaşinqtona işgüzar səfəri iki ölkə arasında münasibətlərin yüksək səviyyəsini nümayiş etdirdi. Həmin zaman ABŞ liderinin Ağ Evin rəmzi açarını dövlətimizin başçısına təqdim etməsi, "Azadlığa Dəstək Aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən Azərbaycan Prezidentinin iştirakı ilə oval ofisdə imtina edilməsi və digər diqqətçəkən məqamlar da buna nümunədir.

Bu il fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması iki ölkə arasında əlaqələrdə yeni səhifə açdı. Sözügedən tarixdə Bakıda Prezident İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey.Di.Vensin geniş tərkibdə görüşü oldu. Həmin görüşdə Prezident İlham Əliyev ABŞ-Azərbaycan münasibətlərinin daha da dərinləşməsinə vurğu etdi: "Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir".

Azərbaycan-ABŞ strateji tərəfdaşlığı - enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində üç istiqaməti əhatə edir.

Bu, Azərbaycan və ABŞ arasında mövcud olan strateji tərəfdaşlıq əlaqələrinin yeni mərhələyə yüksəldiyini, enerji təhlükəsizliyindən geosiyasi sabitliyə qədər geniş spektrdə əməkdaşlığın dərinləşdiyini nümayiş etdirir. Bu əməkdaşlıq sadəcə ikitərəfli deyil, həm də regional və qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edir.

Onu da xüsusi vurğulayaq ki, Vaşinqton Sammitində razılaşdırılan TRIPP (Zəngəzur dəhlizi) ABŞ-nin dəstəyi ilə regional nəqliyyat və tranzit layihələrinin genişləndirilməsinə mühüm töhfə verəcək.

Azərbaycanın nümayiş etdirdiyi diplomatik fəallıq və ABŞ ilə qurulan strateji tərəfdaşlığın yeni keyfiyyət mərhələsi, ümumilikdə Cənubi Qafqazın taleyində əməkdaşlığa əsaslanan yeni səhifə açır.

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri və Sülh Şurası çərçivəsində irəli sürülən təşəbbüslər bir daha sübut edir ki, Azərbaycan artıq sadəcə regional problemlərin həllində tərəf deyil, həm də qlobal sülhün yaradılmasında əsas tərəflərdən biridir. Bu isə ölkəmizin sülh modelinin bu gün dünya üçün təhlükəsiz gələcəyə doğru ən etibarlı yol xəritələrindən biri olduğunu təsdiqləyən faktordur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ədalət çağırışı

Hazırda dünyanın müxtəlif bölgələrində müstəmləkəçilikdən əziyyət çəkmiş xalqlar azadlıq və hüquqlarının bərpası uğrunda mübarizəni davam etdirirlər. Təəssüf ki, beynəlxalq təşkilatların və qlobal ictimaiyyətin bir hissəsi bu açıq ədalətsizliklərə yetərli reaksiya vermir.



Bəzi hallarda isə hadisələrə seyrçi yanaşma nümayiş etdirilir. Bu isə ikili standartların mövcudluğunu açıq şəkildə ortaya qoyur. Xüsusilə, özünü demokratiyanın dayaqlarından biri kimi təqdim edən bəzi ölkələrin davranışı ciddi suallar doğurur.

Məsələn, Fransa uzun illərdir ki, neokolonializm siyasəti yürüdür. Onun timsalında bəşəriyyət neokolonializmin ən qəddar və amansız forması ilə üzləşib. Bu ölkə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilən prinsiplərinə əməl etmək əvəzinə həmin normaları pozur. İnsan hüquqlarının müdafiəsi ilə bağlı yüksək tribunalardan çıxışlar edilsə də, praktikada fərqli mənzərə ortaya çıxır. Bu isə xalqlar arasında etimadın formalaşmasına yox, əksinə, gərginliyin artmasına səbəb olur.

Fransa tez-tez liberal dəyərlərdən danışır. Hansı ki liberalizm tarixi baxımdan fərdi azadlığı əsas prinsip sayan, hər bir insanın hüquq və imkan baxımından bərabər olmasını müdafiə edən bir düşüncə sistemidir. Yəni bu anlayış əməli addımlarla təsdiq olunmalıdır. Ancaq müşahidələr göstərir ki, Fransada bu prinsiplər hər zaman hamı üçün eyni şəkildə tətbiq edilmir. Xüsusilə, dini və etnik azlıqlara münasibətdə ciddi suallar yaranır.

Tarixə nəzər salsaq görərik ki, XIX əsrin sonlarında Fransada antisemit (yəhudilərə nifrət) baxışlar geniş yayılmışdı. Eduard Drumont kimi ideoloqlar cəmiyyətdə ayrı-seçkiliyi təbliğ edən fikirlər irəli sürürdülər. Bu isə onu deməyə əsas verir ki, Fransada müəyyən dövrlərdə dözümsüzlük meyilləri güclü olub. Hətta elə mərhələlər olub ki, dini və siyasi maraqlar naminə müxtəlif qruplar arasında süni yaxınlaşmalar yaratmaq cəhdləri edilib. Formal olaraq birlik görüntüsü yaradılsa da, nəticədə cəmiyyətdə daha dərin bölünmələr meydana çıxıb.

Fransanın müstəmləkə idarəçiliyi tarixdə qaranlıq səhifə kimi qalır. Müstəmləkə siyasətindən imtina etməyən bu dövlət təsir dairəsində saxladığı ölkələrin daxili işlərinə müdaxilə edir, onların siyasi və iqtisadi azadlıqlarını məhdudlaşdırır. Bəzən isə öz cəmiyyətində belə sosial narazılıqların artmasına zəmin yaradan addımlar atır.

Fransanın bəzi ərazilərdə keçirdiyi nüvə sınaqları da uzun illərdir müzakirə obyektidir. Bu fəaliyyətlər ətraf mühitə ciddi ziyan vurur, insanların sağlamlığında ağır fəsadlar yaradır. Ekoloji və humanitar problemlərin bu gün də davam etməsi narahatlıq doğurur.

Digər mühüm məsələ isə assimilyasiya siyasəti ilə bağlıdır. Yerli xalqların etnik və mədəni kimliyi zəiflədilir, demoqrafik tərkibin dəyişdirilməsi istiqamətində addımlar atılır. Burada isə əsas məqsəd müstəqillik meyillərini zəiflətməkdir. Aydındır ki, belə hallar beynəlxalq hüququn prinsiplərinə uyğun deyil.

Azərbaycan neokolonializmə qarşı mübarizəni siyasətində prioritetlərdən biri kimi müəyyənləşdirib. Ölkəmiz bəyan edir ki, istər siyasi, istər iqtisadi, istərsə də mənəvi istismar formaları qəbuledilməzdir. Azərbaycanın mövqeyi əməli addımlarla da təsdiqlənir.

Azərbaycan məsələyə öz tarixi təcrübəsindən yanaşır. Uzun illər işğal faktı ilə üzləşmiş bir ölkə kimi azadlıq və suverenlik anlayışlarını yaxşı bilir. Məhz buna görə də ölkəmiz başqa xalqların öz hüquqlarını qorumaq istəyini anlayışla qarşılayır. Bu istiqamətdə yaradılan Bakı Təşəbbüs Qrupu fəal rol oynayır. Qurumun əsas məqsədi müstəmləkəçilik və neokolonializm siyasətinin nəticələri barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdır.

Müstəmləkəçilikdən zərər çəkmiş xalqların səsi bütün platformalarda eşidilməlidir. Bu məsələ ayrı-ayrı regionların yox, bütövlükdə beynəlxalq birliyin diqqət mərkəzində olmalıdır. Azərbaycan bu istiqamətdə səylərini davam etdirir və bu mövzunu qlobal müzakirə predmetinə çevirir.

Zaman dəyişir, siyasi sistemlər yenilənir. Lakin azadlıq, ədalət və ləyaqət kimi dəyərlər dəyişmir. Fransa və onun mövqeyini bölüşən bəzi dairələrdən fərqli olaraq, Azərbaycan üçün ədalət anlayışı bütövdür. Azərbaycanın prinsipial mövqeyi odur ki, ədalət hamı üçün eyni meyarlarla tətbiq olunmalıdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*



# Vətənə və xalqa xidmət nümunəsi

**Müdriklərin söylədiyi kimi, hər bir insanın dəyəri onun can atdığı məqsədin aliliyi ilə ölçülür. Bu mənada Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva nəinki Azərbaycanda, dünyanın müxtəlif ölkələrində xeyirxahlıq tərənnümçüsü kimi tanınır. Biz Mehriban xanımın personasını dünyanın birinci xanımları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, xarici ölkə başçıları ilə rəsmi tədbirlərdə, milli mədəniyyətimizi, dəyərlərimizi, dövlətçilik ənənələrimizi ən yüksək səviyyədə və ləyaqətlə təmsil edən görkəmli ictimai xadim timsalında - ali məqsədlərin daşıyıcısı və bu məqsədləri reallaşdıran ictimai-siyasi xadim obrazında qəbul edirik. Mehriban xanım Əliyevanın nəcib əməllərinin mayasında yalnız Azərbaycan sevgisi dayanır!**

Mehriban xanımın fəaliyyət istiqamətlərinə nəzər yetirdikdə peşəkarlıq duyumu və çevik idarəetmə ilə müşayiət olunan kamil şəxsiyyət göz önündə canlanır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanır. Bu fəaliyyət, eyni zamanda respublikamızın tərəqqisinin sürətləndirilməsi və davamlı xarakter alması, ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsi, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Bununla yanaşı, Mehriban Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti qadınlar üçün də parlaq nümunədir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşlərdə olur. Belə görüşlər, müzakirələr çox səmimi ortamda keçir. Mehriban xanımın fəaliyyətinin, təşəbbüslərinin mənbəyində də cəmiyyətdən, əhalinin müxtəlif təbəqələrindən gələn sosial sifarişlər dayanır. Onun özü dəfələrlə bildirib ki, missiyasını insanları narahat edən məsələlərin həllinə yardım göstərməkdə görür. Mehriban xanım Əliyevanın ifadə etdiyi "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa, töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır" fikri onun portretinin konkret ştrixlərini göz önündə canlandırır.

Mehriban Əliyevanın fəaliyyəti kifayət qədər geniş və çoxşaxəlidir. O, Azərbaycanın inkişafına, dünyada təbliğinə sanballı töhfələr verir, sosial və humanitar sahələrdə böyük işlər görür. Mehriban xanım ölkəmizi beynəlxalq miqyasda layiqincə təmsil edən, öz fəaliyyəti ilə Azərbaycanın davamlı inkişafına müstəsna töhfələr verən ictimai-siyasi xadim kimi tanınır. Onun ictimai-siyasi xadim kimi portret cizgilərini tamamlayan ştrixlər kifayət qədər zəngindir. Mehriban xanım Əliyeva hələ millət vəkili kimi fəaliyyət göstərərkən xalqa və dövlətə ləyaqətlə xidmət edərək milli maraqları daim üstün tutub, sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Məhz buna görə də seçicilər Mehriban xanımın millət vəkili kimi fəaliyyətini yüksək qiymətləndiriblər. Onun təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr uğurla həyata keçirilib. Mehriban xanım Əliyeva Milli Məclisdə amnistiya aktlarının qəbul olunması təşəbbüsü ilə çıxış edib və bunun sayəsində minlərlə məhkum azadlığa qovuşub, yenidən cəmiyyətə inteqrasiya olunub.

Yeni Azərbaycan Partiyasının VII Qurultayında Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini seçilməsi partiya və cəmiyyət üçün əlamətdar olmaqla yanaşı, YAP-ın və dövlətimizin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olub.

Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq sərəncama əsasən, Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması yuxarıda sadalanan milli və ictimai məzmunlu işlərin, xalqa xidmət fəlsəfəsinə söykənən genişmiqyaslı fəaliyyətin qanunauyğun nəticəsidir. Mehriban xanım Əliyeva bu təyinatadək ona həvalə olunan bütün vəzifələrin öhdəsindən layiqincə gələrək özünün yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirmişdi. O zamana qədər Azərbaycan ictimaiyyəti Mehriban xanımı layiqli millət vəkili, eləcə də Bakının evsahibliyi etdiyi "Eurovision-2012" mahnı yarışmasını, tarixdə ilk dəfə keçirilən I Avropa Oyunlarını təşkil edən peşəkar komandanın rəhbəri kimi necə böyük əzmkarlıq, iradə, təşkilatçılıq, ətrafındakıları gələcək uğurlara inandırmaq bacarığı nümayiş etdirdiyinin şahidi olmuşdu. Bəhs olunan mötəbər tədbirlərdə Azərbaycan yeni yüksək standartlar nümayiş etdirdi, özünü güclü, hər şeyə qadir olan dövlət kimi göstərdi ki, burada Mehriban xanım Əliyevanın xidmətləri müqayisəyəgəlməzdir. Onun Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi fəaliyyəti də təqdirəlayiqdir. Bütün bu amillər, heç şübhəsiz ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyevanı təqdim edərək deyib: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".

Bir sözlə, Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir. Mehriban xanımın o vaxt dediyi sözlər yada düşür: "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam".

Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının siyasi tarixində ilk dəfə yaradılmış Birinci vitse-prezident postunda uğurla fəaliyyət göstərir. Onun tərəfindən irəli sürülən təşəbbüslərin və reallaşdırılan layihələrin nəticələri həm Azərbaycanda, həm də beynəlxalq miqyasda olduqca yüksək dəyərləndirilir.

Ötən 9 il ərzində Mehriban xanım Birinci vitse-prezident kimi dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. Azərbaycanın Birinci vitse-prezidenti daim sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Onun təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr müvəffəqiyyətlə həyata keçirilib.

Azərbaycan xalqının böyük sevgisini qazanmış Mehriban xanım bu gün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi onunla çiyin-çiyinə dayanaraq Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edir. Onun Vətən və xalq qarşısındakı ən önəmli xidmətlərindən biri də Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsi sahəsində göstərdiyi ardıcıl səylər və reallaşdırdığı çoxsaylı layihələrdir. Sərhəd tanımayan xeyirxahlığı və nəcibliyi Mehriban Əliyevaya yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində də böyük rəğbət və sevgi qazandırıb. O, Azərbaycanda təhsil, mədəniyyət və səhiyyənin inkişafına verdiyi töhfələrlə yanaşı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində də yorulmadan çalışır. Mehriban xanımın fəaliyyəti müasir Azərbaycan qadınının parlaq simasını dünyaya nümayiş etdirir və gələcək nəsillər üçün nümunəvi örnək kimi dəyərləndirilir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının həyata keçirilməsində və onun zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması da bilavasitə bu fondun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. Fond, həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsində fəal iştirak edir. Əsasında mərhəmət, şəfqət və xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu uzun illərdir ki, öz prinsiplərinə sadiq qalaraq təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Bu təşəbbüslər cəmiyyətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir, çünki Azərbaycan xalqı fondun inkişafa xidmət edən uğurlu layihələrinə və Birinci vitse-prezidentin humanist, vətənpərvər və nümunəvi fəaliyyətinə güvənir.

Mehriban xanım, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfələr verir. Artıq 20 ildən çoxdur ki, Azərbaycan tarixini və mədəni irsini, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün yorulmadan fəaliyyət göstərir. Onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu mədəni landşaftı", eyni zamanda Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya salınıb. Eyni zamanda Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla evsahibliyi edib.

Mehriban xanım Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin və qazilərin problemlərinin həlli xüsusi yer tutur. Yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni məhz qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etməsi bu diqqətin bariz nümunəsidir. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlanıb və real işlərə başlanılıb. Qısa müddət ərzində yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb, onların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb.

Bundan başqa, Mehriban xanım Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksəktexnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi də xüsusi qeyd edilməlidir.

Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksəktexnologiyalı protezlərlə təmin edilib.

Əlbəttə, sadalananlar Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin kiçik bir hissəsidir, amma bütün bunlar Mehriban xanım Əliyevanın cəmiyyətin həssas təbəqəsinin problemlərinin həllini diqqət mərkəzində saxladığını göstərməklə yanaşı, onun fəaliyyətinin humanizm və vətənpərvərlik prinsiplərinə söykəndiyini əks etdirir.

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, müharibədən sonra isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Heydər Əliyev Fondu tərəfindən işğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrin bərpası, Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur. Eyni zamanda Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkə üzrə çoxsaylı məktəb binaları inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə bir sıra uşaq müəssisələri əsaslı təmir edilərək müasir tələblərə uyğunlaşdırılıb.

Əhalinin sağlamlığı məsələsi də Mehriban Əliyevanın daim xüsusi diqqət göstərdiyi sahələrdəndir. Onun təşəbbüsü ilə reallaşdırılan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub.

Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində də Mehriban xanımın təşəbbüsü ilə məqsədyönlü iş aparılır. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb.

Birinci xanımın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcə də "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni və digər beynəlxalq səviyyəli yüksək təltiflərə layiq görülüb.

*Beləliklə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın mərhəmət, şəfqət və humanizmə əsaslanan fəaliyyəti milli-mənəvi dəyərlərin qorunmasına, Azərbaycan cəmiyyətinin sosial rifahının yüksəldilməsinə xidmət edir. Mehriban xanım Əliyeva xalqımızın firavanlığı və qüdrətli dövlətimizin tərəqqisi naminə çoxşaxəli fəaliyyəti ilə Prezident İlham Əliyevin və ona inanan, böyük ümidlər bəsləyən insanların etimadını layiqincə doğrultmağı bacarıb. O, Vətənə və xalqa xidmət nümunəsidir!*

***Samir VƏLİYEV,***
***Milli Məclisin deputatı***

## ATƏT və TÜRKPA arasında əməkdaşlıq perspektivləri Vyanada müzakirə olunub

Fevralın 18-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) baş katibi Ramil Həsən Avstriyanın paytaxtı Vyana şəhərinə rəsmi səfəri çərçivəsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) baş katibi Feridun Sinirlioğlu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı 2010-cu ildən etibarən ATƏT, ATƏT Parlament Assambleyası və TÜRKPA arasında mövcud olan əməkdaşlıq əlaqələrinin cari vəziyyəti müzakirə edilib. Həmçinin TÜRKPA-nın ATƏT Parlament Assambleyasında müşahidəçi statusunun əldə edilməsi ilə bağlı başlanmış proses, bu istiqamətdə mümkün dəstəyin göstərilməsi imkanları, eləcə də sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, münaqişələrin sülh yolu ilə həlli istiqamətində TÜRKPA-nın qurucu dövlətləri tərəfindən həyata keçirilən xarici siyasətə uyğun olaraq ATƏT və TÜRKPA arasında əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclaslarında TÜRKPA-nın yenidən iştirakı məsələsi də diqqət mərkəzində olub.

TÜRKPA baş katibi Ramil Həsən qeyd edilən məsələlərlə bağlı ATƏT, eləcə də Təşkilatın baş katibi Feridun Sinirlioğlu tərəfindən göstərilə biləcək dəstək və töhfənin əhəmiyyətini vurğulayıb.

Feridun Sinirlioğlu TÜRKPA-nın gələcək fəaliyyətində uğurlar arzulayaraq, ATƏT ilə TÜRKPA arasında mövcud əməkdaşlıq imkanlarına xüsusi diqqət yetiriləcəyini və ATƏT-in səlahiyyətləri çərçivəsində göstərilə biləcək dəstək istiqamətində müvafiq fikirlərini ifadə edib. TÜRKPA və Türk Dövlətləri Təşkilatının ATƏT üçün də önəmli olduğunu qeyd edərək, türk dünyasının ortaq məqsədlərinə sahib çıxmağa və ümumbəşəri dəyərlərin daha da gücləndirilməsinə töhfə verməyə hər zaman hazır olduğunu bildirib.

Görüşdə həmçinin TÜRKPA tərəfindən bu ilin may ayında İstanbul şəhərində keçirilməsi planlaşdırılan "Avrasiyada yeni əməkdaşlıq: Strateji münasibətlərin inkişafında TÜRKPA-nın rolu və parlament diplomatiyası" mövzusunda beynəlxalq konfransla bağlı da fikir mübadiləsi aparılıb.

## "C6 formatı Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında institusional körpü yaradır"

"C6 Məsləhət Şurası özünəməxsus və unikal regional platformadır. Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə geniş ikitərəfli münasibətlərə malikdir. Lakin C6 formatı bu əlaqələri daha geniş coğrafi çərçivəyə çıxararaq Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında institusional körpü yaradır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktoru Fərhad Məmmədov deyib.

O qeyd edib ki, regionda baş verən proseslər, planlaşdırılan layihələr bu format çərçivəsində birgə müzakirə olunur və heç bir ölkə kənarda qalmır. Xüsusilə bir neçə Mərkəzi Asiya ölkəsini əhatə edən enerji, internet, "yaşıl enerji" və digər strateji layihələrin C6 platformasında müzakirəsi həmin təşəbbüslərin gələcəkdə daha geniş iştirakla həyata keçirilməsinə imkan yaradır. Hazırda əsas strateji istiqamət Orta dəhlizdir. Orta dəhliz yalnız dəmir yolu layihəsi deyil, eyni zamanda liman infrastrukturu, logistika imkanları, bürokratik və inzibati maneələrin aradan qaldırılması, marşrutların rəqəmsallaşdırılması, fiber-optik internet kabellərinin çəkilməsi və "yaşıl enerji" ixracının təmin olunmasını əhatə edən kompleks layihədir.

Fərhad Məmmədovun sözlərinə görə, gələcək mərhələdə Mərkəzi Asiyanın ənənəvi enerji ehtiyatlarının Cənubi Qafqaz vasitəsilə nəqli də nəzərdə tutulur. Bu prosesdə Xəzər dənizi infrastrukturu mühüm rol oynayır. Direktor qeyd edib ki, Şərqdən Qərbə və Qərbdən Şərqə uzanan təşəbbüslər Çin, Avropa İttifaqı və ABŞ də daxil olmaqla bir sıra qlobal aktorların maraq dairəsindədir. Bu baxımdan C6 formatı çərçivəsində əldə olunan nailiyyətlər region ölkələrinin öz imkanlarını daha səmərəli şəkildə reallaşdırmasına, rəqabət qabiliyyətinin artırılmasına və birgə strateji mövqelərin formalaşdırılmasına xidmət edir.

"C6 artıq, sadəcə dialoq platforması deyil, eyni zamanda real regional əməkdaşlıq mexanizminə çevrilməkdədir. Bu format Azərbaycanın regiondakı təşəbbüskar rolunu daha da gücləndirir", - deyə direktor vurğulayıb.

## Kolumbiya mətbuatı: Azərbaycan - yeni mühüm geosiyasi aktor

Kolumbiyanın ən qədim və aparıcı qəzetlərindən olan "El Espectador"da dərc edilmiş "Yeni geosiyasi aktor" başlıqlı məqalədə son illər qlobal siyasi mühitdə müşahidə olunan mürəkkəb və dinamik proseslər fonunda Azərbaycanın mühüm geosiyasi aktor kimi diqqət mərkəzində olduğu vurğulanır.

AZƏRTAC xəbər verir ki, məqalədə ölkəmizin tarixinə qısa nəzər salınır, XIX əsrin ortalarında paytaxt Bakı şəhərinin dünya neft sənayesinin mərkəzinə çevrildiyi qeyd olunur. 2023-cü ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək uzun illər davam edən münaqişəyə son qoyduğu və bu qələbə nəticəsində geosiyasi mövqeyini daha da gücləndirdiyi bildirilir.

Məqalədə Azərbaycanın coğrafi üstünlüklərindən və zəngin təbii ehtiyatlarından geosiyasi, logistika və enerji sahələrində səmərəli şəkildə istifadə etdiyi, Mərkəzi Asiya ilə Avropa arasında mühüm tranzit ölkə rolunu gücləndirdiyi diqqətə çatdırılır.

Həmçinin ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursunun uğurlu nəticələrinə toxunulur, Azərbaycanın müxtəlif regionlar və dövlətlər arasında etibarlı körpü rolunu daha da möhkəmləndirdiyi qeyd edilir.

"El Espectador" Azərbaycanın artan regional və qlobal əhəmiyyətini önə çəkərək, ölkənin yeni geosiyasi reallıqlar fonunda formalaşan roluna xüsusi diqqət ayırıb.

# Leyla Əliyeva Tiranada Albaniya Prezidenti Bayram Beqay ilə görüşüb








Leyla Əliyeva Tiranada Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident Bayram Beqay Albaniya Baş nazirinin iqamətgahında açılan sərginin iki xalq arasında münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib.

Leyla Əliyeva Azərbaycan və Albaniya arasında münasibətlərin təməlinin formal protokollardan kənara çıxdığını vurğulayıb.

Görüşdə logistik çətinliklərin aradan qaldırılması mövzusuna toxunulub. Bakı-Tirana birbaşa aviareyslərinin işə salınmasının zəruriliyi vurğulanıb.

Albaniyada ildə 300 günəşli günün olması nəzərə alınaraq, ölkədə ilboyu turizm və ekoturizm konsepsiyalarının inkişafı, həmçinin Albaniya, Monteneqro və Kosovonu birləşdirən ortaq marşrutların yaradılması müzakirə edilib.

Bildirilib ki, iqtisadi sahədə, xüsusilə turizm sektorunda Azərbaycan investisiyalarına böyük maraq göstərilir. Qeyd olunub ki, Azərbaycanın Monteneqroda icra etdiyi uğurlu layihələr Albaniya sahillərində nəinki təkrarlanacaq, hətta daha böyük nəticələr verəcək. Söhbət zamanı iki ölkənin liderlərinin siyasi iradəsinin konkret addımlarla - viza rejiminin ləğvi və diplomatik təmsilçiliyin gücləndirilməsi ilə təsdiqini tapdığı bildirilib.

Sonra Albaniya Prezidenti Baş nazirin iqamətgahında nümayiş olunan MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi ilə tanış oldu.

# Leyla Əliyeva Tiranada "Hannah və Rosafa" uşaq evini və "Mother Teresa" Universitet Xəstəxana Mərkəzini ziyarət edib




Leyla Əliyeva Tiranada fəaliyyət göstərən "Hannah və Rosafa" uşaq evini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, uşaq evi valideyn himayəsindən məhrum olan və ya sosial təhlükə mühitində yaşayan azyaşlılar üçün nəzərdə tutulmuş dövlət müəssisəsidir.

Qeyd olunub ki, qurumun fəaliyyəti xüsusilə 0-6 yaşarası uşaqların mühafizəsi, tərbiyəsi və onlara hərtərəfli qayğının göstərilməsi istiqamətinə yönəlib. Bildirilib ki, müəssisədə uşaqlar erkən inkişaf dövründə ehtiyac duyduqları psixoloji dəstək, tibbi xidmət və mənəvi qayğı ilə əhatə olunurlar.

Sonra Leyla Əliyeva "Mother Teresa" Universitet Xəstəxana Mərkəzi ilə tanış olub. Diqqətə çatdırılıb ki, mərkəz bütün Albaniyada, o cümlədən Tiranada əsas dövlət universitet xəstəxanasıdır. Burada xəstələrə ixtisaslı kadrlar tərəfindən ən qabaqcıl texnologiyalardan istifadə olunmaqla yüksəksəviyyəli tibbi xidmətlər göstərilir. Qeyd olunub ki, ölkənin əsas onkoloji xidməti burada cəmlənərək, xəstələrə şüa, kimyaterapiya və mürəkkəb cərrahi müalicə imkanları təqdim edilir.

Mərkəzdə hər bir uşağın sağlamlığına həssaslıqla yanaşılır, onların müalicə prosesi şəfqətli yanaşma və rəngarəng mühitlə dəstəklənir.

# Daxili işlər naziri gənclərin sırasından seçim edib




Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib. Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 175 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır. Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# ABŞ-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir

Avqustun 8-də Vaşinqtonda keçirilmiş sülh sammiti Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açdı. Bayden-Blinken administrasiyası dövründə Azərbaycana qarşı qərəzli yanaşma ölkələr arasında münasibətlərdə böyük çat yaratmışdı. Belə ki, sözügedən administrasiyanın sifarişi ilə Nümayəndələr Palatasında və Senatda ölkəmiz əleyhinə böhtan xarakterli qətnamələrin qəbul edilməsi adi hal almışdı. Erməni lobbisinin sifarişi ilə Senatın və Nümayəndələr Palatasının komitə və plenar iclaslarında keçmiş qondarma Dağlıq Qarabağda yaşayan ermənilərin guya blokadaya alınması və etnik təmizlənmə kimi saxta fikirlər müzakirələrə çıxarılaraq Azərbaycana təzyiq göstərməyə çalışırdılar.



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, 2022-ci ilin sentyabrında ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosi Ermənistana səfəri çərçivəsində Azərbaycanı suveren ərazilərini işğaldan azad etdiyinə görə ittiham edərək separatçılara dəstəyini bildirmişdi. Halbuki Bayden hakimiyyəti ölkələrin suveren ərazilərinin bütövlüyünü və sərhədlərin dəyişilməzliyini vacib bilərək Rusiyaya qarşı sanksiyalar tətbiq edir, Ukraynaya milyardlarla dollar yardım göndərirdi. Amma Azərbaycana gələndə bu prinsiplər işləmirdi. "Təbii ki, belə ikili standartlar üzərindən yanaşma ABŞ kimi dövlətin imicinə zərbə vururdu. Bayden-Blinken administrasiyası yürütdüyü siyasətlə ABŞ-nin milli maraqlarını ayaq altına ataraq ölkəni uçuruma aparırdı. Donald Trampın hakimiyyətə qayıdışı isə Amerikanı yenidən özünə qaytardı. Tramp prezident seçkilərinə qatıldığı ilk gündən dünyada müharibələrin dayandırılmasına və ABŞ-ni güclü ölkəyə çevirəcəyinə vəd verdi. Donald Trampın yenidən prezident seçildiyi qısa zaman kəsiyində dünyada 8 müharibənin dayandırılmasına müvəffəq olduğu bildirilir. Amma bu sonlandırılan müharibələrin ən ədalətli yolla həll olunanı Azərbaycan-Ermənistan münaqişəsidir. Belə ki, ötən ilin 8 avqust tarixində Vaşinqtonda əldə olunmuş razılaşmalarla münaqişə tarixin arxivinə göndərildi", - deyə o bildirib.

Deputat qeyd edib ki, Vaşinqton sammiti həm də ABŞ-Azərbaycan münasibətlərinin yenidən normallaşmaya doğru irəliləməsi baxımından tarixi bir hadisə oldu. Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevi yüksək səviyyədə qarşılaması, ikitərəfli görüşün keçirilməsi, "Azadlığa Dəstək Aktı"na qəbul olunmuş 907-ci düzəlişin fəaliyyətinin dayandırılması və hökumətlərə iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə tapşırıqların verilməsi Azərbaycan-ABŞ münasibətlərinin inkişafına yeni nəfəsin verilməsi demək idi. Yeri gəlmişkən, artıq bu xartiya da imzalanıb. Eyni zamanda Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına da şahidlik etdik.

A.Badamov vurğulayıb ki, Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh sammitində Prezident Donald Trampın Prezident İlham Əliyevin çox güclü lider olduğunu bildirməsi dövlət başçımızın şəxsiyyətinə və Azərbaycanla münasibətlərin inkişafına verilən yüksək dəyərin təzahürü idi: "Fevralın 10-11-də ABŞ vitse-prezidenti Cey.Di.Vensin Azərbaycana səfər etməsi ölkələrimiz arasında münasibətlərin inkişafının yeni mərhələsində konturların müəyyən edilməsi oldu. Ümumiyyətlə, Cey.Di.Vensin Cənubi Qafqaza səfərinin məqsədi əsasən ABŞ-nin regionda yaranmış sülh və sabitliyə, o cümlədən TRIPP layihəsinin icrasına dəstəyin nümayişi idi. Bakıda Prezident İlham Əliyev və vitse-prezident Cey.Di.Vens arasında imzalanmış sənədlə Azərbaycanla ABŞ strateji tərəfdaş oldular. Artıq iki ölkə arasında münasibətlərin və əməkdaşlığın istiqamətləri müəyyən olunub. ABŞ vitse-prezidentinin Azərbaycana səfəri ərəfəsində 31 şirkətdən 60-dan çox nümayəndə heyətinin təmsil etdiyi Ticarət Palatasının üzvlərinin Bakıya gəlməsi, dövlət başçımızla görüşməsi və biznes-forumun keçirilməsi ABŞ-nin Azərbaycanla münasibətlərin sürətlə inkişaf etdirilməsində maraqlı olduğunu bir daha təsdiq etdi".

Donald Trampın təşəbbüsü ilə təsis olunmuş Sülh Şurasının ilk sammitinin keçirildiyini xatırladan deputat bildirib ki, bu tədbirə Prezident İlham Əliyevin dəvət edilməsi Azərbaycana verilən böyük dəyər olmaqla yanaşı, yeni dünya nizamının formalaşmasında ölkəmizin iştirakı deməkdir. Yeni dünya nizamının formalaşmasında Sülh Şurasına üzv ölkələrin iştirakı qlobal qərarların daha ədalətli qəbul olunmasına yol açacaq. "Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə ədalətsizliklərlə çox rastlaşıb, BMT TŞ-nin 4 qətnaməsi qəbul edilsə də, icra olunmayıb. Keçmiş Minsk qrupu Azərbaycanın torpaqlarının işğal faktı ilə barışmasına çalışıb, beynəlxalq platformalarda qəbul edilmiş qərarlar icra olunmayıb. Amma Azərbaycan öz gücü ilə haqqını bərpa edib. Bu gün beynəlxalq hüquq kim güclüdür, o da haqlıdır prinsipi ilə işləyir. Amma ədalətli qərarlar qəbul ediləndə beynəlxalq hüquq və normalar da işləyər və münaqişələrin həll olunmasında yanaşmalar da dəyişilər. Bu baxımdan Azərbaycan beynəlxalq hüququn pozulmasından ən çox əziyyət çəkən ölkə olsa da, indi ABŞ ilə birlikdə dünyada ədalətin bərpa olunması prosesində iştirak edəcək. Bu, həm də Azərbaycanın dünyada artan nüfuzunun və şəxsən Prezident İlham Əliyevin apardığı beynəlxalq siyasətin qazandırdığı uğurdur", - deyə A.Badamov qeyd edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakı-Laçın avtobus reysi fəaliyyətə başlayır

"Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə məskunlaşan vətəndaşların keyfiyyətli nəqliyyat xidmətləri ilə təmin olunması məqsədilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən yeni Bakı-Laçın müntəzəm avtobus reysi təşkil edilir.

AYNA-dan AZƏRTAC-a bildirilib ki, fevralın 25-dən fəaliyyətə başlayacaq Bakı-Laçın reysi üzrə avtobuslar Laçın-Həkəri-Zəngilan yolu ilə hərəkət edəcək. Avtobuslar Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Laçına hər gün saat 08:00-da, əks istiqamətdə isə 16:00-da yola düşəcək. Bakı-Laçın reysi üzrə gedişhaqqı 16,10 manat müəyyən edilib. Marşrut üzrə aralıq məntəqəsi Zəngilan rayonunun Ağalı kəndi təyin olunub. Aralıq məntəqə üzrə gedişhaqqı 13,80 manat müəyyən edilib.

Qeyd edək ki, hazırda sərnişinlər Laçına səfər etmək üçün Bakı-Xankəndi-Laçın müntəzəm avtobus reysindən istifadə edirlər. Yeni Bakı-Laçın reysi istifadəyə verildikdən sonra Bakı-Xankəndi-Laçın reysi artıq Bakı-Şuşa reysi kimi fəaliyyət göstərəcək və son məntəqə Şuşa şəhəri təyin ediləcək. Bakı-Şuşa müntəzəm avtobus reysi, hazırda olduğu kimi, gündə 2 dəfə həyata keçiriləcək. Belə ki, reys üzrə avtobuslar Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Şuşaya saat 07:00 və 11:00, əks istiqamətdə isə 17:00-da və növbəti gün saat 09:00-da yola düşəcək. Məlumat üçün bildirək ki, reyslər üzrə avtobusların Şuşa şəhərindən və digər aralıq məntəqələrdən çıxış vaxtlarında dəyişiklik edilməyib.

Biletləri yalnız onlayn qaydada "biletim.az" portalı üzərindən əldə etmək mümkündür. Xatırladaq ki, Azərbaycan vətəndaşları "biletim.az" portalı və ya mobil tətbiqi üzərindən bilet əldə edərkən işğaldan azad edilmiş ərazilərə buraxılış üçün icazələr avtomatik qaydada təqdim olunur.

# Bakıda "Neokolonializm və qlobal bərabərsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib

Fevralın 19-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm və qlobal bərabərsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbir BTQ-nin fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlayıb.

Konfransda ABŞ, Qvadelupa, Korsika, Yeni Kaledoniya, Reyunyon, Qəmər adaları, Belçika, Almaniya, Əlcəzair, Toqo, Kamerun və Martinikdən olan siyasətçilər, alimlər, ictimai xadimlər və müstəqillik hərəkatlarının nümayəndələri, eləcə də neokolonializm sahəsində ixtisaslaşmış tədqiqatçılar iştirak ediblər.

Panel müzakirələr çərçivəsində "Müstəmləkəçiliyin epigenetik faktoru", "Müstəqillik hərəkatları müstəmləkə düzəninə necə üstünlük qazandı?", "Müstəmləkə imperiyaları dünyanı necə bölüşdürdü: sərhədlər, güc və davam edən nəticələr" və "Fransız assimilyasiya siyasəti kimliyi necə yenidən formalaşdırdı?" mövzularında çıxışlar dinlənilib. Müzakirələr zamanı müstəmləkəçilik irsinin psixoloji və bioloji təsirləri, nəsillərarası travmalar, sosial nəticələr, eləcə də mədəniyyət, dil və identiklik məsələləri ön plana çıxarılıb.

Çıxış edənlər müstəmləkəçilik irsinin aradan qaldırılmasının, dekolonizasiya proseslərinin sürətləndirilməsinin və bu istiqamətdə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. Konfrans iştirakçıları qlobal bərabərsizliyin tarixi köklərinin araşdırılmasının və müasir çağırışlara qarşı birgə yanaşmaların formalaşdırılmasının əhəmiyyətini qeyd ediblər.

Sonda isə "Neokolonializm və qlobal bərabərsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın yekunlarına dair bəyanat qəbul olunub.

# Azərbaycan və Serbiya yeni layihələrlə əməkdaşlığı daha da gücləndirəcək

"Azərbaycan və Serbiya arasında ikitərəfli münasibətlər son illərdə sürətlə inkişaf etməkdədir. Əvvəllər iqtisadi sahədə başlayan əməkdaşlıq artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib, ölkələr arasında etimad və qarşılıqlı anlaşma daha da möhkəmlənib. Bu münasibətlər həm iqtisadi, həm siyasi, həm də humanitar sahələri əhatə edir və tərəflərin bir-birinə verdiyi önəmin göstəricisidir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

O bildirib ki, vaxtaşırı keçirilən yüksəksəviyyəli səfərlər və liderlərin qarşılıqlı görüşləri əməkdaşlığın yeni istiqamətlərinin müzakirəsinə geniş imkanlar yaradır. Bu görüşlərdə enerji, nəqliyyat, kənd təsərrüfatı, turizm və texnologiya sahələrində birgə layihələrin həyata keçirilməsi məsələləri ətraflı müzakirə olunur. Azərbaycan və Serbiya hökumətləri, eyni zamanda biznes dairələri arasında qarşılıqlı maraqların qorunması və strateji məqsədlərin müəyyənləşdirilməsi bu əməkdaşlığın əsas prioritetlərindəndir.

"Prezident İlham Əliyevin bu səfəri ölkələrimiz arasında dostluğa və qarşılıqlı anlaşmaya verilən önəmin təzahürüdür. Səfərdə hökumət üzvlərindən ibarət böyük bir nümayəndə heyəti iştirak etdi. Dövlətimizin başçısı çıxışında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı tapşırıqlarını hökumət üzvlərinin diqqətə çatdırdı. Prezidentlərin çıxışlarından da görünür ki, bu əməkdaşlıq hər iki ölkənin milli və strateji maraqlarına xidmət edir. Hər iki dövlət bir-birinin suverenliyinə və milli maraqlarına hörmətlə yanaşır, beynəlxalq hüququn ali olmasını prinsip olaraq qəbul edir. Azərbaycan və Serbiya əməkdaşlığı, heç bir üçüncü ölkənin maraqlarına yönəlmədən, regional və beynəlxalq müstəvidə konstruktiv təsir göstərir. Bu, tərəflərin sülh, sabitlik və inkişaf prinsiplərinə sadiqliyinin bariz nümunəsidir", - deyə deputat əlavə edib.



A.Mirzəzadə qeyd edib ki, qarşılıqlı surətdə həyata keçirilən layihələr müxtəlif sahələrdə, - enerji, nəqliyyat, texnologiya, kənd təsərrüfatı və turizm, - gündəlik əməkdaşlıq səviyyəsinə yüksəlməkdədir. Həmçinin Azərbaycan ilə Serbiya arasında mədəniyyət və təhsil sahələrində əməkdaşlıq iki xalq arasında dostluğun möhkəmlənməsinə xidmət edir. Birgə mədəni tədbirlər, tələbə mübadiləsi proqramları və elmi əməkdaşlıq nümunələri ölkələrimiz arasında qarşılıqlı anlaşmanı dərinləşdirir.

"Azərbaycan-Serbiya münasibətləri həmçinin dünya üçün müxtəlif regionlarda yerləşən, fərqli mədəniyyətlərə malik iki ölkənin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında necə dost və tərəfdaş ölkələrə çevrilə biləcəyini göstərən önəmli nümunədir. Bu münasibətlər regionda sabitliyin və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verir. Gələcəkdə tərəflər qarşılıqlı maraqlara uyğun olaraq yeni layihələr həyata keçirməyi, iqtisadi və humanitar əlaqələri daha da genişləndirməyi planlaşdırırlar. Həmçinin strateji tərəfdaşlıq münasibətlərini gücləndirərək regional və beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaş kimi fəaliyyətlərini davam etdirəcəklər", - deyə deputat vurğulayıb.

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında ombudsmanın sorğusu əsasında qərar qəbul edilib

Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.



Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim İ.Nəcəfovun məruzəsini, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası tərəfindən təqdim edilən mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor A.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsindəki "bu Məcəllənin 115-117 və 118-1-ci maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə görə kompensasiyanın verilməməsi" müddəası bərabərlik və normativ hüquqi aktların haqq-ədalətə əsaslanması prinsiplərinin tələbləri ilə uyğunsuzluq təşkil etdiyinə və ödənişli əmək məzuniyyəti hüququnu qeyri-mütənasib şəkildə məhdudlaşdırdığına görə Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından tətbiqi dayandırılsın.

Konstitusiya Məhkəməsi Plenumunun bu qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən işdən çıxan günədək işçinin istifadə etmədiyi Əmək Məcəlləsinin 115-117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərə görə kompensasiya ödənilməsinin təmin edilməsi məqsədilə həmin Məcəllənin 144-cü maddəsinin 2 və 3-cü hissələri Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III, 71-ci maddəsinin II və 149-cu maddəsinin I hissələrinin tələblərinə uyğunlaşdırılsın.

Məsələ qanunvericilik qaydasında həll edilənədək Azərbaycan Respublikası Konstitusiyasının 25 və 149-cu maddələrinin tələbləri nəzərə alınmaqla mövcud qeyri-bərabərliyin qarşısının alınması məqsədilə, əmək müqaviləsinə xitam verilərkən işçiyə bütün iş illərinin istifadə etmədiyi Əmək Məcəlləsinin 115-117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərinə görə, istifadə olunmamış əsas əmək məzuniyyəti üçün müəyyən edilmiş qaydada və məbləğdə hesablanan kompensasiyanın verilməsi təmin edilsin.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu qərarı qüvvəyə minməsindən sonra əmək müqavilələrinə xitam verilməsi ilə bağlı yaranan münasibətlərə, habelə hazırda məhkəmələrin icraatında olan müvafiq işlərə şamil olunsun.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Azərbaycan tarixən Şərqlə Qərb arasında körpü rolunu oynayıb

"Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, Cənubi Qafqazda yeni inteqrasiya və nəqliyyat dəhlizləri mərhələsi başlayıb. ABŞ-nin regionda artan fəallığı qlobal proseslərin tərkib hissəsi kimi qiymətləndirilir və bu maraq mövcud mərhələdə regional əməkdaşlıq mühitinin genişlənməsinə töhfə verən amillərdəndir. ABŞ-nin regiona yanaşması beynəlxalq ticarət yollarının təhlükəsizliyi, enerji marşrutlarının şaxələndirilməsi və qlobal bağlantıların gücləndirilməsi ilə bağlıdır".

Bunu AZƏRTAC-a açıqlamasında Ankara Siyasi Araşdırmalar Mərkəzinin eksperti Cenk Tamer bildirib.



O qeyd edib ki, ABŞ-nin xarici siyasətində praqmatik yanaşma üstünlük təşkil edir və bu yanaşma qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq modellərinin formalaşmasına yönəlib. Bu kontekstdə Cənubi Qafqazda həyata keçirilən layihələr regional sabitliyin möhkəmləndirilməsi və iqtisadi imkanların genişləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Ekspert vurğulayıb ki, region ölkələri üçün paralel olaraq regional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi də xüsusi əhəmiyyət kəsb edir: "Türkiyənin də dəstəklədiyi 3+3 platforması region dövlətləri arasında dialoq, qarşılıqlı etimad və əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm formatlardan biridir. Bu platforma regional aktorların öz aralarında koordinasiyanı artırmasına və ortaq maraqlar əsasında fəaliyyət göstərməsinə imkan yaradır".

Cenk Tamerin sözlərinə görə, yeni geosiyasi şəraitdə Bakının həyata keçirdiyi balanslı və çoxtərəfli diplomatiya xüsusilə diqqət çəkir. Azərbaycan tarixən Şərqlə Qərb arasında körpü rolunu oynayıb və hazırda bu funksiyanı daha da gücləndirir. Bu amil Azərbaycanın regional və qlobal səviyyədə artan rolunu şərtləndirən əsas faktorlardandır.

"Azərbaycanın mövqeyi həm böyük güclər, həm də regional aktorlar üçün strateji əhəmiyyət daşıyır. Bu prosesdə Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq və "bir millət, iki dövlət" prinsipi əsasında qurulan münasibətlər regional sabitliyin qorunması baxımından mühüm rol oynayır. Məhz bu əməkdaşlıq modeli Cənubi Qafqazda qarşılıqlı anlaşmanın, iqtisadi inteqrasiyanın və uzunmüddətli sülh mühitinin formalaşmasına töhfə verir", - deyə ekspert diqqətə çatdırıb.

# Azərbaycan Avropa, Yaxın Şərq və Avrasiyanın kəsişməsində əsl diqqət mərkəzinə çevrilib

Geosiyasi xətlərin rəqəmsal texnologiyalar və qlobal iqtisadiyyatın sürəti ilə kəsişdiyi müasir dünyada müxtəlif bölgələr və maraqlar arasında tarazlıq qura bilən ölkələr unikal strateji əhəmiyyət kəsb edir. Belə dövlətlərdən biri də rolu Cənubi Qafqazdan çox kənara çıxan Azərbaycandır. O, Şərq və Qərb arasında enerji, nəqliyyat dəhlizləri və mədəni əlaqələri birləşdirən əsas körpüyə çevrilir. Qlobal qeyri-sabitlik və dəyişikliklər fonunda Azərbaycan xarici siyasət praqmatizmini, iqtisadi dinamikanı və strateji düşüncəni birləşdirmək, region üçün yeni bir reallıq formalaşdırmaq və daha geniş beynəlxalq nizama təsir göstərmək qabiliyyətini nümayiş etdirir. Onun hərəkətləri kiçik, lakin bacarıqla idarə olunan bir dövlətin qlobal birlik üçün necə diqqət mərkəzinə çevrilə biləcəyini, əməkdaşlıq, təhlükəsizlik və davamlı inkişaf üçün imkanlar aça biləcəyinin nümunəsinə çevrilir.

AZƏRTAC iraqlı politoloq və tədqiqatçı, beynəlxalq münasibətlər və təhlükəsizlik (Fletçer Məktəbi, Tufts Universiteti) üzrə fəlsəfə doktoru (PhD) və The Shaikh Group analitik qrupda siyasi zabit, Yaxın Şərqdə siyasət və təhlükəsizlik üzrə ekspert Massaab əl-Aluzi ilə eksklüziv müsahibəni təqdim edir.

*- Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki yerini necə qiymətləndirirsiniz?*

- Müstəqillik qazandığı andan bəri Azərbaycan həm əhəmiyyətini qoruyub saxlayıb, həm də onu sürətlə gücləndirib və bu, təsiredicidir. Məsələ təkcə beynəlxalq nizamdakı qlobal dəyişikliklərdə deyil, həm də ölkə rəhbərliyinin ardıcıl, strateji və uzaqgörən mövqeyindədir. Birincisi, Azərbaycan türk dünyasında ən mühüm əlaqə nöqtəsidir - bu rol onu unikal edir. Onun coğrafi mövqeyi Mərkəzi Asiyadan qlobal bazarlara təbii sərvətlər üçün tranzit dövlət kimi olduqca vacibdir. Bu, həm geostrateji, həm də geoiqtisadi baxımdan çox böyük perspektivlər açır. Bundan əlavə, müdrik şəkildə qurulmuş çoxsaylı ittifaqlar sayəsində Azərbaycan inamla Qafqaz regionunda əhəmiyyətli bir oyunçuya çevrilir və onun inkişafına və təhlükəsizliyinə təsir göstərir.

*- Azərbaycanın Avropa, Yaxın Şərq və Avrasiyanın kəsişməsində mühüm bir oyunçuya çevrildiyini demək olarmı? Azərbaycanın xarici siyasətinin hansı aspektləri onu dünyanın müxtəlif bölgələri üçün tələb olunan tərəfdaşa çevirir?*

- Şübhəsiz ki, Azərbaycan Avropa, Yaxın Şərq və Avrasiyanın kəsişməsində əsl diqqət mərkəzinə çevrilib. Onun xarici siyasətə praqmatik yanaşması öz maraqlarını hər şeydən üstün tutan ağıllı, balanslı bir dövlətin nümunəsidir. Regiondakı bir çox digər ölkələrdən fərqli olaraq, Azərbaycan ideologiyadan daha çox real maraqlara əsaslanaraq hərəkət etməyə üstünlük verir, bu da ona rifah və beynəlxalq arenada hörmət qazandırıb. Bu, Bakını münaqişə mənbəyinə deyil, əsl diplomatik mərkəzə çevirib.



*- Avropanın və qonşu regionların enerji təhlükəsizliyinin gücləndirilməsinə Azərbaycanın töhfəsini necə qiymətləndirirsiniz?*

- Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Avropa enerji ehtiyatlarını şaxələndirmək ehtiyacını əvvəlkindən daha kəskin şəkildə hiss edir. Azərbaycan Mərkəzi Asiyadan təbii ehtiyatların qlobal bazarlara, xüsusən də Avropa ölkələrinə təhlükəsiz və səmərəli şəkildə çata biləcəyi bir körpüyə çevrilir. Başqa sözlə, Avropa Rusiyadan daha az asılı olacaq, onun enerjisi isə Azərbaycandan təhlükəsiz şəkildə daxil olacaq. Bu, təkcə enerjiyə deyil, həm də beynəlxalq bazarların sabitliyinə çox böyük töhfədir. Azərbaycan burada, həqiqətən də, əhəmiyyətli və strateji rol oynayır.

*- Şərq ilə Qərb arasında nəqliyyat və logistika dəhlizlərinin inkişafı ilə bağlı Azərbaycanın təşəbbüsləri nə dərəcədə əhəmiyyətlidir?*

- Bu yaxınlara qədər Mərkəzi Asiya bir sıra səbəblərə görə qlobal iqtisadiyyatdan əsasən təcrid olunmuşdu və bu da onun inkişafını ləngidirdi. Bunlardan ən ciddi olanı Rusiyanın siyasəti idi, o Avropanı enerji asılılığında saxlamağa çalışırdı. Digər marşrutlar da məhdudlaşdırılmışdı. Bu vəziyyətdə Azərbaycan tunelin sonunda əsl işıq oldu, təhlükəsiz və etibarlı bir marşrut təklif etdi. Onun Xəzər dənizindəki coğrafi mövqeyi və əlverişli sərhədləri ölkəni strateji tranzit mərkəzinə çevirir. Bundan əlavə, söhbət yalnız neft və qazdan getmir, məhsul, istehlak malları, texnologiyalar və avadanlıqların Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya daşınması, xüsusən də bu ölkələrdə iqtisadi artım fonunda, qarşıdakı illərdə getdikcə daha vacib olacaq.

*- Azərbaycan Qərb, Şərq ilə islam dünyası arasında dialoqun gücləndirilməsində hansı rol oynaya bilər? Daha balanslı və çoxqütblü dünya nizamının formalaşması üçün Azərbaycan kimi ölkələr nə dərəcədə vacibdir?*

- Azərbaycan müsəlman ölkəsində uğurlu idarəetmənin parlaq nümunəsidir və bütün islam dünyası üçün ilham mənbəyi ola bilər. Dünyəvilik, sabitlik və rifahın məharətlə birləşməsi ölkəni digər müsəlman dövlətləri üçün cəlbedici edir. Bu mənada, Bakı islam və qalan dünya arasında dialoqu və qarşılıqlı anlaşmanı gücləndirən bir körpü olmaq üçün unikal mövqedədir.

*- Ötən ilin avqust ayında Vaşinqtonda liderlərin görüşündən sonra Bakı ilə İrəvan arasında sülh prosesinin irəliləyişini necə qiymətləndirirsiniz? ABŞ-nin təşəbbüsü münaqişənin həllinə nə dərəcədə töhfə verir və qalan ən çətin məsələlər hansılardır?*

- Sülh prosesinin dinamikası ümidvericidir. Azərbaycanın proaktiv diplomatiyası, ABŞ təşəbbüsü kimi konstruktiv beynəlxalq yardımla birlikdə, Cənubi Qafqazı qarşıdurma bölgəsindən əməkdaşlıq məkanına çevirmək üçün real fürsət yaradır.

*- ABŞ-nin vitse-prezidentinin Bakıya səfərini bu ölkənin Cənubi Qafqazda əsas oyunçu kimi artan rolu kontekstində necə qiymətləndirərsiniz? Vaşinqton Azərbaycanın regional sabitlik üçün strateji əhəmiyyətini qəbul edəcəkmi?*

- ABŞ-nin vitse-prezidentinin Bakıya səfəri Azərbaycanın Vaşinqtonun strateji maraqları üçün artan əhəmiyyətini açıq şəkildə nümayiş etdirir. Ölkənin xarici siyasəti onun regiondakı rolunu kökündən dəyişdirib və unikal strateji mövqeyi ilə gücləndirilmiş geosiyasi əhəmiyyətə çəki artırıb. ABŞ, şübhəsiz ki, bu dəyişiklikləri dərk edir və başa düşür ki, Bakının təsiri yalnız artacaq. Səfər münasibətləri gücləndirmək və əməkdaşlığa dərinlik qatmaq, o cümlədən yüksəksəviyyəli şəxsi qarşılıqlı əlaqələri gücləndirmək istiqamətində daha bir addımdır ki, bu da münasibətləri daha da etibarlı və davamlı edir.

# Ana dili - millətin varlığının sütunlarından biri

Hər bir xalqın dünyada mövcudluğunu təsdiq edən əsas amillərdən biri onun doğma dilidir. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda bir millətin tarixi yaddaşı, milli kimliyi, mənəvi sərvəti və varlıq rəmzidir. Xalqın keçdiyi tarixi yol, yaşadığı ictimai-siyasi proseslər, yaratdığı mədəniyyəti və mənəvi dəyərləri ilk növbədə ana dilində formalaşır və nəsildən-nəslə məhz bu dildə ötürülür. Bu baxımdan, dil millətin yaddaşı, ruhu və mənəvi pasportu kimi çıxış edir.

Ana dilini mükəmməl bilmək insanın dünyagörüşünün formalaşmasında, təhsil səviyyəsinin yüksəlməsində, milli mənsubiyyət hissinin möhkəmlənməsində mühüm rol oynayır. Doğma dilinə yiyələnmiş insan həm öz xalqı ilə daha sıx ünsiyyət qurur, həm də digər xalqların mədəni irsi ilə tərcümə vasitəsilə tanış olmaq imkanı əldə edir. Dil bir tərəfdən milli özünəməxsusluğu qoruyur, digər tərəfdən, xalqlar arasında mədəni körpü rolunu oynayır.

Xalqımız üçün ana dili milli-mənəvi dəyərlər sisteminin ən qiymətli sərvətlərindən biridir. Təsadüfi deyildir ki, tarix boyu görkəmli şəxsiyyətlərimiz ana dilini mənəvi Vətən adlandırmış, onu torpaq qədər müqəddəs hesab etmişlər. Dilimiz xalqımızın keçmişini bu günü ilə birləşdirmiş, milli kimliyimizin qorunmasında həlledici rol oynamışdır. Zamanın ağır sınaqları, işğallar və siyasi təzyiqlər qarşısında belə xalqımız öz dilini yaşatmağı bacarmışdır.

Ana dilinin qorunması yalnız dilçilik məsələsi deyil, həm də milli təhlükəsizlik, milli özünüdərk və milli davamlılıq məsələsidir. Dilini itirən xalq zamanla öz mədəni simasını, tarixi yaddaşını və milli kimliyini də itirmək təhlükəsi ilə üzləşir. Bu səbəbdən ana dilinin saflığının qorunması, yad təsirlərdən uzaqlaşması və gələcək nəsillərə ötürülməsi hər bir vətəndaşın mənəvi borcudur.

Ana dilinin qorunmasının qlobal əhəmiyyətini nəzərə alaraq dünya ictimaiyyəti bu məsələni beynəlxalq səviyyədə diqqət mərkəzinə çıxarmışdır. Hər il 21 fevral tarixində qeyd olunan Beynəlxalq Ana Dili Günü də məhz bu məqsədə xidmət edir. Bu günün yaranma tarixi XX əsrin ortalarına - 1952-ci ilə təsadüf edir.

Həmin ilin fevral ayında Pakistanda benqal dilinin rəsmi istifadəsinin qadağan edilməsinə etiraz olaraq keçirilən kütləvi aksiyalar zamanı polis müdaxiləsi nəticəsində bir neçə nəfər həyatını itirmişdir. Bu hadisə dil uğrunda mübarizənin nə qədər ağır və faciəli nəticələrə səbəb ola biləcəyini bütün dünyaya nümayiş etdirmişdir. Sonradan Banqladeş nümayəndələri bu hadisənin xatirəsinə ehtiram əlaməti olaraq 21 fevral tarixinin Ana Dili Günü kimi qeyd olunması təşəbbüsü ilə çıxış etmişlər.

Bu təşəbbüs UNESCO tərəfindən dəstəklənmiş və 1999-cu ilin noyabrında qəbul olunan qərara əsasən, 2000-ci ildən etibarən 21 Fevral Beynəlxalq Ana Dili Günü kimi qeyd olunmağa başlanmışdır. Bu günün əsas məqsədi dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərə diqqət çəkmək, dil və mədəniyyət müxtəlifliyini qorumaq, hər bir insana öz ana dilində danışmaq, düşünmək və yaratmaq hüququnun vacibliyini xatırlatmaqdır.

UNESCO-ya üzv olan dövlətlərə tövsiyə edilmişdir ki, bu gün münasibətilə təhsil müəssisələrində, mədəniyyət ocaqlarında və kitabxanalarda ana dilinin əhəmiyyətinə həsr olunmuş tədbirlər, seminarlar, konfranslar və maarifləndirici proqramlar təşkil edilsin. Məqsəd gənc nəslə ana dili sevgisi aşılamaq, onu qorumağın milli borc olduğunu anlatmaqdır.

Bu kontekstdə Azərbaycanda da Beynəlxalq Ana Dili Günü hər il geniş şəkildə qeyd olunur. Kitabxanalarda, məktəblərdə, mədəniyyət müəssisələrində ana dilinin qorunması və sevilməsi mövzusunda müxtəlif tədbirlər, sərgilər təşkil olunur, ədəbi-bədii gecələr və müsabiqələr həyata keçirilir. Bütün bunlar ana dilinin yalnız ünsiyyət vasitəsi deyil, milli varlığımızın əsas dayağı olduğunu bir daha nümayiş etdirir.

Azərbaycan dilinin tarixi inkişaf yolu xalqımızın formalaşma tarixi ilə sıx bağlıdır. Dilin təşəkkülü və inkişafı heç vaxt təsadüfi proses olmamış, müxtəlif tarixi, siyasi və mədəni mərhələlərdən keçərək bugünkü kamil səviyyəsinə çatmışdır. Dil xalqın yaşadığı coğrafiya, məruz qaldığı təsirlər, qurduğu dövlətlər və yaratdığı mədəni irs ilə paralel şəkildə formalaşmışdır.

Tarixi mənbələr göstərir ki, Azərbaycan dilinin kökləri eramızdan əvvəl IV əsrə qədər gedib çıxır. Həmin dövrlərdə indiki Azərbaycan ərazisində Qafqaz Albaniyası, cənub hissəsində isə Atropatena dövləti mövcud olmuşdur. Şimal və cənub ərazilərində yaşayan əhali uzun müddət bir-biri ilə sıx əlaqədə olmuş, bu da ümumi etnik və dil birliyinin formalaşmasına zəmin yaratmışdır. Məhz bu proseslər nəticəsində Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili təşəkkül tapmışdır.

Dilimizin ümumxalq dili kimi formalaşması əsasən eramızın V əsrinə təsadüf edir. VI-VIII əsrlərdə isə Azərbaycan dilində şifahi ədəbi dil inkişaf etməyə başlamışdır. Bu dövrün ən möhtəşəm nümunəsi "Kitabi-Dədə Qorqud" dastanıdır. Bu abidə təkcə folklor nümunəsi deyil, eyni zamanda dilimizin qədimliyini, zənginliyini və bədii imkanlarını nümayiş etdirən nadir yazılı mənbədir. "Kitabi-Dədə Qorqud"un dili sübut edir ki, Azərbaycan dili hələ o dövrlərdə yüksək ifadə imkanlarına malik olmuşdur.

IX-XI əsrlərdə Azərbaycan dilinin yazılı forması daha da inkişaf etmiş, ədəbi dilin əsasları möhkəmlənmişdir. Birinci minilliyin ortalarından etibarən dilimizin yazısı və əlifbası artıq mövcud olmuşdur. Həmin dövrdə yaranan yazılı abidələr dilimizin təsadüfi deyil, davamlı inkişaf yolu keçdiyini təsdiqləyir. XIII əsrdən etibarən isə Azərbaycan dilində yazılmış bədii və didaktik əsərlərin sayı artmağa başlamışdır (4,s.36).

Dilimizin tarixində mühüm mərhələlərdən biri onun adlandırılması ilə bağlıdır. Müxtəlif tarixi dövrlərdə Azərbaycan dili "türk dili", "türki", "azəri", "Azərbaycan türkcəsi" kimi adlandırılmışdır. "Türk" adının kökləri qədim Turukki tayfalarına gedib çıxır. Tarixi mənbələrdə göstərilir ki, turukki sözü "güclü", "qüvvətli", "törəyən" mənalarını ifadə edir və zamanla "türk" formasını almışdır. Bu ad V əsrdən etibarən geniş şəkildə işlədilməyə başlamışdır.

"Azəri" anlayışı isə Azərbaycan adının qısaldılmış forması kimi formalaşmışdır. Ərəblərin Atropatena sözünü öz fonetik xüsusiyyətlərinə uyğun şəkildə tələffüz etməsi nəticəsində "Azərbaycan" adı yaranmış, bu ərazidə danışılan dil isə "əl-azəriyə", yəni azəri dili adlandırılmışdır. Bu termin tayfa adı deyil, məhz coğrafi və dil adı kimi meydana gəlmişdir. Beləliklə, "türk" və "azəri" anlayışları tarix boyu paralel şəkildə işlədilmişdir.

Azərbaycan dilinin tarixi inkişafında XIII-XVI əsrlər xüsusi yer tutur. Bu dövr dilimizin çiçəklənmə mərhələsi hesab olunur. Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi dahilər məhz Azərbaycan dilində yazaraq bu dili yüksək ədəbi səviyyəyə qaldırmışlar. Onların əsərləri sübut etmişdir ki, Azərbaycan dili dərin fəlsəfi fikirləri, incə duyğuları və mürəkkəb ideyaları ifadə etmək gücünə malikdir.

Tarixi proseslər göstərir ki, dilin inkişafı təkcə xalqın fəaliyyəti ilə deyil, eyni zamanda dövlətçiliklə də sıx bağlıdır. Dövlətlərin süqutu və ya işğalı zamanı dilin mövqeyi zəifləyir, onun işlənmə arealı daralır. Əksinə, güclü dövlətçilik dövrlərində dil inkişaf edir, rəsmi status qazanır və geniş yayılır. Azərbaycan dili də bu baxımdan müxtəlif sınaqlardan keçmişdir.

Səfəvilər dövründə Şah İsmayıl Xətainin fəaliyyəti ana dilimizin tarixində dönüş nöqtəsi olmuşdur. Bu dövrə qədər rəsmi sənədlər əsasən ərəb və fars dillərində yazıldığı halda, Azərbaycan dili ilk dəfə dövlət idarəçiliyində geniş istifadə olunmağa başlamışdır. Bu, ana dilimizin ictimai-siyasi statusunun yüksəlməsinə səbəb olmuşdur.

Azərbaycan dili mənşəcə müasir türk dillərinə aiddir və oğuz yarımqrupuna daxildir. Dilimizin sabit qrammatik sistemi, zəngin lüğət tərkibi və ahəngdar fonetik quruluşu onu dünyanın ən inkişaf etmiş milli dillərindən birinə çevirir. Azərbaycan dilində elmi, siyasi, fəlsəfi və bədii fikirləri eyni dərəcədə ifadə etmək mümkündür.



Bu gün Azərbaycan dili təkcə respublikamızda deyil, dünyanın onlarla ölkəsində yaşayan soydaşlarımız tərəfindən istifadə olunur. Milyonlarla insan üçün ana dili olan Azərbaycan dili, eyni zamanda bir çox azsaylı xalqlar üçün ikinci ana dili funksiyasını daşıyır. Bu fakt dilimizin ünsiyyət imkanlarının genişliyini və sosial əhəmiyyətini bir daha təsdiqləyir.

Azərbaycan dilinin inkişaf tarixində onun dövlət dili statusu qazanması xüsusi əhəmiyyət daşıyır. Çünki dilin qorunması və inkişafı təkcə mədəni proses deyil, eyni zamanda siyasi iradə və dövlətçilik təfəkkürü tələb edən məsələdir. Tarixi təcrübə göstərir ki, dil yalnız dövlət himayəsi altında olduqda cəmiyyətin bütün sahələrində tam funksional mövqe tuta bilir.

XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ana dilimizin tarixində mühüm mərhələ olmuşdur. Həmin dövrdə parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan edilmiş, rəsmi sənədlər ana dilində tərtib olunmuşdur. Bu, qısa müddət davam etsə də, milli dövlətçilik tarixində dil məsələsinə verilən yüksək dəyərin göstəricisi idi. Hətta parlamentdə qeyri-millət nümayəndələrinin çıxışlarının rus dilində olmasına müvəqqəti icazə verilsə də, dövlət dili kimi Azərbaycan dilinin mövqeyi qorunmuşdur.

Sovet dövründə dil siyasəti ziddiyyətli xarakter daşımışdır. Bir tərəfdən Azərbaycan dili məişət və ədəbi sahədə yaşamağa davam etmiş, digər tərəfdən rəsmi idarəçilikdə rus dilinin üstün mövqeyi ana dilimizin imkanlarını məhdudlaşdırmışdır. Buna baxmayaraq, xalqımız dilini qorumağı bacarmış, ədəbi dilin inkişafı dayanmamışdır. Məhz bu mürəkkəb tarixi şəraitdə ana dilinin dövlət səviyyəsində qorunması məsələsi daha da aktuallaşmışdır.

Bu istiqamətdə dönüş nöqtəsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Onun dil siyasəti hələ 1970-ci illərdən formalaşmağa başlamışdır. Ulu Öndərin Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış etməsi həmin dövr üçün cəsarətli və prinsipial addım idi. Bu hadisə ana dilinin rəsmi və ictimai müstəvidə işlədilməsinə güclü stimul verdi.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması milli dil tarixində mühüm nailiyyət idi. Bu addım ana dilinin hüquqi statusunun möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı. Həmin dövrdə dil məsələsinin dövlət səviyyəsində həll olunması xalqın milli özünüdərk hissini gücləndirmişdir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan dili yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə qəbul edilən ilk milli Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması tarixi və siyasi baxımdan son dərəcə mühüm hadisə idi. Bu qərar dilimizin hüquqi statusunu tam şəkildə bərpa edərək onun inkişafı üçün geniş imkanlar yaratdı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dil siyasəti sistemli və ardıcıl xarakter daşıyırdı. 2001-ci ildə imzalanan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman ana dilinin istifadəsi və qorunması sahəsində yeni mərhələnin əsasını qoydu. Bu fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı. Bu qurumun əsas məqsədi dövlət dilinin tətbiqinə nəzarət etmək, dilin saflığını qorumaq və onun inkişafını təmin etmək idi.

Ana dilinin qorunması siyasətinin mühüm istiqamətlərindən biri də əlifba məsələsi olmuşdur. Azərbaycan tarixində əlifba dəyişiklikləri həmişə mürəkkəb və ağrılı proses kimi yadda qalmışdır. Lakin latın qrafikasına keçid milli maraqlara uyğun strateji qərar idi. Bu proses 1990-cı illərin əvvəllərindən başlayaraq, 2001-ci ildə tam şəkildə yekunlaşdı. İlk olaraq məktəblər, daha sonra dövlət müəssisələri və nəhayət, mətbuat latın qrafikasına keçdi.

2001-ci il avqustun 1-də Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi ana dilinə göstərilən yüksək ehtiramın bariz nümunəsidir. Bu gün təkcə əlifba dəyişikliyinin deyil, eyni zamanda milli dil siyasətinin təntənəsi kimi qiymətləndirilir.

2002-ci ildə qəbul edilən "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun dilimizin hüquqi bazasını daha da möhkəmləndirdi. Bu qanun dövlət dilinin işlədilməsi, qorunması və inkişaf etdirilməsi ilə bağlı əsas prinsipləri müəyyən etdi. Həmin sənəd eyni zamanda dünya azərbaycanlılarının dil və milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsini də nəzərdə tutur.

Ümummilli Lider Heydər Əliyevin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir" fikri onun ana dilinə olan münasibətinin ideoloji əsasını əks etdirir. O, ana dilini milli dəyər səviyyəsinə yüksəltməyi bacaran nadir liderlərdən biri olmuşdur. Türk dünyasında dil məsələsini dövlət siyasəti səviyyəsinə qaldıran lider kimi Heydər Əliyevin rolu əvəzsizdir.

Bu siyasət bu gün də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının imzaladığı sərəncamlar ana dilimizin qloballaşma şəraitində qorunmasına və inkişafına xidmət edir. Latın qrafikasında kütləvi nəşrlərin həyata keçirilməsi, Azərbaycan Milli Ensiklopediyasının nəşri, dilin elektron məkanda istifadəsinin genişləndirilməsi bu siyasətin konkret nəticələridir.

Müasir dövrdə Azərbaycan dili təkcə dövlət idarəçiliyinin deyil, həm də elmin, təhsilin, mədəniyyətin və informasiya mühitinin aparıcı vasitəsinə çevrilmişdir. Dilimizin saflığının qorunması, terminoloji sistemin zənginləşdirilməsi və gənc nəslə ana dilinə sevgi aşılanması dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır (5, s.42).

Azərbaycan dili bu gün yalnız bir dövlətin rəsmi dili olmaqla kifayətlənmir, eyni zamanda geniş coğrafiyada milyonlarla insanın milli kimliyini birləşdirən əsas amilə çevrilmişdir. Hazırda Azərbaycan dili dünyanın onlarla ölkəsində yaşayan soydaşlarımız tərəfindən ana dili kimi istifadə olunur. Tarixi köçlər, siyasi proseslər və miqrasiya nəticəsində Azərbaycan dili Rusiya Federasiyasında, xüsusilə Dağıstanda, Gürcüstanda, İranda, İraqda, Türkiyədə, Suriyada, Ukraynada, ABŞ-də, Böyük Britaniyada, Almaniyada, eləcə də Orta Asiya respublikalarında geniş yayılmışdır. Ümumilikdə, Azərbaycan dilində danışanların sayı 45-50 milyondan artıqdır. Bu fakt dilimizin beynəlxalq miqyasda nə qədər geniş areala malik olduğunu göstərir.

Azərbaycan dili respublikamız ərazisində yaşayan bir sıra azsaylı xalqlar - talışlar, tatlar, ləhıclar, qrızlar, saxurlar və başqaları tərəfindən ikinci ana dili kimi istifadə olunur. Bu isə dilimizin inteqrasiyaedici və birləşdirici rolunu açıq şəkildə nümayiş etdirir. Azərbaycan dili müxtəlif etnik qruplar arasında qarşılıqlı anlaşmanı təmin edən ümumi ünsiyyət platforması rolunu oynayır.

Beləliklə, Azərbaycan dili xalqımızın milli kimliyinin, tarixi yaddaşının və mənəvi varlığının əsas sütunudur. Onun keçdiyi tarixi yol, qazandığı dövlət statusu və müasir dövrdəki funksional imkanları sübut edir ki, bu dil yalnız keçmişin yadigarı deyil, eyni zamanda gələcəyin də əsas təminatıdır. Ana dilinə sahib çıxmaq, onu sevmək və qorumaq hər bir azərbaycanlının mənəvi məsuliyyətidir.

***Aytən ƏLİYEVA,***
***AMEA Mərkəzi Elmi Kitabxananın Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru***

# Xocalının Xanabad kəndinə ilk köç olub









Fevralın 19-da Xocalı rayonunun Xanabad kəndinə ilk köç həyata keçirilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xanabad kəndinə ilkin mərhələdə 154 nəfərdən ibarət 38 ailə qayıdıb. Kənddə mövcud yaşayış evləri əsaslı şəkildə təmir olunub, yaşayış məntəqəsi 24 saat fasiləsiz olaraq təbii qaz, elektrik enerjisi və içməli su ilə təmin edilib, sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılıb.

Yeni mənzillərin açarları Xocalı şəhərində keçirilən mərasimdə sakinlərə təqdim olunub. Təqdimetmə mərasimində iştirak edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxış edərək bildirib ki, Xanabad kəndində bütün zəruri infrastruktur qurulub və əhalinin dayanıqlı məskunlaşması, məşğulluğunun təmin edilməsi üçün kompleks tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, bu proses Prezident İlham Əliyev tərəfindən elan edilmiş Böyük qayıdış proqramının tərkib hissəsidir. Dövlət başçısının vurğuladığı kimi, işğaldan azad edilmiş ərazilərdə həyat sürətlə bərpa olunur, keçmiş məcburi köçkünlər doğma yurdlarına ləyaqətli və təhlükəsiz şəkildə qayıdırlar.

Xatırladaq ki, Xanabad kəndinə həyata keçirilən bu köç nəzərə alınmaqla, ümumilikdə, Xocalı rayonu üzrə artıq 1 şəhər və 8 kəndə keçmiş məcburi köçkünlərin köçü təmin edilib.

# *Ombudsman:* "Amnesty International"ın Ruben Vardanyan barədə bəyanatı yanlış, qeyri-obyektiv və qərəzlidir

Azərbaycanın İnsan hüquqları müvəkkili (ombudsman) "Amnesty International" təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə direktoru Mari Strazersin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı cinayətlərdə təqsirli bilinərək məhkum olunmuş Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində çıxarılan məhkəmə hökmü ilə əlaqədar bəyanatına münasibət bildirib.




AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Bakı Hərbi Məhkəməsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində cinayət işi üzrə beynəlxalq məhkəmə təcrübəsinə tam uyğun şəkildə açıq məhkəmə prosesləri keçirilib, məhkəmə prosesində təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslər, onların hüquqi varisləri və nümayəndələri sərbəst şəkildə iştirak edib, məhkəmənin gedişatı mediada geniş şəkildə işıqlandırılıb. Yekunda R.Vardanyan ittiham edildiyi cinayətlərdə təqsiri tam sübuta yetirilərək məhkəmə tərəfindən qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Beynəlxalq insan hüquqları hüququnun müddəaları və beynəlxalq məhkəmə təcrübəsinə tam uyğun şəkildə keçirilmiş məhkəmə prosesinin yekunu olaraq məhkəmə tərəfindən Ruben Vardanyan barəsində çıxarılmış hökmlə əlaqədar "Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatı rəsmisinin yaymış olduğu bəyanat istər hüquqi, istərsə də mənəvi baxımdan yanlış, qeyri-obyektiv və qərəzlidir.

Belə ki, bəyanatda irəli sürülən iddialar, səsləndirilən ifadələr BMT Nizamnaməsinin və digər beynəlxalq hüquqi sənədlərin tələbləri ilə tam ziddiyyət təşkil edir, İkinci Dünya müharibəsində sülh və bəşəriyyət əleyhinə cinayətlər törətmiş şəxslərlə eyni statusa malik şəxslər müdafiə altına alınır, 30 ildən artıq bir müddətdə azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri barədə hər hansı bir fikir bildirilmir.

Adıçəkilən təşkilatın sərgilədiyi yanaşma beynəlxalq qeyri-hökumət təşkilatları üçün zəruri olan obyektivlik, balanslılıq və peşəkar etika prinsiplərinə ziddir və bəyanatın qeyri-obyektivliyini ehtiva edir.

"Amnesty International" təşkilatı rəsmisinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər ağır cinayətlər törətməkdə ittiham olunan bir şəxsin "müdafiəsi" məqsədilə Azərbaycana qarşı bu cür ittihamların irəli sürülməsi təşkilatın qərəzli mövqeyini, ölkəmizə qarşı yürüdülən ikili standartları bir daha nümayiş etdirir. Belə selektiv yanaşma və faktların kontekstdən çıxarılması həmin qurumun fəaliyyətində obyektivlikdən uzaqlaşdığını göstərir və bu, təşkilatın hansı mənbələrdən maliyyələşdirildiyi və hansı siyasi təsirlər altında fəaliyyət göstərdiyi məsələsini yenidən gündəmə gətirir.

Hüquqi baxımdan vurğulanmalıdır ki, Ruben Vardanyan barəsində irəli sürülmüş ittihamlar həm Azərbaycan Respublikasının milli qanunvericiliyinə, həm də beynəlxalq hüquq normalarına uyğun olaraq ağır və xüsusilə təhlükəli cinayətlər kateqoriyasına aiddir. Cinayət təqibi konkret sübutlara və hüquqi faktlara əsaslanıb və məhkəmə araşdırması qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilib.

Bütün istintaq və məhkəmə prosesi zamanı təqsirləndirilən şəxsin müdafiə hüquqları tam təmin edilib. Şəxsin vəkillə təmini, müdafiə mövqeyini hazırlaması və məhkəmə prosesində iştirak imkanları qanunvericiliyin və beynəlxalq standartların tələblərinə uyğun təşkil olunub. Ombudsman Aparatının əməkdaşları məhkəmə proseslərində iştirak edərək təqsirləndirilən şəxsin hüquq və azadlıqlarının təmini vəziyyətini bilavasitə müşahidə ediblər.

Bununla yanaşı, Ombudsmanın Milli Preventiv Qrupu (MQP) tərəfindən təqsirləndirilən erməniəsilli şəxslərlə, o cümlədən Ruben Vardanyanla görüşlər keçirilib, onların saxlanma şəraiti və rəftar məsələləri davamlı monitorinq edilib. Bu monitorinqlər beynəlxalq standartlara uyğun həyata keçirilib, şəxsin fundamental hüquq və azadlıqlarının təmin olunması vəziyyəti daim diqqətdə saxlanılıb. Ombudsman Aparatının əməkdaşları tərəfindən həyata keçirilən başçəkmələrdə təqsirləndirilən erməniəsilli şəxslərə, o cümlədən R.Vardanyana öz ana dilində hüquqları izah edilib, MPQ-nin həkim üzvü tərəfindən səhhətlərinin mövcud vəziyyəti yoxlanılıb, onlara istəklərinə uyğun müvafiq nəşr vəsaitləri və öz ana dillərində qanunvericilik aktları təqdim olunub.

"Amnesty International" təşkilatı rəsmisinin bəyanatında hüquqi aspektlərdən kənara çıxılaraq məsələyə siyasi çalar verilməsi, eləcə də təsdiqlənməmiş iddiaların fakt kimi təqdim edilməsi həmin təşkilatın Azərbaycana qarşı qərəzli mövqeyini bir daha nümayiş etdirir.

"Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatını qərəzli və selektiv yanaşmadan imtina etməyə, hüquqi proseslərə siyasi çalar verməkdən çəkinməyə və insan hüquqlarının müdafiəsinə həqiqətən obyektiv, balanslı və peşəkar prinsiplər əsasında xidmət etməyə çağırırıq.

Beynəlxalq hüquq müdafiə fəaliyyəti yalnız faktlara, hüquqa və ədalətə söykəndiyi halda legitim və inandırıcı ola bilər".

## Ekologiya

# Ekosistemin tarazlığı insanların sağlamlığıdır

**Özünün təxirəsalınmaz vacibliyinə və qlobal təhlükəsinə görə ekosistemin dəyişməsi - tarazlığın pozulması qlobal miqyaslı problem, sözün əsl mənasında, qorxunc hadisədir. Təəssüf ki, bu gün bəşəriyyət ekosistem balansının dəyişikliyi təhlükəsi ilə üz-üzə qalmaqdadır. Ekosistemin pozulması təkcə bir qitənin, ölkə, şəhər, ərazi, dəniz, yaxud okeanın deyil, kainatın problemi olaraq öz həllini təcili şəkildə ümidlə gözləyir. Ekosistemin dəyişməsi və ya pozulması kainata, canlılara, əsasən də insanlara ciddi mənfi təsir göstərir.**

Ekosistem ekologiya elminin inkişafında əsas mərhələ hesab edilərək ətraf mühitdə canlı orqanizmlərlə cansız varlıqların bir-biri ilə sıx əlaqəsi olan, özü-özünü tənzimləyən sistemdir. Ekosistem müəyyən bir mühitdə yaşayan, bir-biri ilə qarşılıqlı əlaqədə olan canlı orqanizmlərlə onu əhatə edən cansız varlıqların bir parçasıdır. Məsələn, ağaclar, bitkilər, meşələr, günəş işığı, temperatur, oksigen, qida maddələri və kimyəvi birləşmələrin təsirindən yaranan canlılar ekosistemin əsasını təşkil edir.

Hər bir canlı və cansız varlığın rol oynadığı ekosistem heyvanlar, həşəratlar, bitkilər kimi çoxhüceyrəli orqanizmlərdən tutmuş dağlara, meşələrə, göllərə, bütövlükdə planetə qədər genişmiqyaslı bir varlığı ifadə edir. Yəni ekosistem bir tarla, gölməçə boyda kiçik, okean qədər geniş ola bilər. Ətraf mühitlə qarşılıqlı əlaqədə olan, özü-özünü tənzimləyən ekosistem məfhumu müxtəlif cür mürəkkəb hədəflərə xas olan sistemdir. Məsələn, dəniz, göl və s. ekologiyası mövcuddur, lakin onların özlərinin də sahilyanı təbiəti, yaşıllığı, bitki örtüyü, eləcə də mövcud olan bitki örtüyünün dib sahəsinin ekologiyası var. Bir sözlə, adətən, ekosistem dedikdə ətrafın canlı və cansız elementlərinin birliyi nəzərdə tutulur. Məhz bunların qarşılıqlı təsirindən həmin mövcudluğun dövriyyəsi baş verir. Ekosistemdən davamlı və qısa müddətli süni ekosistem də yaradıla bilər. Süni gölləri, bağları, tarlaları, parkları misal göstərmək olar.

Ekosistem növündən asılı olmayaraq, tərkibi, sayı, kütləsi, qida əlaqəsi ilə səciyyələnir. Hər bir mövcud ekosistemdə gedən proses məhdud (lokal) xarakter daşıyır. Ekosistemin geniş miqyasda öyrənilməsi, təbii sərvətlərdən səmərəli istifadə, təbiəti qorumaq müasir dövrün ən aktual problemlərindəndir.

Ekosistemin tarazlığı insanların sağlam, rahat həyat tərzinin güzgüsüdür. Bu mənada BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP 29) Azərbaycan gerçəkliklərinin nümayişi oldu. Yeri gəlmişkən, ölkəmiz bu tədbirdə bütün qaydalara əməl edərək evsahibliyini yüksək səviyyədə həyata keçirmiş və nüfuzunu daha da yüksəkliyə qaldırmışdır. Azərbaycan neft-qaz diyarı olsa da, hər kəs reallıqda gördü ki, məqsədimiz həm də "yaşıl enerji" ilə bağlıdır.

Respublikamızın "yaşıl iqtisadiyyat"a yiyələnməsinin həqiqətə çevrilməsi baxımından 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi müstəsna əhəmiyyət kəsb etdi. Bütün bunlar qeyd edilən istiqamətdə aparılan ardıcıl, məqsədyönlü dövlət siyasətinin dərin və məntiqli mahiyyətindən xəbər verir.

Atmosferin çirklənməsi ilə iqlim dəyişikliyinin əmələ gəlməsi bəşəriyyətin həyat tərzinin qeyri-normal vəziyyətə çevrilməsinə səbəb olur. Cəmiyyətlə təbiət arasında ögey münasibət ekosistemin balans dəyişikliyinə, ekoloji gərginliyin artmasına, eləcə də iqlim dəyişikliyinə gətirib çıxarır. Belə ki, antropogen amillərin çoxaldılması ilə təbii fəlakətin baş verməsi, sonda ekosistem tarazlığının pozulması hadisələri baş verir. Nəticədə qlobal ekoloji problem yaranır və bəşəriyyət, xüsusən canlı aləm təhlükəli vəziyyətlə üz-üzə qalır.

Etiraf edək ki, əvvəllər ətraf mühitə laqeyd münasibət göstərən, təbiətimizdə ekoloji gənginliyi artıran, canlı aləmə - biosferə xoşa gəlməyən, sağlamlığımıza mənfi təsir göstərən bir sıra istehsalatlar mövcud idi. Bu cür istehsalatlarda texnoloji proses zamanı əmələ gələn qaz və maye tullantıları ətrafa (atmosferə) yayılmaqla ekoloji gərginlik yaradırdı. Məhz bunlarla bahəm bərk aqreqat halında sənaye və məişət tullantılari da ekosistemə mənfi təsir göstərirdi. Belə arzuolunmaz tullantılardan plastik kütlə - polimer tullantılarını misal göstərmək olar. Müasir elmi-texniki tərəqqi dövründə istismar qabiliyyətli plastik kütlə - polimer istehsalı dünyada gündən-günə artmaqdadır. Bununla yanaşı, onların aralıq (yan) məhsulları və tullantıları da çoxalır.

Plastik kütlə və polimer tullantıları təbiətdə öz-özünə uzun zaman çürümür, həll olmur və utilləşdirilmədiyindən təbiətdə (yerdə) qalaraq ekotarazlığı, yəni ekosistemi pozur.

Təbiətin flora və faunasını qorumaq üçün ətrafa atılan zəhərli atqıların utilləşdirilməsi və zəhərliliyin minimum həddə endirilməsi zamanın aktual problemidir. Ekosistemin sabitliyinin saxlanılması istiqamətində bir sıra texnoloji tədbirlərin həyata keçirilməsi zəruri sayılır. Tullantısız qapalı texnoloji proseslərin yaradılmasının vüsət alması - ətraf mühitə atılan zəhərli (toksiki) birləşmələrin ləğv edilməsi məqsədilə innovasiya yönümlü texnoloji proseslərə yiyələnmək vacibdir. Mənəvi və fiziki köhnəlmiş proseslərin təkmilləşdirilməsi, toksiki birləşmələrin utilləşdirilməsi və ya zərərsizləşdirilməsi, təkrar emal üsullarının yaradılmasına geniş yer verilməsi, mənimsənilməsi və tətbiqi aktual məsələdir.

Ekosistemin funksiyaları ekoloji prosesləri tənzimləməklə həyat sistemlərini və sabitliyi təmin etməkdədir. O, həmçinin canlı və cansız varlıq arasında tarazlığı təmin edir. Biosferdə komponentlər arasında dövran yaradır, vəhşi heyvanlar və bitkilər üçün yaşayış tərzini saxlayır, eləcə də əsas ekoloji prosesləri idarə edir. Ekosistem normal enerji axınının, o cümlədən karbon, enerji, azot, oksigen və su dövranı proseslərinin qorunmasına dəstək olur. Bunlarla yanaşı, ekosistemlər otlaqların idarə olunmasında, meşə təsərrüfatında, əkin sahələrində bioloji tədqiqatlarda, torpağın münbitliyinin qorunmasında təbiətdə mühüm rol oynayır. İnsan fəaliyyətinin təbiətin varlığına şüursuz yanaşma tərzi, ilkin təbii ərazilərin məhv edilməsində yaşayış tərzinin itirilməsi, meşə yanğınları, kənd təsərrüfatı sahələrinin süni genişləndirilməsi, plastik-polimer tullantıların çoxalması ilə ətraf mühitin çirklənməsi, ehtiyatların səmərəsiz istifadəsi və s. nəhayət, iqlim böhranı ilə nəticələnir. Deməli, dayanıqlı ekosistem yaşamağımız üçün vacibdir. Odur ki, ekosistemlərin sabitliyini qorumaq gərək və labüddür!

Yer üzərindəki həyatı anlamaq, ona nail olmaq gərəkdir. Bunun üçün tullantıları, bioloji varlığın itkisini azaltmaq, təkrar emal üsuluna məqsədyönlü geniş yer vermək, təbii təbiət qoruqları, parklar yaratmaq, yaşıl sahələri artırmaq, meşələri bərpa etmək, suyu qorumaq lazımdır. Məqsədsiz qazıntı işlərini azaltmaq, enerjiyə qənaət etmək, bir sözlə, iqlim dəyişikliyi ilə mübarizə aparmaqla ekosistemləri sabit saxlamağa səy göstərmək hər birimizin müqəddəs vəzifəsi və borcu olmalıdır. Lakin təəssüf ki, ekosistemlərin pozulması bizdən asılı olmayan səbəblərdən də baş verir: yanğınlar, daşqınlar, fırtınalar, tufanlar, vulkan püskürmələri, zəlzələ kimi təbii fəlakətlər ... Bunlar hamısı təhlükəlidir.

İstehsalat qazlarının atmosferə atılması nəticəsində yer isinir, buzlaqlar əriyir, güclü yağışlar, sel və quraqlıq nəticəsində təbii həyat tərzi qeyri-normal hala düşür.

Kimya və neft kimya sənayesinin əksər sahələrinin mütəmadi inkişafı nəticəsində ətrafa atılan atqıların çoxalması səbəbindən biosfer daim çirklənərək qlobal ekoloji gərginlik yaradır. Bu təhlükəli ekoloji problemin həlli yollarının elmi əsaslara söykənərək axtarışı və həlli bu gün bütün alimləri ciddi düşündürməlidir. Bəşər övladı təbiətin qanunlarına qarşı çıxaraq təbii sərvətlərdən şüurlu-şüursuz, məsuliyyətsiz-səmərəsiz istifadə etməklə ətraf mühitin, nəticədə ekosistemin pozulmasına şərait yaradır. Təbii sərvətlərin səmərəsiz istismarı təbiətdə böyük bəlaya çevrilən sənaye və məişət tullantılarının gündən-günə artmasına gətirib çıxarır. Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar son məqsədli məhsulların alınması ilə yanaşı, külli miqdarda "yan" məhsullar və tullantılar da əmələ gəlir, bununla da ekoloji tarazlıq pozulur. Ekosistem dəyişilir, insanların sağlam həyat tərzinə ciddi təhlükə yaranır. Vurğulayaq ki, belə təhlükəli bəlalardan qurtarmaq əzmi ilə çalışmaq, tullantısız və az tullantılı qapalı texnologiyaların istehsalata tətbiqini genişləndirmək, təbii sərvətlərin səmərəli istismarına yiyələnmək, ətraf mühitin mühafizəsinə - ekosistemin dayanıqlı olmasına nail olmaq təxirəsalınmaz məsələdir. Problemlərin həllinə nail olmaq məqsədilə təbiətə laqeyd münasibət yox, onunla doğma, həssas münasibət yaratmaq labüddür. Bunun üçün ekoloji mədəniyyət, ekoloji bilik və ekoloji tərbiyə əsas başlıca amildir. Əgər bunlara yiyələnməsək, Yer kürəsi ekoloji böhran içində çabalaya-çabalaya qalacaq.



Son illər dünyada müxtəlif təhlükəli yoluxucu xəstəliklər də çoxalmaqda və insanlara mənfi təsiri güclənməkdədir. Bundan qismən də olsa yaxa qurtarmaq üçün əfsus ki, vahid, yekdil, innovasiya yönümlü müasir texnoloji proqram hələlik məlum deyil.

Ekosistem dəyişikliyi dəniz və okeanların ekologiyasına da mənfi təsir göstərir. Bir tərəfdən suda yaşayan balıqların həyat tərzi - yaşaması çətinləşir, digər tərəfdən isə su ehtiyatlarının azalması, dəniz, göl və çayların səviyyəsinin aşağı düşməsi ilə sahilyanı ekosistem dəyişikliyi baş verir.

İndi su problemləri də gündəmdədir. Göl, dəniz və çayların suyunun azalması hadisələri baş verir. Məsələn, Xəzər dənizinin ekologiyasının, onun ekosisteminin qorunması dünya əhəmiyyətli məsələdir. Bioloji zənginliyinə görə analoqu olmayan bənzərsiz Xəzərimiz Tanrının bizlərə töhfə kimi bəxş etdiyi müqəddəs varlıq, əvəzsiz nemətdir.

Xəzərin möcüzəli qeyri-adiliyinin biri də odur ki, o, 100-dən çox axar şirin su, axar çayları qəbul edir. Lakin buna baxmayaraq, duzludur. Möcüzə deyilmi? Belə zəngin ehtiyat mənbəyinə məxsus nemətin ekosisteminə diqqət yetirməmək, məsuliyyətsiz yanaşmaq qəbahətdir.

Xəzəryanı ölkələrin hamısı bu dənizin ekologiyasına, ekosisteminin saxlanılmasına ciddi yanaşmalıdırlar, əməli işlər görməlidirlər. Bu, bir borcdur. Lakin bizim paytaxt şəhərimiz Bakı onun sahilində yerləşdiyi üçün məsuliyyətimiz daha çoxdur. Odur ki, Xəzərə axıdılan çirkablar sıfırlanmalı, təmizlik üçün maksimum səy göstərilməli, məsələyə son dərəcə həssaslıqla yanaşılmalıdır.

Onu da deyək ki, Xəzərə axıdılan çirkabların yarısından çoxu Volqa çayının hesabına baş verir. Çoxlu sayda üzvi birləşmələr, eləcə də azot-fosforlu birləşmələr, çirkablı duzlar, qələvilər, yuyucu vasitələrin, karbohidrogen qarışıqlarının Xəzərə axıdılması yumşaq desək, qəbahətdir. Xəzərin flora və faunasının məhv edilməsi onun ekosisteminə ciddi mənfi təsir göstərən amildir. Çox nadir nemətin, əksəriyyəti Xəzərdə yaşayan nərə balığının nəslinin kəsilməsinə yol verməməliyik.

Xəzərin çirklənməsində digər antropogen amillərlə yanaşı, insanların sahilboyu çimərliklərdə, istirahət yerlərində məsuliyyətsizliyi səbəbi də var. Doğrudur, ölkəmizdə Xəzərin akvatoriyasının təmizliyini qorumaq üçün kompleks tədbirlər həyata keçirilir. Məmnunluqla qeyd edək ki, Prezident İlham Əliyevin 2008-ci il iyunun 19-da imzaladığı Xəzər dənizinin çirklənmədən qorunması üzrə əlavə tədbirlər planı haqqında sərəncamını, 2020-ci ilin respublikada "Ekologiya ili" elan olunmasını, "Xəzər Elmi-Tədqiqat Mərkəzi"nin yaradılmasını təkcə Azərbaycan alimləri deyil, bütövlüklə Xəzəryanı ölkələrin alimləri də böyük rəğbətlə qarşıladılar.

Sudan danışarkən onu da qeyd edək ki, insanlar sudan istifadə məsələsində lazımsız israfçılığa yol verirlər. Təsadüfi deyil ki, bu il yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirildi. Müşavirənin geniş materiallarının özü də, əslində, bu məsələnin həlli yolunda bir proqramdır.

Ekosistemin sabitliyini saxlamağın əsas şərtlərindən biri də dadlı və ləzzətli meyvə-tərəvəz yetişdirən Abşeron-Sumqayıt torpağının münbitliyini, ilkin bərəkətini özünə qaytarmaqdır. Bu istiqamətdə vaxt itirmədən əməli fəaliyyətə başlamaq məqamıdır.

Qeyd olunanlarla yanaşı, daha bir ekoloji problem var. Müasir elmi-texniki tərəqqinin sürətli, genişmiqyaslı inkişafı nəticəsində tələbata əsasən yüz minlərlə, bəlkə də daha çox kosmik aparatlar (qurğular) orbitdə nizamlı-nizamsız olaraq dövr edir. Kosmik aparatların istismar dövrü müddəti sona çatdıqdan sonra əmələ gələn kosmik tullantılar - kosmik aparatların qırıntıları səma qatlarını keçərək atmosferə-biosferə daxil olur, son məkanda litosferə (torpağa) və ya hidrosferə (çay, göl, dəniz, okean) düşərkən həm də radiasiya axını yaratmaqla ətraf mühitə təhlükəli təsirini göstərir.

Bu qeydləri qələmə alarkən mətbuatda Böyükşor gölünün səthində dayanıqlı çirkablı köpüyün əmələ gəlməsi barədə verilən xəbər məni daha bir problemdən yan keçməməyə sövq etdi. Sözsüz ki, belə çirkablı su və çirkli köpüklərin əmələ gəlməsini birmənalı olaraq özümüz, biz insanlar yaradırıq. Gölətrafı, sahilyanı ərazilərdə qanunsuz məskunlaşan insanlar (sakinlər) təbiətə, o cümlədən nəfəs aldığı havaya qənim kəsilirlər. Ətrafda yaşayan insanların mütəmadi olaraq çoxlu miqdarda məişət tullantılarını gölə atması, həmin atqıların gölün dibinə çökməsi və orada da tədricən həll olması nəticəsində gölün su səthinə qalxması, suyun səthi gərilməsinin azaldılması və sonda köpüklərin yaranması baş verir. Beləliklə, çirkablı səthi aktiv xassəli birləşmələr əmələ gəlir. Gölün səthində yığılan köpüklərin ləğv edilməsi əsas məqsəd olmamalıdır. Bu, düzgün yanaşma deyil. Əsas məqsəd gölün dibində yığılıb qalmış zəhərli tullantılardan azad olmasıdır. Bu məsələdə ciddi ekoloji, həm də ictimai nəzarət lazımdır. Ətraf mühitə məişət və istehsalat tullantılarının atılmasının qarşısının alınması üçün əməli tədbirlər görülməlidir. Ümumiyyətlə, respublikanın hər guşəsində, xüsusən, Bakı və Abşeron yarımadasında, Sumqayıtda kanalizasiya xətlərinin tutulması çirkab suların küçələrə, dənizlərə, göllərə, məhəllələrə və s. axıdılması yolverilməzdir, hətta deyərdim ki, cinayətdir.

Vətənini, xalqını sevən hər bir şəxs üçün ekologiyamızın saflığını qorumaq sağlamlığımızı, gələcəyimizi, sabahımızı qorumaq deməkdir. Sabahımızı isə bu gündən qorumalıyıq.

***Valeh CƏFƏROV,***
***AMEA-nın müxbir üzvü,***
***kimya elmləri doktoru,***
***professor***

## "Şəhərsalma və Memarlıq İli"

# WUF niyə Bakını seçib?

### Ölkəmizin müasir şəhərsalma təcrübəsi artıq sərhəd tanımır

WORLD URBAN FORUM

**Bu gün dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və BMT-nin proqnozlarına görə, yaxın onilliklərdə bu göstərici daha da artacaq. Sürətli urbanizasiya isə özü ilə həm böyük imkanlar, həm də ciddi problemlər gətirir: iqlim dəyişmələri, sosial bərabərsizlik, nəqliyyat sıxlığı və ekoloji tarazlığın qorunması kimi məsələlər artıq qlobal gündəliyin əsas mövzularındandır.**

Bəs gələcəyin şəhərləri necə olacaq? Daha "yaşıl", daha inklüziv və daha dayanıqlı şəhərlər qurmaq mümkündürmü? Məhz bu suallara cavab tapmaq üçün BMT-nin Ümumdünya Şəhərsalma Forumu (WUF) 22 ildir dünyanın müxtəlif ölkələrindən minlərlə iştirakçını vaxtaşırı bir araya gətirir və urbanizasiyanın gələcəyini formalaşdıran əsas ideyaların müzakirə meydanına çevrilir. Forum BMT-nin İnsan Məskunlaşmaları Proqramı (UN-Habitat) tərəfindən təşkil olunur və şəhərlərin davamlı inkişafı sahəsində dünyanın ən böyük və ən nüfuzlu platformalarından hesab edilir.

Bu qlobal dialoqun əsası artıq iki onillikdən çoxdur ki, qoyulub və şəhərsalma sahəsində aparıcı beynəlxalq platformaya çevrilib. Buradaca qeyd edək ki, I Ümumdünya Şəhərsalma Forumu (WUF1) 2002-ci il aprelin 29-dan mayın 3-nə kimi Keniyanın Nayrobi şəhərində keçirilib. WUF1-in ilk sessiyasının mövzusu "Davamlı şəhərləşmə" olub. Gözləniləndən iki dəfə çox iştirakçının qeydiyyatdan keçməsi ilə birinci forum bir həftəlik uğurlu müzakirələrdən sonra başa çatıb. Merlərdən tutmuş gecəqondu sakinlərinə qədər - təxminən 80-dən çox ölkədən 1200-ə yaxın nümayəndə toplantıda iştirak edib.

İlk forumun məhz Keniyanın paytaxtı Nayrobidə keçirilməsi təsadüfi deyildi. Şəhər UN-Habitat-ın baş qərargahının yerləşdiyi məkandır. Qurumun mənzil-qərargahının Afrikada yerləşməsi özü-özlüyündə simvolik məna daşıyır. Sürətli urbanizasiya, qeyri-rəsmi yaşayış məntəqələrinin artımı və sosial infrastruktur çatışmazlığı kimi problemlər ən kəskin şəkildə məhz inkişaf etməkdə olan ölkələrdə müşahidə olunur. Nayrobi isə bu problemlərin real nümunəsini təqdim edən şəhərlərdən biridir. Bununla yanaşı, forumun Afrikada təşkili qlobal şəhər gündəliyinin yalnız inkişaf etmiş ölkələrin deyil, həm də Cənub ölkələrinin prioritetlərini əhatə etdiyini göstərirdi. Bu seçim urbanizasiya məsələlərinin qlobal xarakter daşıdığını və onların həllinin coğrafi sərhədlər tanımadığını nümayiş etdirirdi. Tədbirin Keniyada keçirilməsi həm də inkişaf etməkdə olan ölkələrin nümayəndələrinin daha fəal iştirakına və problemlərin yerində müzakirəsinə imkan yaratdı. Beləliklə, ilk forumun Nayrobidə keçirilməsi qərarı həm təşkilati baxımdan məntiqli, həm də siyasi və simvolik baxımdan əhəmiyyətli idi.

Lakin forumun əhəmiyyəti təkcə harada keçirilməsi ilə məhdudlaşmırdı. Əsas məsələ burada hansı ideyaların və həll yollarının müzakirəsi idi. WUF, əslində, təkcə nəzəri müzakirə platforması deyil. O, konkret siyasi tövsiyələrin hazırlanmasına, qabaqcıl təcrübələrin paylaşılmasına və dayanıqlı şəhər modellərinin təşviqinə xidmət edir. İndiyə kimi keçirilən bütün forumların gündəliyində, adətən, inklüziv şəhər idarəçiliyi, sosial ədalət, iqlimə davamlı infrastruktur, "ağıllı şəhər" texnologiyaları, əlçatan nəqliyyat sistemləri və "yaşıl enerji" kimi məsələlər yer alıb. Şəhərlərin planlaşdırılmasında insan amilinin ön plana çəkilməsi, ictimai məkanların genişləndirilməsi, həssas qruplar üçün bərabər imkanların yaradılması və ekoloji tarazlığın qorunması forumun əsas çağırışları sırasındadır. Bu yanaşma şəhərlərə yalnız iqtisadi baxımdan deyil, sosial və ekoloji aspektdən də baxmağı tələb edir.

Şəhərsalma forumunda müxtəlif regionların təcrübələrinin qarşılaşdırılması da tədbirin əhəmiyyətindən xəbər verir. İnkişaf etmiş ölkələrin texnoloji yenilikləri ilə inkişaf etməkdə olan dövlətlərin sosial təşəbbüsləri arasında körpü yaradılır. Çünki şəhərsalma siyasətində vahid model yoxdur. Hər şəhərin özünəməxsus tarixi, coğrafi və sosial xüsusiyyətləri var. Lakin ortaq məqsəd dəyişməz qalır: insan üçün daha təhlükəsiz, əlçatan və dayanıqlı şəhər mühiti formalaşdırmaq.

Azərbaycan üçün də WUF mühüm əhəmiyyət daşıyır. Son illər ölkədə həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri, yeni yaşayış massivlərinin salınması və şəhərlərin abadlaşdırılması urbanizasiya prosesinin sürətləndiyini göstərir. Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi beynəlxalq təcrübənin öyrənilməsini və qlobal platformalarda fəal iştirakı zəruri edir. Bu baxımdan, forum həm təcrübə mübadiləsi, həm də yeni tərəfdaşlıqların qurulması üçün əlverişli imkan yaradacaq.

Məhz bu kontekstdə WUF13-ün bir neçə ay sonra - mayın 17-22-də Bakı şəhərində keçirilməsi ölkənin şəhərsalma siyasətinə verilən beynəlxalq qiymət kimi dəyərləndirilir. Bu qərar Azərbaycanın şəhərsalma, infrastrukturun modernləşdirilməsi və dayanıqlı inkişaf sahəsində həyata keçirdiyi təşəbbüslərin qlobal səviyyədə diqqət çəkdiyini göstərir. Forumun Bakıda təşkili ölkəni urbanizasiya məsələlərinin müzakirə olunduğu əsas beynəlxalq platformalardan birinin mərkəzinə çevirəcək.

WUF13-ün Bakıda keçirilməsi bir neçə baxımdan əhəmiyyətlidir. İlk növbədə Azərbaycanın Cənubi Qafqaz regionunda artan rolunu və beynəlxalq tədbirlərin təşkilində qazandığı təcrübəni nümayiş etdirir. Bu qlobal tədbir ölkənin postmünaqişə dövründə həyata keçirdiyi bərpa və yenidənqurma layihələrini beynəlxalq ictimaiyyətə təqdim etmək üçün mühüm imkan yaradacaq. İşğaldan azad olunmuş ərazilərdə qurulan yeni yaşayış məntəqələri, müasir infrastruktur və rəqəmsal mexanizmlərin tətbiqi dayanıqlı şəhər modellərinin praktik nümunəsi kimi təqdim oluna bilər.

Digər tərəfdən, forumun Bakıda təşkili Azərbaycan üçün yalnız imic məsələsi deyil, həm də strateji əməkdaşlıq platformasıdır. Dünyanın müxtəlif ölkələrindən hökumət nümayəndələrinin, şəhər rəhbərlərinin, ekspertlərin və investorların iştirakı yeni tərəfdaşlıqların qurulmasına, texnologiya transferinə və investisiya imkanlarının genişlənməsinə şərait yaradacaq. Bu isə ölkənin şəhərsalma siyasətinin beynəlxalq standartlara uyğun inkişafına əlavə təkan verə bilər.

Tədbirin Bakıda keçirilməsi Azərbaycanın şəhərsalma sahəsindəki öncül rolunu dünyaya nümayiş etdirməsi baxımından da əhəmiyyətlidir. Forum iştirakçı ölkələrə ötən illərdə əldə olunmuş təcrübələri paylaşmaq, uğurlu yanaşmaları müzakirə etmək və gələcək üçün innovativ həll yollarını tapmaq imkanı yaradacaq. Azərbaycan üçün WUF13 təkcə qlobal şəhərsalma gündəliyində mövqeyini möhkəmləndirmək deyil, regionda dayanıqlı, inklüziv və "ağıllı şəhər" modellərinin tətbiqini təşviq etmək üçün əvəzsiz platformadır.

Beləliklə, beynəlxalq forumun paytaxtımızda keçirilməsi Azərbaycanın qlobal urbanizasiya gündəliyində fəal iştirakının göstəricisidir. Bu tədbir ölkənin şəhərlərinin gələcəyinə dair baxışını beynəlxalq səviyyədə təqdim etmək, üstəlik də digər dövlətlərin təcrübəsindən yararlanmaq üçün mühüm mərhələdir. 13-cü forum həm regional, həm də qlobal miqyasda Azərbaycanın mövqeyini gücləndirən strateji hadisə kimi qiymətləndirilə bilər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 22 iyun (Bazar günü) tarixli 209-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Yekşənbə, 23 ramazanül-mübarək sənə 1337. 22 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## İXTAR
## [XƏBƏRDARLIQ]

Bu gün ramazanülmübarəkin 23-cü əhya günü olmaq münasibətilə qəzetəmizin gələn nömrəsi seşənbə [çərşənbə axşamı] günü çıxacaqdır.

*İdarə*

1919[-cu il] həziranın 23-də saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-154*

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi elan edir ki, Türüq və Məabir Nəzarətinin binagüzarlığına binaən [Nəqliyyat və Rabitə Nazirliyinin sərəncamına əsasən], Batumda dərya kənarında 8 nömrəli evdə Azərbaycan Dəmiryolunun Ticarət acentəliyi açılır. Acentəlik su və dəmiryol ilə hər növ yüklərin komisyon, skladoçnı və tamojna müamilatı işlərini öhdəsinə götürür. Bazar qiyməti barəsində təfsilat məlumat verir. "Ceyms Moosen və kompaniyası"nın Liverpula, "Vestkon və Lorens" Londona, "Elerman Layn" Liverpula, "Makley və Makentaer" Qlazqoya, "Amerika-Livantiysk" yoluyla Londona olan yük kirayələri şəraiti [daşınması şərtləri] barəsində məlumat verir. Bakıda Mirbabayevin evində Olqinski və Merkuryevski küçələrin küncündə baqi [yerləşən] Bakı şəhər stansiyasının (telefon nömrə 29-97) dəxi eyni müamilatda bulunur. Bu stansiyanın Çornıqorodda skladı dəxi var (telefon nömrə 14-57): Merkuryevski küçə ev nömrə 16, Mariinskinin küncündə. Həmin iyulun 12-sindən etibarən zeyldəki [aşağıdakı] qərar ilə komisyon vergisi alınır:

1-ci sinif biletdən 3 rublə;
2-ci sinif biletdən 2 rublə 25 qəpik;
3-cü sinif biletdən 1 rublə 50 qəpik.

Plaskart üçün dəxi bu qərar ilə vergi alınır.

Bundan əlavə, Bakı şəhər stansiyası barəsində olan qanun[un] 14[-cü] maddəsi təbəddülünə binaən [dəyişikliyinə əsasən], hər surətlə olursa-olsun baqaj, yük baqajının bu qərar ilə komisyon vergisi artırılır:

Hər bir kiftansiya mövcibiylə [qəbzə əsasən] göndərilən malların 10 putuna [qədər] 5 manat; 10 putdan yuxarı olarsa hər putuna 50 qəpik komisyon vergisi alınır və malları da əsl qiymətlə yerlərinə göndərir.

*T-153*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Dövləti Müdafiə Komitəsi sədrindən**

Bu axır vaxtlarda mətbuatda olduğu kimi, həmçinin mitinqlərdə müzirr [zərərli] fikirli müxtəlif şəxslər tərəfindən cürbəcür şayiələr buraxılır. Guya İngilis Komandanlığı Dabravol ordusuna Azərbaycana hücum etmək üçün müavinət edir. Bununla elan edirəm ki, bu şayiə müfəttinanə [fitnəkar] bir məqsədlə nəşr edilir [yayılır]. Bu xüsusda İngiltərə Komandanlığı nümayəndələri general Kori və Şattlvort ilə dəfəatla [dəfələrlə] etdiyim söhbətdən İngilis Komandanlığının bizə nisbət bəslədikləri hüsn-təvəccöhə tamamilə inanmışam. Onlar öz hökumətləri qarşısında bizim arzularımızı müdafiə edib və həmişə Azərbaycana qarşı ola biləcək hər növ çıxışların qabağını almağa səmimi fəaliyyət göstərmişlər ki, bu da İngilis Komandanlığının Azərbaycanla Dabravol ordusu arasında bir sərhəd xətti təyin edilməsindən ibarətdir.

Bununla elan edirəm ki, bu cür yalan xəbərləri nəşr edənlər əleyhinə mənim tərəfimdən ciddi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcək

*Dövləti Müdafiə Komitəsi sədri:*
*Nəsib bəy Yusifbəyli*

**Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən**

Həmin ramazanül-mübarəkin ibtidası [başlanğıcı] şənbədən olduğu mühəqqəq [qəti] olduğuna nəzərən, eydi-fitrin [Oruc bayramının] həziran 30 bazar ertəsi gününə müsadif olduğu [təsadüf etdiyi] ümum Azərbaycan daxilində olan müsəlmanlara elan edilir.

*Məşixət sədri şeyxülislam:*
*Axund Ağa Ağəlizadə*
*Katib: Əfəndizadə*

**Posta və Teleqraf nazirinin əmrnaməsi**

*Əmrnamə 66*

Bu sənəsi həziranın 20[-ci] günündən etibarən məmuriyyətə aid olaraq Tiflisə getməli olduğumdan, Nəzarət [Nazirlik] işlərini Ədliyyə, Məsai [Əmək] naziri olan Aslan bəy Səfikürdlü cənablarının öhdəsinə buraxıram. Bu cəhəti bütün təhti-Nəzarətimdə [Nazirliyimin tabeçiliyində] bulunan idarələrə elan edirəm.

*Əmrnamə 67*

Bu sənəsi həziranın 20[-ci] günündən etibarən Nəzarət məmurlarının cümləsindən ədd [hesab] olunan mühəndis Cəmil bəy Vəzirov Bakıdakı telefon xütutunun [xətlərinin] hökumət müdiri təyin olunur.

*Əmrnamə 68*

Bu sənəsi həziranın 20[-ci] günündən Bakıdakı telefon xütutunun müvəqqəti hökumət müdiri vəzifəsini ifa edən mühəndis Tarnoqradski həmin xidmətdən azad edilib, dəftərxanamın III Posta və Teleqraf şöbəsinin kargüzarlıq xidmətinə təyin olunur.

*Əslində imza etdi:*
*Posta və Teleqraf naziri və*
*Dəftərxana Baş müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: R[əsul] Rəhimli*

## ETİLAF

Bugünkü nömrəmizdə Gürcüstanla Azərbaycan hökumətləri arasında vaqe olmuş etilafnamənin [razılaşmanın] surətini dərc etmişik.

Qafqaz Cümhuriyyətləri içində bu iki millət, yəni azəri-türk və islamları ilə gürcü milləti müqəddəratlarının biri-birinə mərbut [bağlı] olduğunu anladılar və bu müqəddəratı əllərində saxlamaq üçün bir-birinə kömək etmək, bir vəqti-zərurətdə bir-birinə imdad əli uzatmaq lazım olduğunu dərk etdilər. Dərk edib də sözləşdilər ki, kənari təhlükələrdən qorunmaq, mühafizə və müdafiə edilmək işlərində əlbir və dilbir olsunlar.

Vaqeən [doğrudan da], heç bir kəs üçün gizli deyil ki, Azərbaycansız Gürcüstanın və Gürcüstansız Azərbaycanın müstəqil yaşamağı imkan xaricində bir şeydir. Bu heç vaxt ağıla sığışan və ağıl kəsən əhval ola bilməz ki, məsələn Denikin Azərbaycanı istila edərsə, Gürcüstana dəyməz və ya Gürcüstanı fəth etməklə Azərbaycan təhlükədə olmaz.

Şimal təhlükəsi ümum Zaqafqaz cümhuriyyətləri üçün birdir. Çünki şimalın acındığı və yandığı Azərbaycanın ya Gürcüstanın və ya Ermənistanın ayrılmağından deyil, ümum Zaqafqaziyanın əldən getdiyindəndir.

İştə, bu ümumi təhlükənin vücudu və möhtəməl vüqusu [gerçəkləşməsi] qarşısında Gürcüstan ilə Azərbaycanın əl-ələ verməsi və bir-birinə arxa olması hər kəscə şayani-təsvib və layiqi-təqdir ədd ediləcək [bəyənilməyə və alqışlanmağa layiq hesab ediləcək] mühüm bir məsələ olmaqla, istiqlalı itirmək əndişəsi [qorxusu] ilə əli ürəklərinin üstündə olanların qəlbini təskin edən və ürək verən mövcibi-xoşhali [məmnuniyyət verən, razılıq yaradan] bir keyfiyyətdir.

Bundan başqa, etilafnamədə bir əhvalat dəxi vardır ki, o da məmnuniyyətimizə səbəb olan əhvalatlardandır.

Böylə ki, Gürcüstan ilə Azərbaycan hökumətləri qərar qoymuşlar ki, aralarında olan ixtilaflı hüdud məsələlərini sülh və sazişlə və yaxud "həkəm" [münsif, arbitr] hökmü ilə həll edib hər iki tərəf bu hökm və qərara tabe olsun.

Təbiidir, bir zamanda ki, iki qonşunun evini yanğı atəşi təhdid edə, ola bilərmi ki, qonşular o avadanlıq mənimdir, bu avadanlıq sənindir münaziəsi [mübahisəsi] ilə başlarını məşğul edib də o avadanlığı da, bu avadanlığı da yandırmağa gələn yanğı təhlükəsindən qafil olalar!

Əlavə, bu ixtilaflı hüdud məsələlərinin sülh və sazişlə və ya münsif hökmü təriqi [yolu] ilə həll edilməsinin birinci tərəfdarı həmişə Azərbaycan Hökuməti olmuşdur. Və bu gün o Azərbaycan Hökuməti böylə bir məsələ cümləsindən olan Qarabağ fəqərəsində [hadisəsində] qılınc çəkməyə və qan tökməyə məcburdursa, onun günahı və bütün məsuliyyəti bu saziş təklifindən boyun qaçıranların boynunadır ki, o da Ermənistan Hökuməti ola.

İstər bu hüdud məsələsində və istər müdafiə məsələsində Gürcüstan ilə Azərbaycanın tərtib və təklif etdiyi etilafda iştirak etmək istəməyən Ararat Hökuməti görünür ki, bu məsələlərə başqa bir nəzərlə baxmaqdadır. Ararat Hökuməti ya Denikin təhlükəsini ümumi bir təhlükə surəti ilə tələqqi etməyir [qiymətləndirmir, qəbul etmir], ya ki, etsə də, bu məsələnin Zaqafqaziya cümhuriyyətlərinin ittihad və ittifaqı ilə dəf ediləbiləcəyinə inanmayırlar. Fəqət daha doğrusu, öz müqəddəratının həllini başqaları tərəfdən gözləməkdə olan Ermənistan Hökuməti böylə işlərə qatışmaq istəməyir. Məlum olur ki, bu işlərin onlara dəxli yoxdur.

Hər halda, Ermənistana iki həftəlik vaxt verilibdir. Deməli oranın vəziyyəti və politikası qəti surətdə olmaq üzrə indi deyil, iki həftədən sonra bəlli olacaqdır.

Etilafnamənin burası dəxi şayani-qeyddir [qeyd edilməyə layiqdir] ki, əgər qonşu cümhuriyyətlərdən birisi bu iki mötəlif [razılaşan] dövlətlərin birinə qarşı hüdud ixtilafından dolayı müharibə əməliyyatı başlarsa, bu əhvalat ümumi təhlükə cümləsindən ədd edilib, mötəlifeynin [razılaşan iki tərəfin] ikisini də təcavüz edənə qarşı müharibəyə məcbur edəcəkdir.

Xalis niyyət və pakdamənlikləri [namusluluqları] ilə məşhur olan Azərbaycan türklərinin və alicənablıqları ilə məruf olan [tanınan] gürcülərin böylə fəzilətlərlə bərabər, mərdanəlik və cəsurluqları da mülahizəyə [nəzərə] alınarsa, bunların bu etilafı düşmənlərimizi əndişələrə salacaq və Zaqafqaziyanı yenidən fəth etmək sui-qəsdi ilə meydangir olmaq istəyənlərin hirsini soyudacaq və "başında Rey-Təbəristan havası" olan sərməstlərin üzərində soyuq su kimi bir təsir verəcəyini təxmin və hətta təmin etmək olar.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN İLƏ GÜRCÜSTAN ARASINDA ETİLAFNAMƏ

İyunun 16-da Tiflis şəhərində Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Cümhuriyyəti arasında əqd edilən [bağlanan] saziş Gürcüstan Hökuməti tərəfindən Məclisi-Müəssisana təqdim edilmişdir.

Gürcüstan Hökuməti tərəfindən Xariciyyə naziri Gegeçkori, Hərbiyyə və Daxiliyyə naziri [Noy] Ramişvili, Hərbiyyə naziri müavini general Gedevanov və Hərbi Şura üzvü general Odişelidze, Azərbaycan Hökuməti tərəfindən Xariciyyə naziri [Məmməd Yusif] Cəfərov, Hərbiyyə naziri Mehmandarov və Baş ərkani-hərb [qərargah] naçalniki general Sulkeviç vəkalətlərə aşina olmaqla onları qanuni surətdə görüb, Zaqafqaziya cümhuriyyətləri istiqlaliyyəti ciddi surətdə təhdid edildiyinə görə, aşağıdakı əsaslar üzərinə həmin saziş əqd olundu:

1) Saziş əqd edən hökumətlər borclu olurlar ki, iki tərəfdən birinin və ya ikisinin istiqlaliyyətini və ya tamamiyyəti-mülkiyyəsini [torpaq bütünlüyünü] təhdid edən hər cür hücum və təcavüz əleyhinə müttəhidən [birgə] bütün müsəlləh qüvvələri və hərbiyyə vəsaili [silahlı qüvvələri və hərbi vasitələri] ilə çıxsınlar.

Qeyd: Bu maddə, Zaqafqaziya cümhuriyyətləri arasında təyin edilib qurtarmamış sərhəd məsələsi üzərində qalxa biləcək ixtilaflı sərhəd məsələlərinə şamil deyildir.

2) Hərgah qonşu hökumətlərdən birisi birinci maddə mövcibincə [birinci maddəyə əsasən] hərəkati-hərbiyyə açdığı zaman silah gücü ilə sərhəd mübahisəsini həll etmək qəsdi ilə bir və ya müttəfiq cümhuriyyət üzərinə hücum etsə, o zaman həmin hökumət müharib [savaşan] tərəf ədd [hesab] ediləcəkdir.

3) Həmin saziş müdafiə xasiyyətini haizdir [xüsusiyyətini daşıyır]. Hərgah iki tərəfdən birisi öz təşəbbüsatı ilə qabaqcadan, saziş olmadan müharibə elan edib hərəkati-hərbiyyə başlarsa, digər tərəf bu müharibə hərəkatında iştirak etməyə borclu deyildir.

4) Hər iki tərəf borclu olurlar ki, onların aralarında çıxa biləcək sərhəd mübahisəsini saziş və ya həkəm [arbitr] vasitəsilə həll etsinlər. Burada çıxarılan qərar hər iki tərəf üçün qəti və məcburi ədd edilməlidir.

5) Həmin saziş üç ilin müddətinə əqd edilir. Bu müddət qurtarana bir il qalmış hər iki tərəfə vagüzar edilir [tapşırılır, öhdəsinə qoyulur] ki, saziş müddətinin təzədən imtidad etdirilməsi [uzadılması] arzusunda olduğunu və ya sazişdən imtina etmək istədiyini izhar etməyə haqqı olsun. Sazişdən imtina edildiyi təqdirdə həmin saziş ancaq təyin edilən müddət qurtardıqdan sonra qüvvəsini itirmiş olur.

6) Hər iki hökumətin haqqı və istiqlaliyyəti mühafizəsi yolunda hər iki tərəf siyasi müzakiratı müttəhidən aparmağa borclu olur.

7) Birinci və ikinci maddədə göstərilən şərait başlandığı zaman hər iki tərəf borcludur ki, təklikdə sülh əqd etməsin.

8) Hər iki tərəf borcludur ki, müttəfiqinin razılığı olmadan başqa hökumətlərlə hərbi ittifaq əqd etməsin.

9) Hərgah 5-ci maddədə göstərilən müddət qurtarana qədər heyəti daxilində olan bütün hökumətlərin tamamiyyətini və istiqlaliyyətini təmin edən Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gəlsə, hər iki cümhuriyyət Cəmiyyəti-Əqvama daxil olan zamandan həmin saziş öz qüvvəsini itirir.

10) Zaqafqaziya cümhuriyyətlərindən üçüncüsü Ermənistana ixtiyar verilir ki, həmin saziş rəsmi surətdə elan edilən gündən iki həftə müddətinə qədər özünün bu sazişə yapışmaq arzusunda olduğunu bildirsin.

11) Həmin saziş imza edilən gündən iki həftənin müddətinə qədər təsdiq edilmiş nüsxələr Bakıda mübadilə ediləcəkdir.

Həmin saziş əslində iki nüsxədir.

*Gürcüstan Xariciyyə naziri: Gegeçkori,*
*Hərbiyyə naziri: [Noy] Ramişvili,*
*Hərbiyyə naziri müavini:*
*general-mayor Gedevanov,*
*general Odişelidze*
*Azərbaycan Xariciyyə naziri:*
*M. Y. Cəfərov,*
*Hərbiyyə naziri: Mehmandarov,*
*Baş ərkani-hərb naçalniki:*
*general-leytenant Sulkeviç*
*Tiflis şəhəri, 16 iyun 1919*

## TELEQRAF XƏBƏRLƏRİ

**Çində iğtişaş**

London - Sülh Konfransının Şantou barəsində olan qərarına görə, Şantouda dəhşətli iğtişaş olmuşdur. Çinlilər əcnəbi polisinə təcavüz etmişlərdir.

**Sualtı qayığının batırılması**

İngilis bəhri [dənizçilik] idarəsi xəbər verir ki, Baltik dənizində gəzən ingilis sualtı qayığı xəbərsiz itmişdir.

Parisdə tətilin tərki

Parisdə tətil qurtardı. Cümə günü Klemanso əvvəlcə tətilçilərin nümayəndələri ilə, sonra Paris şəhəri nümayəndələri ilə görüşmüşdür. Bəzi tələbatın qəbulu mümkün hesab edilmişdir. Bəziləri isə etinasız qalmışdır. Rəisi-vükəla [Baş nazir] tətilçiləri vətənpərvərliyə dəvətlə ittihad etmələrini tövsiyə eyləmişdir.

**Berlində tətil**

İyunun 7-də Berlində kiçik cəsamətdə [ölçüdə] ancaq iki qəzetə nəşr edilmişdir. Tramvay tərəddüdatı [gediş-gəlişi] kəsilmişdir. Poçtaxanada xüsusi tətil olur.

**Fransa və Rusiya**

Odessa - Parisdə müntəşir [nəşr olunan] "Tayms" qəzetəsi fransız hökumətinin Rusiya ilə olan əlaqəsindən narazıdır. Qəzetələr yazırlar: İngilislər Arxangelskdə hökmrandırlar. Onlar Bakını öz əllərində saxlayırlar. Şimali və Cənubi Qafqaziyaya nüfuz yeridirlər. Amerikalılar Sibiryada fəaliyyət göstərirlər. Fransanın Rusiyada heç bir nüfuzu yoxdur. Əcəba Fransanın Rusiyada heç bir mənafeyi yoxdurmu? Fransaya lazımdır ki, Rusiyada lazım olan yerləri tutub fransız sərmayəsini təmin eyləsin.

**Kronştadtın bombardmanı**

Stokholm - "A. B. B." qəzetəsi yazır ki, İngiltərənin hərbi gəmiləri Kronştadtı bombardman edir. Bolşeviklər bombardmana qarşı sükut ixtiyar edirlər. Bolşeviklər Kronştadt iskələsinə [liamnına] minalar qoymuşlar ki, düşmənlərin desant çıxarılmasına mane olsunlar. Zənn edilir ki, bolşeviklər şəhəri təxliyə edirlər.

**Tətil hərəkatı**

Nauen - Amsterdamdan xəbər verilir ki, gəmi komandanları tətil etdiyi üçün İngiltərə ilə Amerika arasında gəmi tərəddüdatı [rabitəsi] böyük müşkülata uğrayır.

**İngilis gəmiləri**

Kiyevdən xəbər verirlər ki, üç ingilis gəmisi silah və topxana ilə İstanbuldan Novorossiyskə azim olmuşdur [yola düşmüşdür].

*(Royer acentəliyi)*

**Avstriyaya ərzaq**

Parisdən xəbər verirlər ki, iqtisadi işlərə baxan Ali Şura Avstriyaya əvvəlki kimi ərzaq aparılması üçün tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

**Tətil gözlənir**

İyunun 12-də Parisdən xəbər verirlər ki, keçən gün Palatada qəbul edilən 8 saatlıq iş qanunu Şura tərəfindən qəbul edilməmişdir. Tətil Şurası qərara almışdır ki, iyunun 16-da kömür mədənləri fəhlələrinin ümumi tətili elan edilsin.

**Avstriya əhvalı**

Avstriyada işlər yaxşı deyildir. Kommunistlər bazar günü təbəddülat [dəyişiklik] olacağını elan etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Müttəfiqlər bir para güzəştə gedirlər**

Müttəfiqlər almanların əks-təkliflərinin ümdə maddələri haqqında əksəriyyətirəylə [səs çoxluğu ilə] qərar çıxarmışlardır. Onlar qərar qoymuşlar ki, zərərlərin verilməsi maddələrinin bir çox yerlərini dəyişsinlər. Müttəfiqlər Klemansonun vəziyyətinə baxmayaraq, Yuxarı Sileziyada rəyi-amm [referendum] icra edilməsi təklifinə razıdırlar. Lakin Fransa nümayəndələrinin xahişinə görə, rəyi-amm qaydalarının vücuda gətirilməsi haqqında saziş hüsula gəlmişdir. Almaniyanın Cəmiyyəti-Əqvama daxil edilməsi zamanı müahidənamədə [sazişdə] göstərilməmişdir.

**Müttəfiqlərin cavabı**

Müttəfiqlərin Almaniya əks-təklifinə cavabı iyunun 12-də verilmişdir. Almaniyaya xəbər verilmişdir ki, artıq müzakirata icazə verilməyəcəkdir. Hərgah Almaniya iyunun 28-nə qədər imza etməsə, hərəkati-hərbiyyə başlanacaqdır.

**Türkiyə nümayəndələri**

İngiltərə simsiz teleqrafı xəbər verir ki, Türkiyə nümayəndələri Damad Fərid paşa başda olmaq üzrə Paris yaxınlığında Vankrisura varid olmuşlardır [çatmışlar]. Damad Fərid paşa polkovnik Henri və Buzrar tərəfindən qəbul edilmişdir.

**Almaniya Kabinəsi**

Müttəfiqlərin Almaniyaya verdikləri cavabını qəti surətdə müzakirə eyləməkdən ötrü, Almaniya Kabinəsi Veymara getmişdir.

**Türkiyənin müqəddəratı**

Lion - Türkiyə sülh mürəxxəsləri [nümayəndələri] gələn seşənbə [çərşənbə axşamı] günü Dördlər Şurası tərəfindən qəbul ediləcəklərdir. Bunlar tələb edirlər ki, sultan düvəli-müəzzəmə [böyük dövlətlər] himayəsi altında İstanbulda qalsın. Yalnız Amerikanın ixtiyarı artıq olmalıdır. Mümkündür ki, keçənlərdə zikr edilən plan icra edilsin. Məsələn, Anatoliyada Türkiyə imperiyası təşkil ediləcək, sultan həzrətlərinə mükəmməl dini, siyasi muxtariyyət veriləcəkdir. Milliləşmiş olacaq İstanbul iddiasından Türkiyə vaz keçməli imiş.

**Avstriyanın protestosu**

Paris - Avstriya sülh mürəxxəslərinin başçısı Kepper Klemansoya bir nota göndərərək, Avstriyanın təqsim edilməsinə [bölünməsinə] qarşı protesto edir. Xüsusən Bohemiya və Tirolun ayrılmasına protesto eyləyir. Axırda əlavə edir ki, bu ticarət mənbələrindən məhrum olan Avstriya yaşaya bilməyəcəkdir. Kronprins ilə "Nyu-York Tayms" qəzetəsinin müxbiri müsahibədə bulunmuşdur. Kronprins müxbirə demişdir ki, on ildən sonra yenə təzə müharibə başlanmaq ehtimalı vardır.

**Vilsonun əzimətinə [gedişinə] dair**

Almaniya tərəfindən sülh müahidənaməsinin [sazişinin] imza edilib-edilməyəcəyi anlaşılana qədər Vilson Avropada qalacaqdır.

**Türkiyənin gələcəyi**

Ağa xan və Əmir xan (Hindistan nümayəndələridir) "Tayms" qəzetəsində bir məqalə dərc edərək, bunlar lazım görürlər ki, İstanbul, Trakiya və Asiyayi-süğra [Kiçik Asiya, Anadolu] Suriyadan başlanmış ta Qara dənizədək sultan həzrətlərinin təhti-hakimiyyətində [hakimiyyəti altında] olsun.

- Almaniyanın Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxılması barəsində Fransanın rəyi böylədir: Hal-hazırda Almaniyanın Cəmiyyəti-Əqvama buraxılması vaxtı yetişməmişdir. Almaniya əhalisinin məqsədi müəyyən olduqdan sonra ancaq Almaniya Cəmiyyəti-Əqvama buraxıla bilər.

**Almaniyaya cavab**

Müttəfiqlərin Almaniyaya olacaq cavabı qəti olacaq. Cavabın müzakirəsinə müsaidə [icazə] verilməyəcəkdir. Almanlara bir həftə vaxt veriləcəkdir ki, bu müddətdə Berlinə gedib də hökumətləri ilə məşvərət etməyə və nəticəni Konfransa bildirməyə fürsətləri olsun.

**Foşun ultimatumu**

General Foşun ultimatumu nəticəsi olaraq, Almaniyadan polyak firqələri keçə bilmişlərdir.

- Dördlər Şurası Almaniyaya qarşı ciddi tədbirlər ittixazını qət eyləmişdir [ciddi tədbirlər görülməsini qərara almışdır]. Deməli, hərgah gözlənilən bəzi hadisələr vüqu bularsa, o zaman Müttəfiqlər ciddiyyən Almaniyanı sıxışdıracaqlardır.

**Lord Redinq və sülh şəraiti**

Amerikadan İngiltərəyə qayıtmış olan Lord Redinq demişdir ki, almanların özlərinə təqdim edilən sülh şəraitindən yüngül şərtlər gözləməyə haqları yoxdur. O ki qaldı sülh şəraitinə Vilsonun 14 maddəli müahidənaməsinin müvafiqət etmədiyi [uyğun gəlmədiyi] məsələsinə, onlara da gözəl cavab budur ki, heç kim müəllifdən artıq öz maddələrini düşünə bilməz. Vilson özü indiki sülh müahidəsini təqdir eyləmişdir.

Almaniyanın ticarət gəmilərinin Amerikaya təslim edilməsi məsələsində Lord Redinq bəyan eyləmişdir ki, bu müvəqqəti bir işdir. Böyləliklə Amerika qoşunlarının nəqliyyatına kömək edilmiş olar. Hər halda gəmilər daimi surətdə Amerikanın əlində qalacağını iddia etmək olmaz.

## QƏZETƏLƏRDƏN

**Çörçill mitinqdə**

Dandidə olan mitinqdə Çörçill öz müntəxibləri [seçiciləri] qarşısında nitq irad etmək istərkən dəhşətli qışqırıq başlanmışdır. Müxaliflər qışqırıb səs-küy salmışlar. O cümlədən "İngilis saldatlarının Rusiyada işləri yoxdur" deyə səslər eşidilirmiş. Çörçill cavabında "İngilis saldatlarının Rusiyaya getməkdən məqsədi almanları qərbi cəhətdən ayırmaqdır" demişdir. "O qoşunlar ki, hələ də Arxangelskdə şimalda dururlar, onlar xəsarətsiz və şərəflə qalib sifətində İngiltərəyə qayıdacaqlardır."

**İngiltərənin Amerikaya borcu**

Amerikanın Hərbi İşlər katibi mister Beker bəyan eyləmişdir ki, İngiltərənin hal-hazırda Amerikaya 7 milyard 100 min ingilis lirəsi borcu vardır.

**Türkiyədə**

Fələstin cəhətinə Etilaf [Antanta] tərəfindən bir heyət göndərilmişdir. Ərəb əmiri Faysal ərzi-Fələstinin [Fələstin torpağının] 12 küsur əsrdən [12 əsrdən çox müddətdən] bəri islamiyyətin mühafizəsi altında bulunan və ərzi-məzkur [deyilən yer] dəyanəti-şər'iyyəcə [islam dininə görə] və xristianlıq dinincə də müqəddəs olan bu bəldeyi-mübarəkənin [mübarək ölkənin] içində bir yəhudi hökumətinin təsdiqində kürreyi-ərz üzərində bulunan aləmi-islamiyyəti və xristianlığı rəncidə edəcəyindən [qəlbini incidəcəyindən], ərzi-Fələstində yəhudi hökumətinin təsdiqinə dinən mane' [dini baxımdan maneə] və bu surətlə məhzur [saqınılası, çəkiniləsi şey] olduğu əmir Faysal tərəfindən Konfransda bəyan edilmiş və bu məsələ haqqındakı müzakirə ictimayiatiyyə [gələcək iclasa] təyin edilmişdir.

- İzmirdə qüvveyi-inzibatiyyə [asayiş gücləri] və Vilayət məqamı [valilik], vəzifələri ilə məşğuldurlar.

Daxiliyyə Nəzarəti ilə Vilayət beynində [Valilik arasında] şifrə müxabirəsi [kodlanmış teleqram və ya məktubla xəbərləşmə] başlanmışdır.

İtaliya qəzetələri Türkiyə əhvalının nikbin olduğunu yazırlar.

- Anadolu cəhətinə Mötəlifin [Antanta dövlətləri] tərəfindən bir heyəti-təhqiqiyyə [araşdırma heyəti] göndərilmişdir.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Fəhlə Konfransı heyəti-rüəsası [rəyasət heyəti] Məsai Nəzarəti [Əmək Nazirliyi], surəti Məclisi-Məbusanın Sosialist fraksiyonuna olmaq üzrə birər təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, Bakının cəhəti-iqtisadiyyəsi fənalığından naşi [iqtisadi cəhətdən vəziyyəti pis olduğuna görə], bir çox gəmi fəhlələri işsiz qalmışdırlar. Bu vaxtadək işsiz yoldaşlara Bəhriyyun İttifaqı [Dənizçilər İttifaqı] müavinətdə bulunurdu. Fəqət İttifaqın xəzinəsində olan müavinət məbləği bitdiyindən, bir daha müavinət etməkdən acizdir. Dövləti Bankda [Dövlət Bankında] isə, hesabati-cariyyə üzrə pul verilməyir. Heyəti-rüəsa rica etmişdir ki, hesabati-cariyyə üzrə İttifaqa para verilmək üçün təşəbbüsatda bulunsun.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Klenevski işbu iyunun 18-də Tiflisdən qayıdıb öz vəzifəsi ifasına şüru etmişdir [başlamışdır].

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 22 iyun (Bazar günü) tarixli 209-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Klenevski işbu iyunun 18-də Tiflisdən qayıdıb öz vəzifəsi ifasına şüru etmişdir [başlamışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən rica etmişdir ki, işbu sənə əvailində [əvvəllərində] hanki füqəraya hanki təşkilatlar vasitəsilə nə kimi müavinətdə bulunması barəsində Nəzarətə məlumat versin. Müavinət edilibsə, kimlərə verilməsi də məlum edilsin.

- Bu yaxın günlərdə Gədəbəy zavod komitəsi sədri, bir nəfər də komitə üzvü həbs edilmişlərdir. Məsai Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, onların azad edilməsi barəsində təcili surətdə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

## ƏSGƏR TƏLİMİ

Bəhri-mühitin [okeanın] biaman dalğaları kimi məmurələri [abad yerləri] yaxıb-yıxan hərb tufanının ən müdhiş, ən har [alovlu, yandırıcı] dövrlərində bulunmuş müdəqqiq [tədqiq edən, hər şeyi araşdırıb dəqiqləşdirən], məlumatlı komandanlar yek-ağaz [hamısı bir ağızdan] olaraq deyirlər ki:

Eyi təlim və tərbiyə görmüş müntəzəm ufaq [kiçik] bir qüvvət kəndisinə pək faiq [üstün] bir qüvvətə qələbə edər.

Və yenə: Təlim və tərbiyeyi-əsgəriyyədən məqsəd əsgərə üsul və qəvaidi-hərbiyyəni [hərbi üsul və qaydaları] öyrədib, boş yerə əfradı [əsgərləri] yoracaq hərəkətlərdən bilkülliyyə ictinab etmək [çəkinmək] lazımdır.

İştə, nasiyəsini [alınını] hərb meydanının qızğın günəşi altında qarartmış, saç və saqqalını torpaq akop [səngər] içində ağartmış, qulaq zarlarını [pərdələrini] müdhiş top gumbultuları ilə patlatmış, ölmüş, öldürmüş, yaralanmış, qalmış, bir çox təhlükə atlatmış təcrübəli komandanların tövsiyələri...

Məqsədim şimdiyə qədər yaptırıla gələn yanaşıq nizamın fəvaid və mühəssənatını müaxizə etmək [faydalarını və üstünlüklərini tənqid etmək] deyil, bir az da dağınıq nizam hərəkatına əhəmiyyət verilməsini rica etməkdir. Zatən cəhətiər-baanı [dörd tərəfi] sarmış biaman düşmənlərin qabağı sol-sağ ilə saxlanılammayacağı cümlənin məlumudur.

Əsasən yanaşıq nizam hərəkatından məqsəd əfradı zəbt və rəbtə [nizam-intizama], bərabərliyə alışdırmaqdır ki, bu da müsaid zamanlarda bol-bol yapdırılabilir, zənn edirəm.

Halbuki şimdi məmləkətimiz, millətimiz hali-hərbdədir [müharibə vəziyyətindədir]. Müsaid zamanımız yox. Uzun zamandan bəri xeyli yollar yürümüş, ixtiyarlamış, susamış olan məhud [hamının tanıdığı, mənfi mənada "məşhur"] bayquş qapımıza qədər yaxlaşdı.

Məmafih [bu halda], su yerinə türk, türk-islam qanı içməyə alışmış olan bu yırtıcı şimal heyvanına da Qafqaz bir məzar olacaqdır. Biz hazırız və hazırlaşırız.

Məşhur bir türk şairi deyir ki, erkəkləri hüduda, cəngə qoşarkən, qadınları qurşun yarası sararkən, qəlbləri Xudaya təvəccöh edərkən [yönələrkən] bir millətin zəfər haqqıdır.

Çalışan qullarını Allah sevər. Biz də çalışırız, lakin bir az daha hümmət edib də əsgərlərimizə ovçu xəttindəki vəzifəsini, üsul və surəti-kəşfi [kəşfiyyat üsullarını və şəklini], əmniyyət [təhlükəsizlik] və qaraqol tərtibatı kimi ilaxır əhəm və mühüm məvaddi-əsgəriyyəni [hərbi işin maddələrini] onların anlaya biləcəyi bir surətdə zehinlərinə soxarsaq, əmin olalım ki, xilqətən mövcud igidlik qanı ilə birləşən bu bəsit məlumati-əsgəriyyə bir qıvılcım kimi düşmən qarşısında alovlanacaq, patlayacaq, öləcək, öldürəcək, xariqələr göstərəcək, fəqət nəticədə şanlı Azərbaycan yenə qalacaq və yaşayacaqdır.

*Xaçmazda: C. Məğmumi*

## QARABAĞDA

Qarabağ general-qubernatoru [Xosrov bəy] Sultanov həzrətlərindən bu məzmunda bir teleqram alınmışdır:

*"10 min ev köçərilər 150 minədək qaramalları ilə Zəngəzura keçə bilmədiklərindən müavinət istəyirlər. Yaylaqlara keçmək iqdamatına [təşəbbüsünə] başlanıldısa da, ermənilər tərəfindən hücumlar olduğu üçün iqdamat dayandırıldı. Üç gün bundan əvvəl ermənilər Zəngəzur qəzasının Keşikli və Xəştab kəndləri üzərinə hücum yaparaq təərrüzlər [basqınlar] edirlər. Əhali müavinət rica və təmənna edir. Müavinət və Keşikli, Xəştab kəndlərinə dair düsturüləməl [təlimat] verməniz rica edirəm. Xalqa öz hüququnu müdafiədə müavinət edilməzsə, zira yaylaqlara getməmək ölüm kimidir, xalqdan heç şey bəkləmək olammaz. Rica edirəm ki, müavinət veriniz və yaxud mənim üzərimdən böylə məsuliyyətli işi götürəsiniz. Zira on minlərlə əhali qarşısında mən cavabdehəndəyəm [cavabdehəm]. Təcili cavab bəkləyirəm.*

*General-qubernator:*
*Sultanov"*

## ERMƏNİ BANDALARI

Ordubaddan Tiflisə gəlmiş olan Əhməd Hacı Əli oğlu İrəvan Həmtorpaqlıları Komitəsi sədrinə iyunun 10-da böylə məruzədə bulunmuşdur:

Erməni bandası başçılarından biri Aşot Məlik-Movsesyans bir para erməni zabitləri və saldatları ilə iyunun 1-də Ordubada gəlib müzakiratdan ötrü üç nəfər nümayəndə göndərilməsini müsəlmanlardan tələb etmişdir. Ordubad əhli bunun tələbinə əməl edib öz vəkillərini göndərmişlər. Aşot həmin nümayəndələrə elan etmişdir ki, Vedibasar, Şərur, Naxçıvan, Ordubad və Zəngəzur uyezdi Şuşa şəhərinə qədər Ermənistana yapışdırılmışdır və o da hal-hazırda Ordubad rayonunun uyezdni naçalniki [qəza rəisi] hesab olunur. Buna görə onun əmrlərinə əməl edilməsini tələb edir.

Ordubad müsəlmanlarının vəkilləri Aşotdan xahiş etmişlər ki, o, öz sözlərinin doğru olduğunu təsdiqedici mandatını göstərsin. Aşot cavab vermişdir ki, onun heç bir mandatı yoxdur və öylə bir mandat da lazım deyildir. Vaxtı ki o özünün hakim olduğunu izhar edir, əhali onun sözlərinə inanmağa borcludur. Müsəlman nümayəndələri isə öz növbələrində qəti surətdə banda başçısına izhar etmişlər ki, o, özünün Ordubad rayonu üçün uyezdni naçalnik təyin edildiyi haqqında Azərbaycan Hökumətindən və ya Müttəfiq Komandanlığından rəsmi sənəd gətirməsə, müsəlman əhalisi onu rəsmi hakim hesab etməyib bu qərar üzrə də onun heç bir əmrinə əməl olunmayacaqdır. Aşot müsəlman nümayəndələrindən bu cür qəti cavab aldıqdan sonra öz yanındakı adamları ilə Əylis kəndinə qayıtmışdır.

İyunun 2-də Ordubad və ətrafı müsəlmanları Aşotdan bu məzmunda bir ultimatum almışlar:

*"Siz məcbursunuz ki, bütün sizdə olan dövləti əmvalı [dövlət mallarını], həmçinin müsəlman əhalisi əlində olan silahı və mühimmati-hərbiyyəni [hərbi ləvazimatları] cəm edib Ordubad kazarmasında mənim vəkilim Nikolay Alişevskiyə verəsiniz."*

Bu ultimatum bütün o ətraf müsəlmanlarının artıq dərəcədə həyəcanına bais olmuşdur. Zira şayiələr var idi ki, Aşot bandası müsəlman qırğını hazırlayır. Bütün il müddəti müsəlmanlar içində əmniyyətlə yaşamaqda olan ermənilərin hərəkəti bu təsiratı dəxi də artırdı.

Bunların həpsindən həyəcana düşmüş müsəlmanlar Aşota protesto məktubu göndərmişlərdir. Aşot cavabında demiş:

*"Böylə protestoların vaxtı keçmişdir."*

Bu cavabdan sonra Aşot öz dəstələri ilə şəhərə hücum edib cinayətkarənə hərəkata başlamışdır. Ətrafda olub da illərlə müsəlmanların himayəsində olan ermənilər vaxtdan istifadə edərək Aşot dəstəsinə qoşulub özlərinin əvvəlki nicatdəhəndələri [xilaskarları] olan müsəlmanların qarşısına çıxmışlar. Belə ki, bunlar müsəlləh [silahlı] surətdə müsəlman kənd və qəsəbələrinə hücum etmişlər.

Bu axır vaxt şəhərə gedən olmayır ki, onlarla müsəlmanlar qaniçən ermənilərin qurbanı olmasınlar. Hər gün ermənilər müsəlmanların məskun yerləri dağıdıb əllərinə keçən müsəlmanları həlak edirlər. Bu hadisələr adəti bir iş halına düşmüşdür. Deyirlər ki, bu qırğınlar "mədəni" ermənilər tərəfindən hazırlanan və icrası gözlənən müsəlman qırğınının müqəddiməsidir.

Bu ağır hadisələrin təzyiqi altına düşən Ordubad rayonu müsəlmanları Azərbaycan Hökumətindən, yaxud Müttəfiqlər Komandanlığından imdad bəkləyirlər.

O zaman ki, bütün kürreyi-ərzdə yaşayan millətlər nəzərlərini Sülh Konfransına cəlb edib qayət əcələ ilə ümumi sülhün əqdini gözləyirlər ki, xarabazara qalmış məmləkətlərini abad və oralarda olan qanunsuzluğu ləğv etsinlər; böylə bir zamanda qan içməkdən doymamış və qan təşnəsi olan ermənilər bizə yeni qanlı töhfələr hazırlayırlar. Əcəba ermənilərin bu qədər qan tökmələrinə bir intəha [son] verilməyəcəkmi? Əcəba Ordubad müsəlmanları ermənilər tərəfindən hazırlanmaqda olan yeni cəhənnəmdən xilas edilməyəcəklərmi?

Bu ərizə Həmtorpaqlılar Cəmiyyəti katibi Z. Məhəmmədov tərəfindən imza edilmişdir.

## İRAN SƏFİRİMİZ İSMAYIL XAN ZİYADXANOV İLƏ MÜSAHİBƏ

Srağagün Azərbaycan Cümhuriyyətinin Tehran hökuməti nəzdindəki siyasi nümayəndəsi İsmayıl xan Ziyadxanov Tehrandan Bakıya varid olmuşdur [gəlmişdir]. Səfir həzrətləri müxbirimizi qəbul edib İranın övzası [vəziyyəti] və Azərbaycana olan əlaqəsi barəsində bir qədər məlumat vermişdir. Əlavə, ən yaxın zamanda İrana dair geniş məlumat verməyi də kəndi öhdəsinə götürmüşdür.

Heyəti-mürəxxəsəmiz [nümayəndə heyətimiz] rəisi İsmayıl xan Ziyadxanov həzrətləri İran Heyəti-Vükəlası [Nazirlər Kabineti] və şah həzrətləri tərəfindən qəbul edilərək uzun-uzadı Azərbaycan və İran ilə olacaq əlaqəsi barəsində müsahibələrdə bulunmuşdur. İran dövləti Azərbaycanı qəbul və təsdiq edir, fəqət bir qədər Azərbaycan namı [adı] nədənsə İran rəsmi dairələrini əndişəyə salmış imiş. (?)

Ən yaxın zamanda İran ilə post və teleqraf, gömrük və başqa bu kimi dövləti qonşuluq məsələləri həll ediləcəkdir. Tehran rəsmi mətbuatı Azərbaycan, xüsusən səfirimiz həzrətlərinə məqalələr ithaf edərək yeni islam dövlətini təbrik etmişlərdir. İranın dəvairi-rəsmiyyəsində [rəsmi dairələrində] Azərbaycan müsbət bir nüfuza malik olmağa müvəffəq olmuşdur. Azərbaycandan böyük müvəffəqiyyətlər bəklənir.

Heyəti-mürəxxəsə bir çox məsələlər müzakirəsindən sonra yenə Tehrana azim olacaqdır [yola düşəcəkdir].

## BAKI XƏBƏRLƏRİ

**Əslihə tutulması**

Əksinqilab ilə mübarizə edən Fövqəladə Komitənin sədri əmri ilə Bolşoy Morskoy və Nijni-Priyut küçələrinin küncündəki İvanovun evində axtarış əmələ gəlib, 252 rus tüfəngi, 61200 patron, bir dənə "Kolt" pulemyotu tapılıb, polis tərəfindən müsadirə edilib 6-cı uçastoka aparıldıqdan sonra qradonaçalnikə təslim edilibdir. Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, həman evin padvalında [zirzəmisində] yerə basdırılmış olan iki boçka [çəllək] içməli su tapılıbdır.

**"İnqilabçı" əmələlər**

İyunun 18-də Bibiheybətdə Mitrofanovun mədənində şəhərdən getmiş olan Əmələ Konfransı nümayəndələrinin tərəfindən əmələlərin ümumi iclası dəvət edilib və Denikin qara qüvvələri əleyhinə mübarizədə bulunmaq məsələsi müzakirə edilmişdir. İclasda 300 nəfərə qədər əmələ hazır olub, onların içində 30 nəfər də müsəlman varmış. Bir çox natiqlərdən sonra Konfrans tərəfindən bir qətnamə təklif edilmişdir. Bu vaxt rus əmələlərindən bir neçəsi: "Konfrans bizim üçün qanun deyil, biz Denikinlə müharibə edə bilmərız." demişlərdir. Qətnamə səsə qoyulduqda əksəriyyət onun əleyhinə səs vermiş, böylə ki, Denikin tərəfdarı olan əmələləri bir tərəfə və əleyhinə olanları qeyri tərəfə ayırdıqda, əvvəlinci tərəf bir qədər artıq olmuşdur. İclasda hazır olan "Hümmət" firqəsi nümayəndələri yoldaşlarının böylə nagəhani [gözlənilməz] hərəkatına təəccüb edib və çətin bir halda qalmışlardır.

**Şahzadə Savoyskinin gəlməsi**

İtaliya siyasi heyəti nümayəndəsi şahzadə Savoyskinin bu gün Bakıya varid olması [gəlib çatması] gözlənir.

**İtaliya qoşunlarının Bakıya gəlməsi**

Ən mövsuq [etibarlı] mənbələrdən aldığımız məlumata görə, iki həftədən sonra Bakıya İtaliya qoşunları varid olacaqdır.

- Bu günlərdə Tiflisdən Bakıya Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri ilə Gürcüstan Ərazi və Türüq-Məabir [Nəqliyyat-Rabitə] naziri həzrətləri ilə Bakıda Gürcüstan siyasi nümayəndəsi Alşibayanın varid olacaqları gözlənir.

**Polis nəfəratına and verilmək mərasimi**

Srağagün Təzəpir məscidi həyətində polis və şəhər mühafizəsi dəstəsinə and verilmək mərasimi icra edilmişdir. Burada Bakı qubernatoru, Bakı qradonaçalniki, qalabəyi, pristavlar və qeyri polis məmurları hazır olmuşlardır. Anddan sonra nəfərat musiqi və bayraqlarla şəhərin küçələrində gəzmişlərdir. And verildiyi vaxt Təzəpirin həyətinə könüllü "Yardım alayı" dəxi məşqdən qayıdarkən gəlmişdir. Alay kamali-nəzm və nizam üzrə məmurların nəzərində nümayiş edib və alqışlara nail olmuşdur.

**Dabravol casusu**

Quba uyezdi Qusarda sükunət edən Tixon Avilov Rus Milli Şurasına bir ərizə verərək məlum etmişdir ki, onun qardaşı Qusarda Azərbaycan Hökumət məmurları tərəfindən Dabravol casusu adlanaraq tövqif [həbs] edilmişdir. Rus Milli Şurası bu ərizəni Daxiliyyə nazirinə göndərmiş və lazımi sərəncam istəmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Balaxanı-Sabunçu qalabəyisinin binagüzarlığına [sərəncamına] görə, Bakı qradonaçalstvası Novxanı kəndi əhli Məlikheydər Cavad oğlu öz oğlu Nuhbalanı əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və oğlu gəlincəyə qədər həbs edilmişdir. Oğlu gəldikdən sonra bir ay müddətinə tənbeh olaraq həbsxanada qalacaqdır.

- Suraxanı kəndi əhli Əhməd İmam-bəxş oğlu əsgər yığmağa mane olub və gizlətməkdə müttəhim edildiyindən bir ay müddət həbsxanaya alınmışdır.

- Kürdəxanı kəndi əhli Əbdürrəhim Əbülbaqi oğlu öz oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edilərək, oğlu gəlincəyə qədər və bir ay müddət əlavə həbsxanaya göndərilmişdir.

- Qala kəndi əhli Mirzəağa Mirzəbaba oğlu öz oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim və Mərkəzi Həbsxanada məhbus edilmişdir.

**Həbsdən azad**

Hövsan kəndi əhli Cavad Ağakişi oğlu, oğlu əsgərliyə gəlib yazıldığından, Balaxanı-Sabunçu qalabəyisi binagüzarlığı ilə həbsdən azad edilmişdir.

**Qoşunumuz haqqında ermənilərin və Denikinin "məlumatı" (?)**

Denikin ordusunda olan məlumata nəzərən, Azərbaycan Hökumətinin hal-hazırda 15 min qoşunu vardır. Bu qoşunun qismi-əzəmi [çox hissəsi] Gəncədə olur. Zabitlərin cümləsində qadınlar da vardırlar.

**Müsəlman Ziyalıları İttifaqında**

Müsəlman Ziyalılar İttifaqı tərəfindən açılmış səhiyyə kursuna yazılan şəxslərdən rica olunur ki, yekşənbə [bazar] günü ayın 22-də axşam saat 7 radələrində İttifaqa müraciət etsinlər.

## AZƏRBAYCANDA

**Gəncədən**

Təbiidir ki, hökumətimiz müəllimlərin və bir taqım məmurların halını nəzərə alaraq yanvar ayından etibarən maaşları artırdı. Artırmalar hər məktəbə, hər idarəyə göndərildi. Gəncə və qəzasında Maarif nazirinə tabe məktəblər də artırmaları aldılar. Doqquz aydan bəri çalışmış 600-ə, 450-yə xidmət edən müəllimlərin az-çox üzü güldü. Məlumdur ki, o para ilə yay ehtiyacını da ödəyəcəklər. Böylə olan halda Mədrəseyi-Diniyyə ilə Bələdiyyə İdarəsinə tabe zavallı müəllimlər yenə də Bakıdan artırma bəkləyirlər. Təəssüf edilməlidir ki, müəllim adını daşıyanların həpsi artırma alsın da, müstəsna olaraq mədrəsə və şəhər məktəbi müəllimləri unudulsun.

Gəncə vilayəti Türk Müəllimləri İttifaqı tərəfindən Bakıya vurulan teleqrama cavab olaraq gördüm ki: "Şəhər məktəbi müəllimlərinin artırmaları Bələdiyyə İdarəsindən veriləcəkdir. Mədrəsə isə Ədyan [Dini Etiqad] nazirinə tabe olduğundan oradan göndəriləcəkdir."

Nə zaman göndəriləcək, kimsə biləmməyir. Ruhən, qəlbən sıxılmış bir müəllimə yaylağa getmək, təmiz havalarda tənəffüs etmək lazım gəlir. O para şimdi lazım ki, müəllimlər yaylağa getsinlər, bir az qanlarını artırsınlar ki, gələcək sənə dərs verməyə, millətin çocuqlarını tərbiyəyə müqtədir olsunlar. Bir şəhərin yaxud bir qəzanın bütün müəllimlərinə artırma yaxud maaş verilib də yalnız bir məktəbi parasız buraxmaq xəyala gəlməzdi. Buna binaən [buna görə], Ədyan naziri həzrətlərinin Mədrəseyi-Diniyyə müəllimləri haqqında əcələ tədabirdə [tədbirlərdə] bulunacağını ümid edərək sözümü bitirirəm.

*Davud*

**Ağdaşdan**

Sənələrdən bəri Bakıda bir çox məşəqqətlərlə təhsilə davam edərək kəndi məramına müvəffəqiyyətlə nail olan Məcidzadə Nisbət xanım bu günlərdə Ağdaşa gəlib bir yeni ünas [qız] məktəbi açaraq kəndi fəaliyyətinə başlamışdır.

Şimdiyədək 30-a qədər qız çocuq qeyd edərək türkcə, rusca dərslər başlanmışdır. Əlavə olaraq, cümə günləri məktəb zalında qadınlar üçün "şəkil" tamaşaları göstərməkdə və onları gələcəkdə bir cəmiyyət halına qoymaq xüsusunda çalışmaqdadır.

İştə, bu gün hər tərəfimizdə maarifə qarşı bir hüsn-rəğbət göstərməkdə, qərarmış olan yurdumuzu tənvir etmək [işıqlandırmaq] üçün çalışmaqdadır. Möhtərəm gənc hökumətimiz yeni məktəblər açaraq yeni-yeni təşəbbüsatda bulunur.

Bununla belə, qayət geridə və heç yox məsabəsində [yerində] olan ünas məktəblərimiz unudulmuş bir haldadır. Məncə, çocuğun məktəbi-ibtidaiyyəsi məqamında olan ana qucaqlarına maarif nurları saçmazsaq, çocuğun ilk müəllimi, mürəbbisi [tərbiyəçisi] olan analarımızın tərbiyəsinə diqqət edilməzsə, bütün səylərimiz hədər olacaq və qayət pozğun olan əxlaqımızı doğrultmağa müvəffəq olmayacağız.

Binaənileyh [ona görə], ünas məktəblərimizi çoxaltmalı və darülmüəllimələr [qızlar üçün pedaqoji məktəblər] açaraq bizim də dünyada yaşamağa hissədarikamalat olduğumuzu [kamaldan payımız olduğunu] qövlən deyil, feilən [sözlə deyil, işlə] isbat etməliyiz.

*Məhəmmədrza Əbdizadə*

## GÜRCÜSTANDA

**Azərbaycan nümayəndələrini təbrik**

Gürcüstan Xariciyyə nazirinin təşəbbüsü ilə iyunun 16-da Gürcü Klubunda Azərbaycan nümayəndələrinin şərəfinə raut [təntənəli ziyafət] tərtib edilmişdir. Rautda gürcü hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsi mühəndis [Faris bəy] Vəkilov, Azərbaycan Xariciyyə naziri M[əhəmməd] Y[usif] Cəfərov, Azərbaycan Hərbiyyə naziri Mehmandarov, Gürcüstan hökuməti üzvləri, Məclisi-Müəssisan rəisi və Divani-Rəyasəti və bir çox dəvət edilənlər iştirak etmişlərdir. Raut gözəl bir surətdə keçmişdir, bir çox nitqlər söylənmişdir.

**Gürcüstan Məclisi-Müəssisanında**

Gürcüstan Məclisi-Müəssisanının 17 iyunda vaqe olan iclasında Batumda general Naneyşvilinin Denikin köməyinə olaraq Zaqafqaziya əhalisindən əsgəri dəstələr tərtib etməsi münasibətilə Sosialist-Federalist fraksiyası tərəfindən verilən suala Xariciyyə naziri Gegeçkorinin iki nitqindən və müzakiratdan sonra Sosialist-Federalist fraskiyası nazirin bəyanatını kafiədd [hesab] edib, həmin formul qəbul edilmişdir:

*"Sosialist-federalistlərin sualı münasibətilə hökumətin bəyanatını dinləyərək Məclisi-Müəssisan islam Gürcüstanının cümhuriyyətimizə yapışdırılması haqqında hökumətin siyasətini təqdir edib, general Denikinin əsgərləri cəm edilməkdən ötrü Batumun bir üssül-hərəkəyə [bazaya] döndürülməsi əleyhinə hökumət tərəfindən tədbirlər görüləcəyinə inanıb, növbədəki məsələlərə keçir."*

**Anarxiya ilə mübarizə**

Gürcüstan daxilində anarxiya ilə mübarizə eyləməkdən ötrü hökumət tərəfindən Daxiliyyə naziri ixtiyarına yarım milyon manat para buraxılmışdır.

**Xatisovun vürudu**

Ermənistan hökumət rəisinin vəzifəsini ifa edən [Aleksandr İvanoviç] Xatisov Qarabağ hadisələri münasibətilə iyunun 17-də Tiflisə varid olmuşdur [gəlmişdir].

**Keşiş nəfy edilmişdir**

Tiflisdəki rus saborunun (kəlisasının) keşişi Yeqorov Gürcüstan hökumətinin qərarına görə, iyunun 16-da Gürcüstandan nəfy [sürgün] edilib məzkur [adı çəkilən] keşiş iyunun 17-də Batuma getmişdir.

**Zaqafqaziya və italyanlar**

"Qruziya" qəzetəsi yazır ki, Bakıdan Parisə azim olan [yola düşən] İtaliya heyəti sədri polkovnik Qabba Sülh Konfransı üzvlərini Zaqafqaziya əhvalından xəbərdar etmişdir. Guya polkovnik Qabba, Denikinin Qafqaziya millətlərinə nisbətən vəziyyətinin möhkəmləşdirilməsi əleyhinə olduğunu izhar edib, Dabravol ordusunun Azərbaycan sərhədinə yaxınlaşmasının arzuedilməz bir şey olduğunu göstərmişdir. Qabbanın bu bəyanatı ki, Qafqaziya məsələsində İtaliya hökumətinin nöqtəyi-nəzərinə müvafiqdir, Denikinin Zaqafqaziyaya olan hücumunun bərtərəf edilməsi [aradan qaldırılması] haqqında Müttəfiqlərin axırıncı qərarı ilə əlaqədardır. İtaliyanın sənaət [sənaye] dairələri nümayəndələrinin söhbətindən aşkar olduğu kimi, italyanlar özləri İtaliyanın Qafqaziya məsələsində [mövqeyini] təbii dövlətlərə [təbii sərvətlərə] malik olan Qafqaziyaya maraqlı olduqları ilə təfsir edirlər.

## ERMƏNİSTANDA

**"Aşxatavor" qəzetəsi yazır ki:**

İyunun 9-da və 10-da Ermənistan ərkani-hərb [qərargah] idarəsi tərəfindən teleqrafla verilən məlumatdan aşkar olur ki, Eyyub paşanın kürd çətə dəstəsi türklərlə birləşib Bardus, Qızılkəlisa, Cermuk və Diridan dairəsinə cəm olurlar. Onları təqib etmək üçün Sarıqamışdan Bardusa göndərilmiş briqada Qızılkəlisa kəndinin səmtində qurşunlarla qarşılandı. Əşqiya [quldur] dəstələrini tələf edib təcavüzatın önünü almaq üçün tədbirlər ittixaz edilir [tədbirlər görülür].

Bayəzidin qoşunu ayın 8-də Zərcibil köyünə daxil oldu. Məhəlli [yerli] əhali göndərilmiş süvari dəstə nəfəratının [əsgərlərinin] üzərinə hücum edib, birini öldürüb, üçünü məcruh edərək [yaralayaraq], altı cift [cüt] öküz qarət etmişlər. Tsumankali – Ağa kəndindən 50 süvari imdad göndərilmişsə də, müvəffəqiyyətsiz olmuşdur. Zira ki, əhali çoxdan hüdudu keçmişlərdi. Naxçıvan hökumətinin məlumatına görə, Şahtaxtı müsəlmanları, komissarı və qalan hökumət xidmətçilərini qovub demişlər ki, onları məşru [qanuni] hökumət nəzərində görüb tanımayırlar. Haləti qaydasına salmaq üçün binagüzarlıq [sərəncam] edilmişdir.

Qarsın 25 verstliyində Girnə kəndində kürdlər tərəfindən beş nəfər milisioner öldürülmüşdür. Bədəfkarları [cinayətkarları] təqib etmək üçün bir dəstə qoşun göndərilmişdir.

## İZHARİ-TƏŞƏKKÜR

Türk Müəllimlər İttifaqı namından isimləri atidə [aşağıda] yazılan müəllim və müəllimə arxadaşlara kəndi maaşları cüzi olduğunu nəzərdə tutmayıb maddi cəhətcə üsrətdə [çətinlikdə] bulunan arxadaşa qəyuranə [qeyrətlə] ianə etmələrinə səmimi qəlbdən izhari-təşəkkür edirəm.

Para verən əşxas [şəxslər]:

1) A. 26 rublə;
2) Məhəmmədbəyzadə 25 rublə;
3) Rəsul bəy Tahirzadə 25 rublə;
4) Qəmbər bəy Tahirzadə 65 rublə;
5) Abdula Şaiq Talıbzadə 50 rublə;
6) Məhəmmədqulu Hüseynzadə 25 rublə;
7) Əliməhəmməd Mustafazadə 50 rublə;
8) Mələk xanım İsrafilbəyzadə 20 rublə;
9) Abbasqulu Vəlixanzadə 50 rublə;
10) Süleyman bəy Axundzadə 50 rublə;
11) İsfəndiyar bəy Sultanov 25 rublə;
12) Səlahəddin Müftüzadə 25 rublə;
13) Məhəmmədqulu Hacızadə 10 rublə;
14) Mehdi bəy Səfərəlibəyzadə 10 rublə;
15) Murad Əlizadə 10 rublə;
16) Məhəmməd İbrahimzadə 10 rublə;
17) Abbasqulu Yusifzadə 9 rublə;
18) Məryəm xanım Adıgözəlov 25 rublə;
19) Bürhanəddin 30 rublə.

Cümlətanı 500 rublədir.

Şu para sahibinə vermək üçün müəllim Rəsul bəy Tahirzadəyə tapşırıldı.

*İttifaqın sədri*
*müəllim Ağabəy İsrafilbəyzadə*


**İtibdir**

Cəbrayıl Xudabəxş oğlunun Zəngəzur qəzasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10250*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**İtibdir**

Əhməd Hacıvəli oğlunun Zəngəzur qəzasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10251*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Rus çayı**

Xırda-xırda çox miqdar qiymətinə satılır. İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*


***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***"Azərbaycan"***

"Yekşənbə, 23 ramazanül-mübarək sənə 1337": qəzetdə "23" yerinə səhvən "31" getmişdir.

***Teleqraf xəbərləri***

"Tayms": 1861-1942-ci illərdə parisdə fransız dilində nəşr edilmiş gündəlik qəzet olan "Le Temps" nəzərdə tutulur.

***Sülh ətrafında***

"Ağa Xan və Əmir Xan": Hindistanın siyasi xadimləri III Ağa Xan və Seyid Əmir Əli nəzərdə tutulur.

***Qəzetələrdən***

"Dandi": qəzetdə "Denri" getmişdir.

"Müxaliflər qışqırıb səs-küy salmışlar.": qəzetdə "müxaliflər" yerinə səhvən "mühafizlər" getmişdir.

"ingilis lirəsi": funt sterlinq; qəzetdə "ingilis lirəsi" yerinə səhvən "ingilislərin" getmişdir.

***Əsgər təlimi***

"yanaşıq nizam": hərbi termin olaraq, əsgərlərin və hərbi texnikaların eyni cərgədə, bir-birinin yanında düzülməsini ifadə edir.

"ovçu xətti": hərbi termin olaraq, döyüşdə düşmənə doğru irəliləyən əsgərlərin ən öndəki cərgəsini ifadə edir.

İran səfirimiz İsmayıl xan Ziyadxanov ilə müsahibə

"şah həzrətləri": 1909-1925-ci illərdə İran şahı olan Sultan Əhməd şah Qacar nəzərdə tutulur.




● I Türkoloji qurultay - 100

# Yaddaşın məhkəməsi: yarımçıq ömürlərin hekayəti

**I Türkoloji Qurultay XX əsrdə türk xalqlarının elmi və mədəni inkişafında mühüm dönüş nöqtəsi kimi tarixə düşmüşdür. Bu qurultay təkcə dilçilik tədbiri deyil, türk dünyasının elmi düşüncəsinin koordinasiyasını, mədəni inteqrasiyasını və modernləşmə istiqamətini müəyyən edən genişmiqyaslı platforma olmuşdur. Sovet hakimiyyətinin ilk illərində Bakıda belə bir qurultayın keçirilməsi və türk xalqlarının dili, əlifbası məsələlərinin geniş müzakirəsi, bir sıra mühüm qərarların qəbulu ilk baxışda paradoksal görünə bilərdi. Lakin bu addım sovetlərin həmin dövrdə apardığı məqsədli siyasətlə bağlı idi. Sovet rəhbərliyi qeyri-rus xalqları arasında legitimlik qazanmaq, yeni dünyəvi və sovetləşmiş intellektual elita formalaşdırmaq, həmçinin savadlılıq kampaniyasını sürətləndirmək niyyətini güdürdü. Əlifba islahatı və kütləvi savadlılıq bu baxımdan ideoloji yox, dövlət texnologiyası kimi qiymətləndirilirdi.**



Qurultayda ilk dəfə olaraq türk dilləri ayrı-ayrı lokal problemlər kimi deyil, bir-biri ilə əlaqəli vahid sistem kimi qiymətləndirilmişdir. Bu yanaşma türk xalqları arasında elmi yaxınlaşmanı gücləndirmişdir. Latın qrafikasına keçid məsələsinin elmi əsaslarla gündəmə gətirilməsinin də türk dünyasının sonrakı inteqrasiyasına mühüm təsiri olmuşdur. Bu addım müxtəlif türk xalqları arasında yazı fərqlərini azaltmış, elmi və mədəni ünsiyyəti asanlaşdırmışdır. Bir sıra türk respublikalarında latın əsaslı əlifbaların tətbiqi ortaq kommunikasiya imkanlarını genişləndirmişdir.

Bu möhtəşəm tədbir eyni zamanda türkologiya elminin institusionallaşmasına təkan vermişdir. Müxtəlif regionlardan olan alimlərin Bakıda bir araya gəlməsi elmi şəbəkələşməni gücləndirmiş, ortaq tədqiqat mövzuları və metodoloji yanaşmalar formalaşdırmışdır. Proses türk xalqlarının tarixinin, mədəniyyətinin və dilinin paralel şəkildə öyrənilməsinə şərait yaratmış, parçalanmış elmi yanaşmalar yerini sistemli baxışlara vermişdir. Bir sözlə, Bakıda, İsmailiyyə binasında keçirilən I Türkoloji Qurultay türk xalqlarının həyatında unikal bir hadisə idi. Lakin neçə illərdən sonra görünməz əlin Azərbaycana qarşı işə saldığı kütləvi repressiya maşını bu sahədə də öz işini görmüşdü, insanların həyatı acı nəticələrlə bitmişdi. Qurultayın nümayəndələri, milli elitanın say-seçmə ziyalıları kütləvi şəkildə məhv edilmişdir. 1926-cı ildə başlamış tədbirin sonluğu 1937-ci ildə NKVD zirzəmilərində tamamlanmışdır.

Xalq yazıçısı Anar "Fərəh. Ümid. Faciə" məqaləsində yazırdı: "…İştirakçılar qurultayı böyük FƏRƏH hissiylə keçiriblər. Mübahisə də ediblər, bir-birləriylə razılaşmayıblar da, amma bütün çıxışlarda türk xalqlarının misilsiz mənəvi və mədəni intibahına böyük ÜMİD səslənir. Və qurultaydan sonra keçən müsibətli illəri, həm ayrı-ayrı qurultay iştirakçılarının, həm də bütün türk xalqlarının başına gələn bəlaları yada salanda FACİƏ sözü meydana çıxır". Bu insanlar türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin yaşadılmasına misilsiz töhfələr vermiş, dilçilik, latın qrafikasına keçid, terminologiya, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, metodika sahələrində problemlərin həllinə və inkişaf yollarına işıq salan baxışlar sisteminin əməli-nəzəri prinsiplərini işləyib hazırlamışdılar, genişmiqyaslı yaradıcılıq fəaliyyəti göstərmişdilər. "Vaxtında dünyasını dəyişmiş Səmədağa Ağamalıoğlundan başqa Azərbaycan nümayəndələrinin hamısı təkrar edirəm, istisnasız HAMISI 37-ci ilin Stalin repressiyalarının qurbanı olublar. Güllələnən güllələnib, sürgün edilən sürgün edilib, hər halda heç biri qayıtmayıb". Ağazadə Fərhad, Axundov Ruhulla, Qubaydulun Qaziz (Bakıda işləyən tatar alimi), Cəbiyev Həbib, Zeynallı Hənəfi, Zifelt Simumyagi (Bakıda işləyən eston ədəbiyyatçı), Qasımov Pənah, Quliyev Mustafa, Məmmədzadə Cabbar, Məmmədzadə Cəmil, Musabəyov Qəzənfər, Pepinov Əhməd Cövdət, Sultanova Ayna, Sultanov Həmid, Xocayev Xalid Səyid, Çobanzadə Bəkir, Əfəndiyev Sultan Məcid…

## Əvəzsiz xidmət və son aqibət

I Türkoloji Qurultaya katiblik edən 5 nəfərdən biri Ayna Sultanova olub. O, bu möhtəşəm tədbirdə iştirak edən yeganə azərbaycanlı qadın idi. Ayna Mahmud qızı 1895-ci ildə Şabran rayonunun Pirəbədil kəndində doğulub. 1912-ci ildə Bakıda böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa edilən "Müqəddəs Nina" gimnaziyasını bitirib.



1918-ci ildə ailə həyatı qurub, bolşevik partiyasının sıralarına daxil olub. Bir müddət sonra Həştərxana gedib. Rusiya Kommunist Partiyasının Həştərxan Quberniya Komitəsi müsəlman bölməsi rəyasət heyətinin üzvü və Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda maarif şöbəsinin müdiri vəzifəsində çalışıb. A.Sultanova 1919-cu ilin avqustunda Moskvaya Y.Sverdlov adına kommunist universitetində oxumağa göndərilib.

Milli Hökumət süqut etdikdən, 1920-ci ilin 28 aprel işğalından sonra Azərbaycana qayıdan A.Sultanova Kommunist Partiyasının Mərkəzi Komitəsi aparatında qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsi müdirinin müavini, sonra müdiri vəzifələrində çalışıb. O, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin orqanı olan "Şərq qadını" jurnalının da ilk redaktoru olmuşdur.

Ayna Sultanova Həmid Sultanovun həyat yoldaşı, Qəzənfər Musabəyovun bacısı idi. Sağlığında "Lenin partiyasının sədaqətli qızı" adlandırılsa da, sonradan xidmət etdiyi rejim onu repressiya qurbanı etdi. Tədqiqatçılar yazırlar ki, Ayna Sultanova bolşevik partiyasının ilk üzvü olan azərbaycanlı qadın idi. O, "Kommunist", "Pravda", "Bakinski raboçi", "Zarya Vostoka" və başqa qəzetlərdə məqalələrlə çıxış edərək sovet hökumətinin təbliğatçısı olub.

Professor Cəlal Qasımov araşdırmalarında qeyd edir ki, Azərbaycan Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən 29 avqust 1937-ci ildə Ayna Sultanovanın həbsi və evində axtarış aparılması barədə 1209 saylı order imzalanır: "Nədənsə bu müddətdə o, həbs edilmir. Ayna Sultanova 1937-ci ildə Azərbaycandakı özbaşınalıqlara son qoymaq və həyat yoldaşı Həmid Sultanovun azadlığa buraxılması üçün İ.V.Stalinlə görüşmək məqsədilə Moskvaya gedir. 11 oktyabr 1937-ci ildə C.Bağırov Ayna xanımın həbs olunması və xüsusi mühafizə dəstəsinin müşayiəti ilə Bakıya gətirilməsi sifarişini verir. 19 oktyabrda Ayna Sultanova həbs edilir".

Oktyabrın 21-də NKVD-nin Baş Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşı Bermanın imzaladığı orderlə məhkumun evində axtarış aparılır. Axtarış zamanı ondan 044804 №-li həmkarlar bileti, məxfi yazılar, şəxsi və xidməti sənədlər, fotoşəkillər götürülür. 1 noyabr 1937-ci ildə A.Sultanova Butur türməsinin rəisinə verilən göstərişə əsasən xüsusi kanvoyla, xüsusi vaqonda, tək adamlıq kamerada Moskvadan Bakıya göndərilir. Bu qatar ölüm qatarı idi.

Repressiyalar, işgəncələr bir çox tanınmış simaların, o cümlədən Ayna Sultanovanın da ömrünə son qoyur. İstintaq materiallarında bu xanımı əks-inqilabi millətçi təşkilatın üzvü olmaqda, burjua-millətçi təşkilatın işində iştirak etməkdə, ziyankarlıqda, Azərbaycan MK katibinə terror hazırlayan qrupa rəhbərlikdə ittiham edirlər.

Dindirməni erməni millətindən olan müstəntiq B.Martirosyan aparır. Bütün dindirmələr nəticəsiz qalır. Ayna Sultanova mənəvi, fiziki, psixoloji işgəncələrə dözərək özünün müqəssir olmadığını israrla bildirir. 2 dekabr 1937-ci il, 15 yanvar 1938-ci il, eləcə də 28 yanvar 1938-ci il tarixlərində verdiyi ifadələrində də o, əks-inqilabi təşkilatın üzvü olmadığını söyləyir.

Nəhayət, 2 iyul 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hazırlıq iclasında qərara alınır ki, Ayna Mahmud qızı Sultanovanın cinayət işinə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının qapalı məhkəmə iclasında baxılsın. 3 iyul 1938-ci ildə Matuleviç, Kolpakov, Kulik və Kazlovun iştirakı ilə Ayna Sultanovanın məhkəməsi baş tutur. İstintaq dövründə olduğu kimi, 55 dəqiqəlik məhkəmədə də Ayna Sultanova özünü müqəssir hesab etmir. Bütün bunlara baxmayaraq, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının 1938-ci il 3 iyul tarixli hökmü ilə A.Sultanova xalq düşməni elan edilir və güllələnir.

## Xüsusi orqanların izlədiyi adam

Tarixi qurultayın ən fəal iştirakçılarından biri də Salman Mümtaz olmuşdur. O, türk xalqlarının mədəni birliyi ideyasını dəstəkləmişdir. S.Mümtaz zəmanəsinin parlaq şairlərindən olduğu qədər də, görkəmli ədəbiyyatşünas, mətnşünas və biblioqraf, Orta əsr əlyazmalarının kolleksiyaçısı kimi tanınırdı. Bu böyük alim də repressiya qurbanlarından idi. Xüsusi orqanlar tərəfindən daim izlənirdi.

Salman Mümtaz 1884-cü ildə Şəki şəhərində dünyaya gəlmişdi. Uzun illər ailələri Aşqabadda yaşamış, orta təhsilini bu şəhərdə almışdı. Fars, ərəb, urdu dillərini mükəmməl öyrənmişdi. Məktəb illərində rus dilinə də eyni mükəmməlliklə yiyələnmişdi.

1906-cı ildə Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması Salman Mümtazın həyatında çox böyük dəyişiklik yaradır. O, jurnalda məqalələrlə çıxış etməyə başlayır. Tiflisdə Cəlil Məmmədquluzadənin Ömər Faiq Nemanzadə ilə birgə yaratdığı "Qeyrət" mətbəəsində 1913-cü ildə onun ilk kitabı nəşr olunur. Kitab "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-halı" adlanırdı.

1918-ci ildə gənc yazar ailəsi ilə birlikdə Bakıya köçür. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti yeni qurulmuş, cümhuriyyətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzeti də yenicə nəşrə başlamışdı. Salman Mümtaz "Azərbaycan" qəzeti ilə əməkdaşlıq edir, jurnalistlik fəaliyyəti ilə yanaşı, Azərbaycan klassiklərinin əlyazmaları ilə ciddi şəkildə maraqlanır və onları toplamağa başlayır.

1920-1925-ci illərdə Salman Mümtaz Azərbaycan ədəbiyyatı və incəsənəti ilə bağlı 200-dən çox kitab, məqalə və əlyazma toplamışdı. O, əldə etdiyi qiymətli xəzinənin incilərini o vaxt yeni nəşrə başlamış "Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" rubrikası altında məqalələrlə təqdim edirdi. Bu fəaliyyəti ilə Salman Mümtaz Azərbaycan ədəbiyyatına dair 15, xalq ədəbiyyatına aid 2 əsəri, eləcə də Məhəmməd Füzulinin üç cilddə əsərlərini, "250 şair" toplusunu, "Xətai" divanı və digər əsərlərini oxuculara təqdim etmişdi. 1925-1926-cı illərdə İmadəddin Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh də daxil olmaqla, 24 şairin ilk toplu nəşrinin təqdim olunması məhz Salman Mümtazın fədakar əməyinin nəticəsidir.



Onun nəşrə hazırladığı "Qövsi Təbrizi" (1925), "Qasım bəy Zakir" (1925, 1936), "Molla Pənah Vaqif" (1925, 1937), "Nəsimi" (1926), "Mirzə Şəfi Vazeh" (1926), "Vidadi" (1936) və sair adlı kitablar bu şairlər barədə nəşr edilmiş ilk külliyyatlar idi.

Salman Mümtaz 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın iştirakçılarından idi. O, qurultayda "Nəsimi" adlı yeni kitabını təqdim edir. Bu mötəbər tədbir ona akademik Fuad Köprülüzadə, "Füyuzat" jurnalının yaradıcısı Əli bəy Hüseynzadə, tatar ədəbiyyatçısı Əziz Qubaydullin, tanınmış şərqşünaslar Vasili Bartold, Sergey Oldenburq və başqa ziyalılarla tanışlıq, ünsiyyət imkanı yaradır. Salman Mümtaz topladığı əlyazmaları "Kitabxaneyi-Mümtaziyyə" adlandırdığı şəxsi kitabxanasında qoruyurdu, Bartoldla Oldenburq qurultayda iştirak edərkən onun şəxsi kitabxanası ilə də tanış olur, buradakı əlyazmaların zənginliyinə və elmi tərtibatına heyranlıqlarını gizlədə bilmirlər. Onun kitabxanasının əsas üstünlüyü onda idi ki, buradakı əlyazmaların əksəriyyəti türk dilində idi.

Salman Mümtaz I Türkoloji Qurultayda nadir tarixi mənbələr və ədəbi materiallar əsasında çıxışlar edərək türk dünyasının elmi elitasının diqqətini çəkmişdir. Hətta Türkiyədən gəlmiş görkəmli alim Əli bəy Hüseynzadə onun bu çıxışlarını və elmi hazırlığını yüksək qiymətləndirmişdir. Mümtaz qurultayın Rəyasət Heyətinin üzvlərindən biri olmuş və tədbirin keçirilməsi üçün yaradılan alt komissiyalarda (orfoqrafiya və terminologiya məsələləri üzrə) fəal çalışmışdır. O, çıxışlarında klassik Azərbaycan şairlərinin (Xətai, Füzuli və b.) yaradıcılığının ümumi türk kontekstində öyrənilməsinin vacibliyini vurğulamışdır. Bir sözlə, Salman Mümtaz bu tarixi tədbirdə Azərbaycan ədəbiyyatı və klassik irsin öyrənilməsi üzrə görkəmli mütəxəssis kimi iştirak etmişdir.

Qurultaydakı bu fəallığı və xüsusilə xarici türkoloqlarla (məsələn, Fuad Köprülü ilə) qurduğu sıx əlaqələr sonradan repressiya illərində ona qarşı "pantürkizm" ittihamı irəli sürülməsinə səbəb olmuşdur.

1937-ci ilin repressiya burulğanı belə bir ziyalının da taleyini qaraldır. Həmin ilin iyununda "ideoloji səhvlər" bəhanəsi ilə onu Azərbaycan Yazıçılar Birliyindən çıxarırlar. Salman Mümtaz tezliklə bütün digər vəzifələrindən də azad edilir. 8 oktyabr 1937-ci ildə isə Bakıdakı evində həbs olunur.

Ona qarşı müxtəlif ittihamlar irəli sürürlər. Həmin dövrdə Salman Mümtaz "Azərbaycanın milliyyətçilik dastanı" kimi göstərilən "Koroğlu" üzərində işləyirdi. Bir qədər əvvəl isə Mahmud Kaşğarinin "Divanı"nın nəşrə hazırlanmasında fəal iştirak etmişdi. Ona qarşı əsas ittihamlar əks-inqilabi millətçi mövqedə dayanması, pantürkist fikirləri ilə bağlı idi. Salman Mümtaz bu iddiaları rədd etsə də, qırmızı terroru həyata keçirən cəlladlar ondan əl çəkmədilər. Azərbaycanın görkəmli ziyalısına Sinman, Qalstyan, Avanesyan və Borşev tərəfindən 3 ay dəhşətli işgəncələr verildi. 7 dekabr 1937-ci ildə Qalstyan Salman Mümtazın işi üzrə istintaqı bitirir. Dekabrın 8-də Avanesyan onun ittiham aktını təqdim edir. Bu ittihamda qeyd olunur ki, Salman Məmmədəmin oğlu Əsgərov Azərbaycan əks-inqilabi burjua təşkilatının üzvüdür. O, Azərbaycan Sovet Respublikasını SSRİ-dən ayırmağa çalışan və 1936-cı ildə Elmlər Akademiyasında əsası qoyulan əks-inqilabçı pantürkist mərkəzinin fəal üzvüdür. S.Mümtaz Azərbaycan SSR Cinayət Məcəlləsinin 69, 70, 72, 73-cü maddələri ilə təqsirli bilinir.

Bir faktı qeyd edək ki, 1926-cı ildə keçirilən I Türkoloji Qurultayın vahid türk əlifbası və imlası barəsindəki qərarlarını, həmçinin yaranmaqda olan türk mənəvi birliyini aradan götürmək məqsədilə qurultayın demək olar ki, bütün iştirakçıları "pantürkist", "millətçi", "əks-inqilabçı" elan edildi, repressiyaya məruz qalaraq qətlə yetirildi. Türk adı qadağan edildi. Tarixin tam öyrənilməməsi üçün qədim türk əlyazmaları və ərəb əlifbasında qələmə alınmış bütün kitablar yandırıldı. Salman Mümtaz və onun kitabxanası da bu siyasətin qurbanı oldu. 1937-ci ilin oktyabrında Salman Mümtaz NKVD əməkdaşları tərəfindən həbs edilərkən onun iki böyük maşına yüklənmiş əlyazmalarının hamısı müsadirə edildi.

Hərbi kollegiyanın cəmi 30 dəqiqə çəkən iclasında ömrü ilə əsrlərə işıq salan ziyalı 10 il azadlıqdan, 5 il bütün siyasi hüquqlarından məhrum edildi. Məhkəmə onun bütün əmlakının müsadirə olunmasına qərar çıxardı. O, 24 fevral 1938-ci ildə Sol-İletsk həbsxanasına, daha sonra Oryol şəhərinə cəza çəkmək üçün göndərildi.

"Qırmızı terror"un ən böyük zərbəsi Salman Mümtazın illərin əziyyəti hesabına topladığı xəzinəyə dəydi. Bəzi mənbələrə görə, onun həbsindən sonra kitabxanasındakı 270 əlyazma məhv edildi.

Bu, Azərbaycanın ziyalı elitasının soyqırımı idi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Muzey yaratdı, həbs olunub güllələndi

1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət həddinə çatan, ölkənin hər tərəfini bürüyən repressiya dalğası heç bir günahı olmayan yüzlərlə zəka sahiblərini, din xadimlərini və başqa işıqlı insanları özü ilə apardı. Uzun illərdən sonra Sibirə sürgün olunmuş, güllələnmiş bu insanların əksəriyyətinə məhkəmənin qərarı ilə bəraət verildi. Bu gecikmiş bəraət isə heç nəyi geri qaytarmadı, ağrı-acılara məlhəm olmadı.



Azərbaycan xalqının milli sərvəti olan maddi və mənəvi abidələrinin qorunması və gələcək nəsillərə çatdırılması işində böyük fədakarlıq göstərmiş Əhməd Əfəndi Çələbizadə də repressiya qurbanı olmuşdur. Yaşadığı dövrün görkəmli din xadimi və ziyalısı kimi tanınan, xalqının gələcəyini düşünən bu insan böyük əziyyətlər və çətinliklər bahasına Quba rayonunda ilk dəfə tarix muzeyi yaratmışdır. Ömrünün sonrakı illərində muzeyi daha da genişləndirmiş, tarixi keçmişimizi özündə yaşadan yeni-yeni eksponatlarla zənginləşdirmişdir.

Əhməd Çələbizadənin bu istiqmətdə planları geniş idi. Amma 1937-ci ilin repressiya dalğası bir gün onu da haqladı. Gecələrin birində xalqı üçün işıqlı işlər görən Əhməd Çələbizadənin də qapısı qəfil döyüldü. Onun həyatı kimi, xalqı üçün görəcəyi işlər də yarımçıq qaldı.

Əhməd Çələbizadə 1892-ci ildə Quba şəhərində dünyaya göz açıb. Atası Əbdürrəhim Quba Cümə məscidinin imamı olub. Əhməd ibtidai təhsilini atasının dərs dediyi mədrəsədə alıb. Burada ərəb və fars dillərini də öyrənib. 1912-ci ildə dini təhsilini Tiflisdəki Sunitski adına Cənubi Qafqaz ruhani məktəbində davam etdirib. 1913-cü ildə təhsilini uğurla başa vurduqdan sonra Qubaya qayıdıb. Yaşının az olmasına baxmayaraq, bacarığını və biliyini nəzərə alaraq onu Cümə məscidində imamın köməkçisi vəzifəsinə təyin ediblər. 1922-ci ildə atası imam Əbdülrəhim Əfəndi dünyasını dəyişdikdən sonra Əhməd Cümə məscidinin katibi seçilib. O ruhani kimi fəaliyyət göstərməklə yanaşı, mədrəsədə müəllim işləyib.

Əhməd Əfəndi öz xalqının tarixinə, mədəniyyətinə və ədəbiyyatına dərindən yiyələnmişdir. Bir neçə dil bilən Çələbizadə həm də bölgədə ədəbiyyat bilicisi kimi tanınmışdır.

Əhməd Çələbizadə muzey yaratmaqla bərabər, həm də Quba bölgəsinin etnoqrafiyası ilə bağlı araşdırmalar da aparmışdır. 1935-1937-ci illərdə Quba rayonunun adət-ənənələri haqqında "Quba - dövrün adət və qaydaları" adlı kitab yazmışdır. Onun Quba bölgəsinin etnoqrafiyasına aid apardığı çöl-tədqiqat işləri Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunur. Həmin tədqiqat işlərində Quba rayonuna aid etnoqrafik materiallar, qubalıların adət və ənənələri, icra etdikləri dini mərasimlərlə bağlı qiymətli materiallar yer alıb. Tədqiqat işində həmçinin bölgədə mövcud adət və ənənələr, o cümlədən toy, dini ayinlər, bayramlar, sınaqlar, etiqadlar, habelə bölgənin təsərrüfat həyatı - əkinçilik, bostançılıq, tərəvəzçilik haqqında geniş məlumat verilib.

Çələbizadə tədqiqat işində Qubada məşhur bayramlardan danışarkən Orucluq, Qurban və Novruz bayramlarının xalq tərəfindən geniş qeyd olunduğunu yazırdı. Bu bayramların necə icra olunduğunu ətraflı təsvir edirdi. Tədqiqatçı Novruz (nevruz) bayramının Quba şəhərində olduqca təntənəli keçirildiyini xüsusi olaraq qeyd edirdi.

Əhməd Əfəndi Qubadakı məşhur müalicəvi sulardan bəhs edərkən yazır ki, bu sular xalqın etiqadına görə müqəddəs sayılır. Bunlardan ən məşhurlarının - Amsar isti suyu, Xaltan isti suyu, Xanəgah isti suyu, Pir bəhyə isti suyunun adını çəkir və hər birinin müalicəvi xüsusiyyətlərini sadalayır.

Əhməd Çələbizadənin ən böyük xidmətlərindən biri 1924-cü ildə Qubada muzey yaratmasıdır. Quba Tarix-Diyarşünaslıq Muzeyi 1924-cü ildən 1935-ci ilədək ictimai əsaslarla fəaliyyət göstərib. Xalq Maarif Komissarlığının 14 may 1935-ci il əmri ilə Əhməd Çələbizadə Quba Tarix Muzeyinə müdir təyin olunub. 1937-ci ildə repressiyaya məruz qaldıqdan sonra muzeyin fəaliyyəti dayandırılıb. Bir çox eksponatlar dağıdılıb, bəzi qiymətli kitablar yandırılıb.

1920-ci ilin aprel işğalından sonra Azərbaycanda zorla hakimiyyətə gəlmiş sovet hökumətinin dinə və din xadimlərinə qarşı mübarizə apardığını görən Əhməd Əfəndi 1930-cu ildə qəzetlərin birində rəsmi olaraq mollalıqdan könüllü imtina etdiyini bildirib. Amma buna baxmayaraq, dövrünün işıqlı ziyalısı Əhməd Çələbizadə 1937-ci ilin avqustunda həbs olunaraq Bakı şəhərinə aparılıb. 1937-ci il sentyabrın 1-də üçlüyün qərarı ilə güllələnib. Ölümündən 19 il keçəndən sonra, 1956-cı il noyabrın 6-da günahsız olduğuna görə ona bəraət verilib.

Bir zamanlar yaratdığı Quba Tarixi-Diyarşünaslıq Muzeyində 1937-ci ildə repressiya qurbanı olmuş Əhməd Əfəndi Çələbizadənin də şəkli eksponat kimi nümayiş etdirilir. Bələdçilər ziyarətə gələnlərə onun fəaliyyətindən ətraflı danışırlar. Xalqı üçün gördüyü xeyirxah işlərə, etdiyi işıqlı əməllərə görə Əhməd Əfəndi həmişə xatırlanacaq və yad ediləcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Nail Fahil oğlu Dənziyevin nəşinin qalıqları Lerik rayonunda torpağa tapşırılıb.

Lerik rayonunun Mastail kənd sakini, 1974-cü il təvəllüdlü Nail Fahil oğlu Dənziyevin nəşinin qalıqları aparılan araşdırmalardan sonra aşkar edilərək eyniləşdirilib.

Nail Dənziyev 1992-ci ilin sentyabrında Sırxavənd istiqamətində gedən döyüşlər zamanı itkin düşmüşdü. 18 yaşında Vətən qarşısında borcunu yerinə yetirərkən itkin düşən hərbçi uzun müddət itkin hesab olunub. 1997-ci ilin fevralında ona rəsmi olaraq şəhid statusu verilib.

Dəfn mərasimində Lerik rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, hüquq-mühafizə orqanlarının əməkdaşları və rayon sakinləri iştirak ediblər.

Şəhidin xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub. Dövlət himni səsləndirilib, tabutuna bükülmüş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim olunub.

Şəhidin nəşinin qalıqları yaylım atəşi altında torpağa tapşırılıb.

❖ ❖ ❖

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Quliyev Mahir Abuzər oğlunun nəşinin qalıqları Cəlilabad rayonunda torpağa tapşırılıb.



Əvvəlcə şəhidin ailə üzvlərinin yaşadığı evdə vida mərasimi keçirilib. Mərasimdə şəhidin doğmaları, yaxınları, rayon sakinləri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhidin xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub.

Daha sonra şəhidin nəşinin qalıqları izdihamla rayon qəbiristanlığına gətirilib. Dəfn mərasimində Cəlilabad Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, şəhid ailələri və çoxsaylı rayon sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər şəhidin Vətən qarşısında xidmətlərindən danışıb, onun xatirəsinin daim əziz tutulacağını bildiriblər.

Şəhidin nəşinin qalıqları yaylım atəşi altında torpağa tapşırılıb, Dövlət himni səsləndirilib. Şəhidin tabutuna bükülmüş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim olunub.

Qeyd edək ki, Quliyev Mahir Abuzər oğlu 1958-ci il oktyabrın 31-də Cəlilabad rayonunda anadan olub. O, 1992-ci ildə Ağdərə rayonu istiqamətində gedən ağır döyüşlər zamanı itkin düşmüşdü. Uzun illər itkin hesab olunan hərbçimizin nəşinin qalıqları aparılan müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

❖ ❖ ❖

Fevralın 19-da Birinci Qarabağ müharibəsinin itkin şəhidləri Vüqar Səlim oğlu Babayev Göyçayda, Azad Sabir oğlu Cəlilov Ucarda, Fərman Məhəmməd oğlu Feyzullayev İsmayıllıda dəfn olunublar.



Vida mərasimlərindən sonra Vüqar Səlim oğlu Babayev Göyçay şəhər Şəhidlər xiyabanında, Azad Sabir oğlu Cəlilov Ucar rayonunun Alpout kəndində, Fərman Məhəmməd oğlu Feyzullayev isə İsmayıllı rayonunun İstisu kənd qəbiristanlığında torpağa tapşırılıb.



Dəfn mərasimlərində hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb. Mərasimdə yerli sakinlər, şəhidlərin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Qeyd edək ki, Vüqar Səlim oğlu Babayev 1972-ci il aprelin 16-da Göyçayın Qarabaqqal kəndində anadan olub. 1994-cü il fevralın 12-də Kəlbəcər rayonunun Yanşaq kəndi istiqamətində gedən döyüşlər zamanı itkin düşmüş sayılırdı.

Azad Sabir oğlu Cəlilov 1975-ci il fevralın 14-də Ucarın Alpout kəndində anadan olub. 1994-cü il fevralın 6-da Kəlbəcər rayonunun Bağırlı kəndi, Murovdağ silsiləsində gedən döyüşlər zamanı itkin düşmüşdü.

Fərman Məhəmməd oğlu Feyzullayev 1971-ci il aprelin 20-də İsmayıllı rayonunun İstisu kəndində anadan olub. O, 1994-cü ildə Kəlbəcər rayonu, Murovdağ silsiləsində gedən döyüşlər zamanı itkin düşmüş sayılırdı.

Uzun illər itkin hesab olunan hərbçilərimizin nəşlərinin qalıqları müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailələrinə təhvil verilib.

❖ ❖ ❖



Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan Balakən rayonunun Hənifə kənd sakini Cavanşir İsrafil oğlu Həsənovun nəşinin qalıqları 34 il sonra dəfn olunmaq üçün doğulduğu kəndə gətirilib.

Şəhidlə ata yurdunda vida mərasimi keçirilib, cənazə namazı qılınıb.

Balakən Şəhidlər xiyabanında keçirilən dəfn mərasimində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəhbərləri, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhidin ailə üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Dəfn mərasimində hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Şəhidin nəşinin qalıqları dəfn edildikdən sonra məzarı üzərinə gül dəstələri qoyularaq, ruhuna dualar oxunub. Cavanşir Həsənovun nəşinin büküldüyü Azərbaycan Respublikasının üçrəngli bayrağı şəhidin oğlu Cavanşir Həsənova təhvil verilib.

Qeyd edək ki, Cavanşir Həsənov 1967-ci il martın 21-də Balakənin Hənifə kəndində anadan olub. Birinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edib, 1992-ci ilin iyun ayında itkin düşüb. O, döyüşlərə qoşulanda ailəli idi. İtkin düşməsindən sonra 3 ay sonra oğlu dünyaya gəlib. Ailəsi atasının xatirəsini yaşatmaq üçün körpəyə Cavanşir adı verib.

Uzun illər itkin hesab olunan hərbçimizin nəşinin qalıqları müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

❖ ❖ ❖



Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhid Şahin Heydər oğlu Kərimov Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Şəhidin nəşinin qalıqları bu gün yaşadığı Mingəçevir şəhərinə gətirilib. Şəhidlə vida mərasimi keçirilib, cənazə namazı qılınıb, dualar oxunub.

Sonra şəhidin nəşinin qalıqları Mingəçevir şəhərindəki Şəhidlər xiyabanına gətirilib. Dəfn mərasimində şəhidin ailə üzvləri və yaxınları ilə yanaşı, şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, deputat Aydın Mirzəzadə, qazilər, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə şəhidin Vətən qarşısında xidmətlərindən danışılıb, onun xatirəsinin daim əziz tutulacağı bildirilib.

Şəhidin nəşinin qalıqları yaylım atəşi altında torpağa tapşırılıb. Tabutun üzərinə örtülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin anasına verilib.

Qeyd edək ki, Şahin Kərimov 1973-cü il dekabrın 16-da Mingəçevir şəhərində anadan olub. O, Birinci Qarabağ müharibəsində iştirak edərək Vətənin müdafiəsində xidmət göstərib. 1993-cü ilin aprelində ağır döyüşlər zamanı itkin düşüb. Onun nəşinin qalıqları Kəlbəcər işğaldan azad edildikdən sonra aşkarlanıb, aparılan müvafiq ekspertiza və eyniləşdirmə prosedurlarından sonra müəyyən edilərək ailəsinə təhvil verilib.

❖ ❖ ❖

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Rəsul Babaxan oğlu Ağayev Sabirabad rayon Nərimankənd kənd qəbiristanlığında dəfn olunub.



Əvvəlcə Nərimankənd kəndində şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra Rəsul Ağayev hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, Rəsul Ağayev 1968-ci ildə Nərimankənd kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci il Sırxavənd kəndi (Ağdərə) istiqamətində gedən döyüşlərdə itkin düşüb. Rəsul Ağayev Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək dəfn olunan şəhidlərdən biridir.

*AZƏRTAC*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Elektron siqaretlərin qadağan olunması zərurət idi

**Son** dövrlərdə elektron siqaretlər cəmiyyətin müxtəlif yaş qrupları arasında sürətlə yayılmağa başlayıb. Siqaretə daha "təhlükəsiz" alternativ kimi təqdim edilsə də, bu cihazların estetik görünüşü, müxtəlif dad seçimləri, istifadəsinin rahatlığı və sosial mediada populyarlaşdırılması onların xüsusilə yeniyetmə və gənclər arasında trendə çevrilməsinə səbəb olub.



Məlumatlara görə, dünyada 13-15 yaş arası 38 milyondan artıq yeniyetmə elektron siqaretdən istifadə edir. Araşdırmalar göstərir ki, ənənəvi tütün məhsullarını buraxmaq məqsədilə elektron siqaretə keçənlərin təxminən 80 faizi sonradan bu məhsullardan asılı vəziyyətə düşür.

## Cərimələr də müəyyən edilir

Artıq dünyanın 40-dan çox ölkəsində elektron siqaret qadağan edilib. Önümüzdəki illərdə bu sayın daha da artacağı gözlənilir. Azərbaycan da elektron siqaretlə mübarizə aparan ölkələr sırasındadır.

Elektron siqaretlərin və onların komponentlərinin dövriyyəsinin qadağan edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə hazırlanan qanun layihəsi dekabrın 30-da Milli Məclisdə səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, topdan və pərakəndə satışı və satış məqsədilə saxlanılmasına görə cərimələr də müəyyənləşdirilib. Layihəyə əsasən, aprelin 1-dən elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, topdan və pərakəndə satışı və satış məqsədilə saxlanılmasına görə inzibati xətanın bilavasitə obyekti olmuş mallar müsadirə edilməklə, fiziki şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min altı yüz əlli manatdan iki min iki yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə ediləcək.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafanın sözlərinə görə, elektron siqaretlərlə bağlı qanunun qüvvəyə minməsi aprelin 1-dən nəzərdə tutulur. Komitə sədri bildirib ki, qanun pozuntusuna görə sanksiyalar məsələsi də artıq müzakirə olunur: "Elektron siqaretlər proqnozlaşdırılmayan müəyyən xəstəliklərin yayılmasına səbəb olur, bu da olduqca zərərlidir. Zahirən təhlükəsiz görünsələr də, həm kimyəvi tərkibi, həm də gələcəkdə hansı fəsadlara səbəb olacağı ilə bağlı hər hansı elmi tədqiqat yoxdur. Buna görə də elektron siqaretlərin qadağan olunması zərurəti yarandı. Bu istiqamətdə irəli sürülən təşəbbüs Milli Məclisin müvafiq komitələri tərəfindən dəyərləndirilərək qanunda dəyişiklik təklif olundu".

## Zərərli vərdişdən yalnız birgə səylə xilas olmaq mümkündür

Elektron siqaret aerozollarının tərkibində olan propilenqlikol, dadlandırıcı maddələr, nitrozaminlər və müxtəlif metallar kimyəvi oksidləşmə və iltihabi proseslərə səbəb olaraq damarların zədələnməsinə, laxtalanmaya və koronar arteriyaların spazmına gətirib çıxarır. Nəticədə ürək damarlarında qan dövranı azalır ki, bu da ürək-damar və xroniki tənəffüs xəstəlikləri riskini artırır. Alimlər əvvəlki illərdə aparılmış və infarkt üzrə 430875, insult üzrə isə 1 milyondan çox insanı əhatə edən 12 elmi tədqiqatın nəticələrini təhlil ediblər. Aydın olub ki, elektron siqaretdən istifadə edən şəxslərdə infarkt keçirmə ehtimalı istifadə etməyənlərlə müqayisədə 53 faiz daha yüksəkdir. Xüsusilə əvvəllər ənənəvi siqaret çəkmiş və hazırda elektron siqaret istifadə edənlərdə riskin daha yüksək olduğu müəyyən edilib. Araşdırmada qeyd olunub ki, əvvəllər siqaret çəkmiş və sonradan elektron siqaret istifadə edən şəxslərdə insult riski siqaret çəkməyənlərlə müqayisədə 73 faiz çoxdur.

Xüsusilə yeniyetmə və gənclər arasında elektron siqaret istifadəsinin yayılması qəbuledilməzdir. Belə ki, yeniyetməlik dövrü şəxsiyyətin formalaşması baxımından olduqca həssas mərhələdir. Elektron siqaretlər hələ tam inkişaf etməmiş beyin fəaliyyətinə mənfi təsir göstərərək yaddaş zəifliyi, depressiya, davranış problemləri və diqqət pozuntularına səbəb olur.

Yeniyetmə və gənclərin elektron siqaret istifadəsinin qarşısını almaq üçün valideynlər, müəllimlər, səhiyyə mütəxəssisləri və dövlət qurumları birgə, sistemli və maarifləndirici tədbirlər həyata keçirməlidirlər. Ailə güclü təsir vasitəsidir. Əgər valideynlər və ya ailənin digər üzvləri tütün məmulatları və ya elektron siqaret istifadə edirsə, bu davranış yeniyetmə üçün normal qəbul edilə bilər. Valideyn nəzarətinin zəif olması, uşağın emosional ehtiyaclarının qarşılanmaması, maraqlı və faydalı fəaliyyətlərin çatışmaması gənclərin zərərli vərdişlərə yönəlməsini asanlaşdırır.

Həyatda məqsəd, motivasiya və məşğulluq olmadıqda riskli davranışlara meyil artır. Buna görə də gənclərə maraqlı alternativ fəaliyyətlər, sağlam həyat tərzi nümunələri və düzgün informasiya təqdim olunmalıdır ki, onlar bu zərərli vərdişlərdən uzaq dursunlar. İdman və incəsənətlə məşğul olmaq yeniyetmələrin vaxtlarını səmərəli keçirməsinə kömək edir, eyni zamanda onların mənəvi və sosial ehtiyaclarını qarşılayır. Gənclərin elektron siqaretə marağının azalması yalnız bir qurumun səyi ilə mümkün deyil. Bu problem cəmiyyətin bütün təbəqələrinin birgə fəaliyyəti ilə həll oluna bilər. Maarifləndirmə, dəstək, alternativ imkanların yaradılması və effektiv nəzarət bu mübarizənin əsas dayaqlarını təşkil edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Əli, Hacı Müşfiq, Rafiq və Nail Hüseynovlar, Əlövsət Əliyev, Namiq və Zəfər Azadovlar, İlham və Tural İbrahimovlar, Hidayət, Müstəqim və Mircəfər İsmayılovlar iş adamı Fazil Həsənova anası

**ASYA MİKAYIL QIZI HƏSƏNOVANIN**

Tovuz rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3319
Sifariş 237

Qiyməti 60 qəpik